Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu

Türkiyə Respublikası Başbakanlıq
Dövlət Arxivləri Ümumi Müdirliyi

OSMANLI SƏNƏDLƏRİNDƏ QARABAĞ

11100

"Şərq-Qərb"
Bakı – 2011

O-63

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına
Tarix İnstitutu Elmi Şurasının qərarı ilə nəşr olunur

Layihənin rəhbəri və
ön sözün müəllifi: **Yaqub Mahmudov**
Əməkdar elm xadimi,
AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru, professor

Azərbaycan dilinə tərcümə
edən və çapa hazırlayan: **Telli Qorxmaz**
tarix üzrə fəlsəfə doktoru

Osmanlı sənədlərində Qarabağ.
Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2011, 616 səh.

ISBN 978-9952-34-623-7

© AMEA Tarix İnstitutu, 2011
© "Şərq-Qərb" Nəşriyyat evi, 2011

QARABAĞ TARİXİ OSMANLI MƏNBƏLƏRİNDƏ

"Osmanlı sənədlərində Qarabağ" kitabına

ÖN SÖZ

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda geniş islahatlar proqramı həyata keçirilir. "**Azərbaycan tarixi ilk mənbələrdə**" layihəsi həmin islahatlar proqramının mühüm tərkib hissəsidir. Azərbaycan tarix elminin gələcəyi üçün son dərəcə gərəkli olan bu layihənin həyata keçirilməsi, hər şeydən əvvəl, onunla bağlıdır ki, institutda Azərbaycan tarixinin indiyədək öyrənilməyərək qalan çoxsaylı problemlərinin tədqiq olunması diqqət mərkəzinə götürülmüşdür.

Azərbaycanın müxtəlif tarixi dövrlərdə itirilmiş torpaqlarının tarixinin araşdırılaraq bugünkü nəsillərə olduğu kimi çatdırılması tarixçilərin əsas tədqiqat obyektinə çevrilmişdir.

Azərbaycan tarixinin xüsusi məqsədlərlə təhrif olunmuş və saxtalaşdırılmış səhifələri də yenidən yazılır.

Tarixçilərimiz yuxarıda göstərilən şərəfli və mürəkkəb vəzifələri həyata keçirərkən son dərəcə ağır çətinliklərlə üz-üzə qalırlar. Başlıca çətinlik isə bundan ibarətdir: **müxtəlif xarici dillərdə olan və dünyanın bir çox ölkələrində saxlanılan ilk mənbələrin ölkəmizə gətirilərək nəşr olunmasına və tədqiqatçılara çatdırılmasma indiyədək lazımınca diqqət yetirilməmişdir. Bu bir yana qalsın, hətta ölkəmizdə saxlanılan arxiv sənədləri də nəşr olunmamış, geniş elmi dairələrə və oxucu kütləsinə çatdırılmamışdır. Daha doğrusu, xalqdan gizlədilmişdir.**

Yuxarıda qeyd olunanları nəzərə alaraq Tarix İnstitutu xarici ölkələrin arxivlərində, kitabxanalarında saxlanılan ilk mənbələrin Azərbaycana gətirilərək nəşr olunması və tərcümə edilməsi kimi çox mühüm bir layihənin həyata keçirilməsinə başlamışdır.

Az vaxt içərisində institutda "**Azərbaycan tarixi ilk mənbələrdə**" adlı bu layihənin həyata keçirilməsi sahəsində mühüm uğurlar qazanılmışdır.

"Azərbaycan Xalq Cümhuriyyətinin tarixi Böyük Britaniyanın arxiv sənədlərində" (Bakı, 2008), "Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı"nın I cildi (Bakı, 2009), "İrəvan əyalətinin müfəssəl dəftəri" (Bakı, 2009), "İrəvan əyalətinin icmal dəftəri" (Bakı, 2009), İskəndər bəy Münşinin "Tarixi-aləm arayi – Abbasi" əsərinin doğma dilimizə tərcüməsi (Bakı, 2009), **"Gəncə-Qarabağ əyalətinin icmal dəftəri"** (Bakı, 2010), **"Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı III cild. Xatirələr". (Bakı, 2010), "Azərbaycan tarixi arxiv sənədlərində (1917-1920-ci illər). I cild. Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivinin sənədləri"** (Bakı, 2010), **"Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). I cild. Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədləri".** (Bakı, 2010) və digər nəşrlər institut əməkdaşlarının Azərbaycan tarix elminə mühüm töhfələridir.

Elmi ictimaiyyətə, habelə geniş oxucu kütləsinə təqdim olunan bu sənəd toplusunun – **Türkiyə Cumhuriyyəti Başbakanlık Osmanlı arxivinin** sənədlərinin nəşr olunması (**"Osmanlı sənədlərində Qarabağ"**) Tarix İnstitutunun həyata keçirdiyi "**Azərbaycan tarixi ilk mənbələrdə**" layihəsinin gerçəkləşdirilməsi yolunda əldə olunmuş növbəti mühüm uğurlardan biridir.

Dünyanın ən qədim insan məskənlərindən biri olan Azərbaycanın Qarabağ bölgəsi çox əlverişli təbii şəraiti, gözəl iqlimi, şəffaf suları, meşə örtüyü, yeraltı sərvətləri və eyni zamanda nadir otlaqları ilə bütün tarixi dövrlərdə seçilən diyarlardan biri olmuşdur. Azərbaycanın geniş ərazilərini əhatə edən Qarabağ mənbələrdə, əksər hallarda, "Arran Qarabağı" kimi təqdim olunur. "Arran Qarabağı" terminina ilk dəfə Fəzlullah Rəşidəddinin "Came ət-təvarix" əsərində 1284-cü ilin hadisələrindən bəhs olunarkən təsadüf edilir. Mütəxəsislərin fikrincə, "Qarabağ" adının Azərbaycanda yayılması indiki Qarabağın dağlıq hissəsində yaşamış qədim Sak türkləri ilə bağlı olaraq Ərsak kimi tanınan ərazidə yaşamış oğuz-peçeneq türkləri ilə bağlı olmuş və bu ad sonralar

ərazinin düzən yerlərinə də şamil edilmişdir. Orta əsrlərdə Arranın tərkib hissəsi olan Qarabağ Azərbaycanda baş verən ictimai-siyasi hadisələrin mühüm mərkəzlərindən biri olmuşdur.

Qarabağın zəngin tarixinin ətraflı və dərindən araşdırılması Azərbaycan tarix elminin qarşısında duran ən aktual və ən önəmli məsələlərdən biridir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın uzun illər ərzində yaratmış olduğu zəngin tarixin daha dərindən öyrənilməsi üçün tədqiqatçılarımız qarşısmda geniş imkanlar yaranmışdır. Son illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda bu sahədə xeyli iş görülmüş, mühüm tədqiqatlar aparılmışdır. Dövrün ilk mənbələrinin nəşr olunması bu istiqamətdə tədqiqatların daha da genişləndirilməsinə böyük imkanlar yaratmışdır. Belə nəşrlərdən biri Türkiyə Respublikası Başbakanlıq Osmanlı Arxivləri Baş İdarəsinin nəşr etdirdiyi "**Osmanlı sənədlərində Qarabağ**" kitabıdır. Zəngin Osmanlı arxiv sənədləri əsasında hazırlanan bu sənədlər toplusuna Qarabağın XVI-XX əsrin əvvəllərindəki tarixini əks etdirən çox qiymətli sənədlər daxil edilmişdir.

Sənədlər toplusunun "Siyasi, hərbi və diplomatik əlaqələr" adlanan hissəsində ilk növbədə 1578-1590-cı il Osmanlı-Səfəvi müharibəsinin gedişində Osmanlı ordusunun Qarabağı ələ keçirməsindən, bölgədə Osmanlı idarə sisteminin yaradılmasından bəhs edən sənədlər öz əksini tapmışdır. Sənədlər toplusunun məhz bu hissəsində verilən sənədlərdə I Pyotr dövründə Rusiyanın "isti dənizlərə" çıxmaq üçün Azərbaycanın Xəzərsahili vilayətlərinə yürüşünü, Peterburq və İstanbul müqavilələrinin bağlanması ilə Azərbaycanın Dərbənd, Bakı, Salyan və Lənkəran bölgələrinin işğal edilməsini izləmək mümkündür. XVIII əsrin II yarısında Azərbaycan xanlarının, xüsusən də Qarabağ və Gəncə xanlarının Osmanlı dövləti ilə diplomatik əlaqələri, XIX əsrin əvvəllərində çar Rusiyasının Azərbaycan xanlıqlarının işğalına başlaması, Rusiya-İran, Rusiya-Türkiyə müharibəsinin gedişində Azərbaycan xanlıqlarının Osmanlı dövlətindən yardım almaq üçün göstərdikləri təşəbbüslər, bunun nəticələri və bir çox başqa məsələləri həmin sənədlərdən öyrənmək mümkündür.

XIX əsrin əvvəllərində Cənubi Qafqazın tarixində qanlı faciələr dövrü başlandı. Regionu ələ keçirməyə çalışan Rusiya imperiyası Azərbaycan xanlıqlarına qarşı müharibələrə başladı. Çox çəkmədən Cənubi Qafqaz Rusiya imperiyasının Qacarlar İranı və Osmanlı dövlətinə qarşı apardığı qanlı müharibələr meydanına çevrildi. Rusiya müstəmləkəçiləri İrana və Türkiyəyə qalib gəldikdən sonra, Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə əsasən, Cənubi Qafqazda Qacarlar İranı və Osmanlı imperiyasına qarşı gələcək işğalçılıq planlarını həyata keçirmək üçün xristian-istinadgah məntəqəsi yaratmaq məqsədilə həmin dövlətlərin ərazisində yaşayan ermənilər kütləvi surətdə Şimali Azərbaycana, əsasən İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisinə köçürdü və bu Azərbaycan torpaqlarında demoqrafik vəziyyəti ermənilərin xeyrinə dəyişdirməyə çalışdı. Lakin ermənilərin kütləvi surətdə köçürülüb gətirilməsinə baxmayaraq, çar hakimiyyət orqanları Qarabağ xanlığı ərazisində demoqrafik vəziyyəti birdən-birə dəyişdirə bilmədi.

Burada verilmiş sənədlərdə diqqəti cəlb edən ən mühüm məsələlərdən biri də, budur ki, Rusiyanın bölgədə erməni əhalisinin sayını artırmaq siyasəti məhz rəsmi sənədlərdə öz əksini tapmışdır. Topluda verilmiş materiallar içərisində Anadoluda və Azərbaycanda fəaliyyət göstərən terrorçu erməni-daşnak dəstələrinin törətdikləri soyqırımlardan bəhs edən rəsmi sənədlər xüsusilə diqqəti cəlb edir.

"Mühacirət" başlığı altında təqdim olunan sənədlərdə XX əsrin əvvəllərində erməni-daşnak terrorçu dəstələrinin Şimali Azərbaycan ərazisində, o cümlədən Qarabağda həyata keçirdikləri soyqırımları nəticəsində yerli əhalinin kütləvi şəkildə məhv edilməsi, onların mallarının, əmlakının qarət olunması, kəndlərinin dağıdılması nəticəsində ata-baba yurdlarını tərk etmək məcburiyyətində qalan əhalinin Anadoluya mühacirət etməsi, bu zaman onların qarşılaşdıqları çətinliklər və bunun aradan qaldırılması üçün Osmanlı dövlətinin göstərdiyi səylərə mühüm diqqət yetirilmişdir.

"Osmanlı sənədlərində Qarabağ" adlı sənədlər toplusuna Qarabağla bağlı Türkiyədə saxlanılan 119 sənəd daxil edilmiş-

dir. Bundan başqa bu toplunun "Əlavələr" bölümündə Qarabağ bölgəsi Osmanlı hakimiyyəti altında olan zaman 1732-ci ildə tərtib edilən "**Gəncə timar təhrir**" dəftəri də verilmişdir. Bu dəftərdə Osmanlı dövlətinin bölgədə həyata keçirdiyi iqtisadi siyasəti, timar və ziyamət torpaq sisteminin vəziyyəti barədə geniş və maraqlı məlumatlar vardır.

Düşünürəm ki, "Osmanlı sənədlərində Qarabağ" toplusunun Azərbaycan dilində nəşr edilməsi Qarabağın zəngin tarixinin daha dərindən tədqiq edilməsinə mühüm təkan verəcəkdir.

"Osmanlı sənədlərində Qarabağ" sənəd toplusunu Azərbaycan dilinə çevirən və çapa hazırlayan Telli Qorxmazın bu mühüm işin ərsəyə gəlməsinə böyük əmək sərf etdiyini oxucular yetirməyi özümə borc bilirəm.

Yaqub Mahmudov
Əməkdar elm xadimi,
AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru, professor

TÜRKİYƏ NƏŞRİNİN ÖN SÖZÜ

Bu gün erməni işğalı altında olan Qarabağ, Azərbaycan Respublikasına məxsus Kür, Aras çayları və Göyçə gölü arasındakı dağlıq ərazi ilə, bu bölgəyə bağlı düzənliklərdən ibarət olan strateji bir bölgədir. XVIII əsrdə Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanı Sisianov, coğrafi mövqeyinə görə Qarabağı Azərbaycanın, eyni zamanda İranın qapısı hesab etmiş və Qarabağın işğal edilməsinə daha çox cəhd göstərilməsini tövsiyə edərək, bölgənin Hindistana asan yol açmaq üçün açar olduğuna xüsusi diqqət yetirmişdir. Azərbaycanın ən qədim insan məskənlərindən biri olan Qarabağ, zəngin təbii sərvətləri və strateji əhəmiyyətinə görə bir çox dövlətin həyatında əhəmiyyətli rol oynamış, Səfəvilər dövründə xüsusi bəylərbəyliyə çevrilmişdir. Osmanlı dövlətinin Qafqaz siyasətinin ayrılmaz tərkib hissələrindən biri olan bu bölgə, 1590-cı ildən 1606-cı ilə kimi və sonralar müxtəlif vaxtlarda fasilələrlə Osmanlı hakimiyyətində qalmışdır.

XVIII əsrin ortalarında Nadir şahın ölümü ilə Azərbaycan torpaqlarında qurulan on səkkiz xanlıqdan biri olan Qarabağ xanlığı, xüsusilə də İbrahimxəlil xan dövründə Osmanlı dövləti ilə digər xanlıqlara nisbətən daha sıx əlaqə yaratmışdır.

"Osmanlı sənədlərində Qarabağ" adlı bu əsər Qarabağ bölgəsinin Osmanlılar tərəfindən işğal tarixi olan 1590-cı ildən, bölgədəki Osmanlı əsgərlərinin Mudros sülhünə görə çəkiməsinə, hətta onların çəkilməsindən sonra Azərbaycan Cumhuriyəti dövrünə qədər keçən müddət ərzində Osmanlı dövlətinin bölgə ilə olan əlaqələrini əhatə edir.

Azərbaycanın bir dövlət kimi Rusiya ilə əlaqələrinin tarixi, XV əsrdə IV İvan dövründə (1462-1505) Rusiyada mərkəzləşmiş dövlətin yaranmasının başa çatması dövrünə qədər uzanır.

XVI əsrdə Səfəvi dövləti ilə Rusya arasmda başlayan və əsasən ticarət əlaqələri kimi yaranan bu münasibətlər, Rusiyanın "isti dənizlərə çıxmaq" şəklində formalaşdırılan xarici siyasəti Qafqazın və Azərbaycanın siyasi əhəmiyyətini artırmışdır. Xəzər sahillərinə çıxmağı qarşısına məqsəd qoyan I Pyotrun Prut səfərində (1711) Osmanlılar tərəfindən məğlub edilməsi belə, Rusiyanın Xəzər bölgəsinə marağını azaltmamışdır. I Pyotrun Xəzər sahillərinə çıxmaq cəhdləri 1723-cü il Peterburq və 1724-cü il İstanbul müqavilələri ilə Dərbənd, Bakı, Salyan və Lənkəran bölgələrinin Rusiyaya verilməsi ilə başa çatmışdır ki, bu mərhələləri Osmanlı sənədlərindən izləmək mümkündür.

XIX əsrin əvvəllərinə qədər Rusiya bölgədə ciddi müvəffəqiyyət əldə edə bilməmişdir. Rusiyanın Azərbaycandakı yeni işğalları 1801-ci ildə Şərqi Gürcistanın bəzi bölgələrinin Rusiya tərəfindən işğalı ilə yeni mərhələyə daxil olmuşdur. 1804-cü ildə Gəncə xanlığının işğalı, bunun ardından da 1804-cü ildə başlayan Rusiya-İran müharibəsinin sonunda 1813-cü ildə imzalanan Gülistan və 1826-1828-ci illərdəki ikinci müharibənin sonunda da imzalanan Türkmənçay müqavilələri ilə Azərbaycanın şimal bölgələrinin Rusiyanın hakimiyyəti altına keçməsi başa çatmışdır.

Bu dövrdə Rusiyanın bölgədə möhkəmlənməsi ilə Azərbaycan uğrunda Rusiya-İran və Osmanlı dövləti arasında bir üstünlük mübarizəsi başlamışdır. Azərbaycan xanlıqlarının bu müddətdə xüsusilə Osmanlı dövlətindən kömək tələbləri artmış, Osmanlı dövləti üçün isə əsas məsələnin "xanlıqların öz aralarındaki problemləri həll edərək birlikdə hərəkət etmələrini təmin etmək" olduğu təqdim edilən sənədlərdə öz əksini tapmışdır.

"Siyasi, hərbi və diplomatik əlaqələr" bölməsində əksini tapmış sənədlərdə diqqəti çəkən mühüm xüsusiyyət bölgədəki əhalinin sayını ermənilərin xeyrinə dəyişdirmək səyləri və ermənilərin bölgədə törətmiş olduqları qarışıqlıq cəhdləridir.

Rusiya tərəfindən bölgəyə məqsədli şəkildə həyata keçirilən "ermənilərin köçürülməsi siyasəti" nəticəsində İrandan və Anadoludan bölgəyə köçürülən erməni əhalisi Qarabağın demoqrafik vəziyətini ermənilərin xeyrinə dəyişdirməsinə başlanmasına

baxmayaraq, ermənilər ilə türklər uzun illər dinc şəraitdə yaşamışlar. Ancaq 1877-1878-ci illər Osmanlı-Rusiya müharibəsinin sonunda imzalanan San-Stefano və Berlin müqavilələrindən sonra Anadoluda başlayan erməni hadisələri, 1905-ci il Rusiyada baş verən burjua inqilabı Qafqazda da özünü göstərmiştir. Bölgədə tək hakim ünsür olaraq müstəqil erməni dövləti yaratmaq arzusunda olan ermənilər, türklərə qarşı silahlı mübarizəyə girişmişlər. Azərbaycan torpaqlarında 1905-1907-ci illər arasında təxminən iki il davam edən türk-erməni qarşıdurmaları zamanı yüzlərlə türk kəndi ermənilərin hücumlarına məruz qalmış, bu hücumlarda müsəlman əhali qətl edilmiş və malları qarət olunmuşdur.

"Mühacirət" başlığı altında isə, xüsusilə ermənilər tərəfindən can və mallarına qəsd edilərək başladılan hərəkətlər nəticəsində yurdlarını tərk etmək məcburiyyətində qalan Qarabağlı müsəlman türklərin Anadoluya köç etmələri, bu zaman qarşılaşdıqları çətinliklər, bu problemlərin həlli ilə bağlı Osmanlı dövlətinin göstərdiyi səyləri və nəhayət Anadoluda məskənlərinə dair mövzuları əhatə edən sənədlərə yer verilmişdir.

"Osmanlı sənədlərində Qarabağ" adlı araşdırmada bölgənin Osmanlıların hakimiyyəti dövründə yaradılan idarə quruluşu Gəncə bəylərbəyliyi adı altında idarə olunması Qarabağ ilə əlaqədar sənədlərin bəzən Gəncə ilə birlikdə qeydə alınmasına səbəb olmuşdur. Buna görə əsər, Gəncə və Qarabağ məzmununda qiymətləndirilərək nəşr olunmuşdur.

Osmanlı arxiv sənədləri üzərində aparılan araşdırmalar nəticəsində müxtəlif fondlardan 119 mövzu üzrə hazırlanan bu işə iki sənəd və iki xəritə də əlavə olunmuşdur. Bunlardan birincisi Gəncənin 1732-ci il timar[1] və zəamət[2] təhvil qeydləri kimi hazırlanmış olan dəftərdir. Bu dəftərlə bölgədə olan ən kiçik idari tənzimləmələr, bunların timar və zəamət vəziyyətləri ilə iqtisadi

[1] Osmanlı dövlətində müharibədə iştirak etdiyi üçün əsgərlərə verilən torpaq parçasıdır. Bu həm də kiçik idarə sistemidir.

[2] Timardan böyük torpaq sahəsidir, Osmanlı ordusunda sipahilər təbəqəsinə verilir. Sipahi, digər əsgərlərdən fərqli olaraq müharibəyə öz əsgərləri və bəslədiyi döyüş heyvanları ilə qatilir.

səviyyələri haqqında məlumat əldə etmək mümkündür. Dəftərin analizindən Osmanlı dövlətinin bölgəni klassik Osmanlı torpaq idarəetmə sistemi daxilində idarə etdiyi aydın olmaqdadır.

Digəri isə Xəritələr fondunda olan 1914-cü il tarixli Rusiya salnamələrinə görə Qafqazın əhalisinin statistikası ilə bunlara qarşı Osmanlı ordusu tərəfindən hazırlanan bir sənəd də əlavədə verilmişdir. Əsərə ayrıca analitik indeks hazırlanaraq əlavə edilmişdir.

Araşdırmanı həyata keçirən Dövlət Arxivləri Baş İdarəsinin işçilərinə təşəkkür edər, maraqlananlara faydalı olmasını diləyirəm.

Dos. Dr. Yusif Sarınay
Dövlət Arxivlərinin Baş Direktoru

MÜNDƏRİCAT

ÖN SÖZ 3
TÜRKİYƏ NƏŞRİNİN ÖN SÖZÜ 8
MÜNDƏRİCAT 12
QISALTMALAR 20

I HİSSƏ
SİYASİ, HƏRBİ VƏ DİPLOMATİK ƏLAQƏLƏR

1. Qarabağın fəthi üçün göndərilən vəzir Fərhad Paşanın hərbi ehtiyaclarının gücləndirilməsi 23
2. Vəzir Fərhad paşanın Qarabağın fəth edilə bilməsi üçün Şəmkirdə qala tikilməsinin lazım olduğunu bildirdiyi 25
3. Gəncə və Qarabağda şahın xahişi üzərinə qalaların tikilişinin təxirə salınması 26
4. Gəncə vilayətində pozulan nizamın yenidən təmin edilməsi 30
5. Gəncə və Qarabağ vilayətlərində görülən qıtlıq və bahalılıq 33
6. Gəncə vilayəti Bərdə nahiyəsinin kəndləri üçün yaradılan timar dəyişikliyi 34
7. Gəncə və Qarabağ xalqından Şirvana köç edənlərin geri gətirilmələri 35
8. Gəncə və Qarabağın icmal məktub dəftəri müqəddiməsi 36
9. Gəncə qalası üçün kafi əsgər saxladıqdan sonra Şirvandakı vəzifələrin yerinə yetirilməsi 38
10. Gəncənin yenidən fəth edilməsi və Şirvan bölgəsində nizamın təmin edilməsi 39
11. Gəncədə nizamın təmin edilməsi üçün əyalətin iqtisadi qənaətinin vəzir İbrahim paşanın ixtiyarına verilməsi 45
12. 1725-ci il tarixli Osmanlı-Rusiya müqaviləsinin mətni 45
13. Gəncə qalasının fəthində fövqəladə səy və qəhrəmanlıq göstərənlərin mükafatlandırılması 54
14. Gəncəyə mühasibatçı təyin edilməsi 57

15. Gəncə döyüşündə yaralanan əsgərlərin təqaüdə buraxılmaları 58
16. Gəncədə yaradılan idari tənzimləmələr 61
17. Gəncə vilayətinin təhriri nəticəsində hazırlanacaq dəftərlərin İstanbula göndərilmələri 62
18. Gəncə ilə Təbriz arasında Qaradağ sərhəddinə bitişik olan Dizaqda ermənilərin üsyanının yatırılması 64
19. İrandan alınan Gəncənin gecikən təhririnə, yaranmış sülh şəraitində başlanılması 65
20. Tiflis, İrəvan və Naxçıvandan sonra Gəncə əyalətinin təhririnin başa çatması 67
21. Vəzir Mustafa paşanın Gəncədə təşkil etdiyi məscid və mədrəsə vəqfinin gəlirlərinin artırılması 69
22. Vəfat edən Gəncə mühafizi Mustafa paşanın yerinə, vəzirlər kətxudası İbrahim paşanın bəylərbəyi təyin edilməsi 70
23. Gəncənin Şahsevən məhəlləsində satılan, daşına bilməyən malların əvəzinin xəzinəyə təhvil verilməsi 71
24. Gəncəyə hücumları gözlənilən rafizi[1] qrupların qarşısının Qarabağdakı qüvvələrin dəstəyi ilə alınması 73
25. Gəncə və ətrafının gəlir və xərcləri ilə ehtiyaclarına dair tələblər 75
26. Təhmasibqulu xanın İrəvan, Gəncə və Şirvan tərəflərinə hərəkət edəcəyi aydın olduğundan Gəncə qalasının təmir edilərək gücləndirilməsi 77
27. Ərzurum əyalətinə bağlı bölgələrdəki timar və ziyamət sahiblərinin Gəncəyə çatdırılmaları 79
28. Gəncədəki timar və ziyamət sahiblərinin "qələm xərci"ndən azad olmaları 80
29. Gəncə zərbxanasında kəsilən gümüş sikkələrdən zərbxana sahibi tərəfindən alınması lazım olan dövlət xəzinəsinə aid payın təhvil edilməsi 81
30. Sivas əyalətindəki timar və ziyamət sahiblərinin təyinlərinin Gəncə mühafizi Gənc Əli paşa tərəfindən icrasının uyğun hesab edildiyi 82

[1] Hz. Əbubəkirin və Hz. Ömərin xəlifəliyini qəbul etməyən, onlara qarşı çıxan qruplar

31. Şahsevənli tayfasının Gəncə və Qarabağda dağınıq şəkildə yerləşdirilərək təhlükəsizliklərinin təmin edilməsi 84
32. Xalxana sancağının mövqeyinin əhəmiyyəti diqqətə alınaraq mirmiran (sahiblər sahibi) rütbəsi ilə Mustafa paşa səlahiyyətinin uyğun görülməsi 85
33. Təhmasibqulu xanın Gəncəni muhasirə edəcəyinin bildirilməsi üzərinə ətraf vilayətlərdəki qüvvələrin də iştirakıyla düşmənə qarşı qoyulması 86
34. Gəncə qalası içindəki əsgər və xalqın vəziyyətlərinin öyrənilərək bildirilməsi 88
35. İranda Təhmasibqulu ortaya çıxdıqdan sonra özünə Gəncə xanlığı verilən Şahverdi xanın Osmanlı dövlətinə bağlılığını bildirən "itaət fərmanı" tələbi 90
36. Şuşa, İrəvan, Tiflis və Şamaxı xanlarının elçiləri ilə faydaları görülən digər vəzifəlilərə verilən hədiyyə və xərcliklər 93
37. Qarabağ xanı İbrahimxəlil xan tərəfindən göndərilən məktublarda bütün Azərbaycan xanları ilə birgə Osmanlı dövlətinə bağlılığını bildirdiyi 95
38. Tiflis xanı İrakli xanın Azərbaycana hücum etməsi halında bütün Azərbaycan və Dağıstan xanlarının qarşı duracaqlarının bildirildiyi 101
39. Əvvəlcədən olduğu kimi Şəki və Şirvan xanlığının Gəncə qalasının müdafiəsinə kömək olmağa davam edəcəyi 103
40. Rusların İran yürüşü zamanı iki qapı olan Dərbənd və Gəncənin, Azərbaycan xanlarının və Osmanlı dövlətinin yardımı ilə möhkəmləndirilməsinə dair 106
41. Şuşa xanı İbrahimxəlil xanın Qaradağ xanı Mustafa xan üzərinə hücum edərək qalasını tamamilə ələ keçirdiyi 108
42. Şuşa xanı İbrahim xanın qaynı Şahsevənli Nəzər Əli xanı dəstəkləməsi və Gilana bağlı Dəşt ilə Təbrizə hücum etməsi 109
43. Şuşa xanı İbrahim xan ilə Xoy xanı Əhməd xan arasındakı soyuqluğun tədricən qarşıdurmaya çevrilməsi 111

44. Bəyazid sancağına bağlı iki kəndin yağmalanmasının Qarabağ tərəfdən ortaya çıxdığının aydın olduğu 112
45. Gəncə, İrəvan və Qarabağ xanlarının İrakli xanın təsiri altında hərəkət etdikləri 118
46. Xoy xanı Əhməd xan və Qarabağ xanı İbrahimxəlil xandan İranın vəziyyətini bildirən məktubların alındığı 119
47. Azərbaycan xanlarının İrakli xan və tərəfdarlarına qarşı daim diqqətli olub lazım olduğunda Osmanlı qüvvələrindən kömək almaları haqqında 124
48. Qarabağ xanı İbrahimxəlil xanın katibi Məhəmməd Mirzəyə veriləcək olan xalat və hədiyyəlik əşyalar 128
49. Qarabağ xanı İbrahimxəlil xanın katibi Məhəmməd Mirzəyə xərclik olaraq veriləcək pul 131
50. Fəthəli xanın, şah soyundan olduğunu iddia etdiyi bir adamı İranda şah elan etmək istəməsi 132
51. Rusların Krım tatarlarını və Polşa krallığını müstəqillik vədi ilə oyuna gətirdikləri kimi bölgəyə nüfuz edə bilmək üçün Osmanlı dövləti ilə sülh bağladıqlarını iddia etmələri 134
52. Azərbaycan və Dağıstan xanlarına göndərilən hədiyyə saat və pullar 139
53. Quba xanı Fətəli xana Pavel Potyomkinin məktubu 143
54. Şəki və İrəvan xanlıqlarının Gəncəyə verdikləri dəstək səbəbilə rusların hücum planından geri çəkilmələri 144
55. Tiflis xanı İrakli xanın, daha əvvəl Osmanlı dövlətinə yaxın ikən İrana şah olmaq arzusu ilə dövlətə xəyanət edərək hərəkətə keçməsi 147
56. Ərdəbil hakimi Fətəli xanın Rusiya təhlükəsinə qarşı Dağıstan və Azərbaycan xanları ilə birlik və bərabərlik içində hərəkət edəcəyi 152
57. Xanlar arasındakı narahatçılıqlar aradan qaldırıldığından Tiflis üzərinə səfər edilə biləcəyi 154
58. Dağıstan xanlarından Ümmə xan ilə Azərbaycan xanlarından Qarabağ xanı İbrahimxəlil xanın, İrakli xan üzərinə hərəkətə keçməyə hazır görüldüyü 155
59. Rusların döyüş hazırlıqlarına baxmayaraq, Çıldır valisi Süleyman paşanın, qocalığı və xəstəliyi səbəbilə heç bir səfər hazırlığında olmadığı 167

60. Rusların Tiflis xanı İrakli xanı da öz tərəflərinə çəkərək Dağıstan və Azərbaycan torpaqlarında hərbi yürüş planları ... 170
61. Şuşa və Qarabağ xanının Kuban tərəfindəki Rusların üzərinə göndərilməsi ... 176
62. Azərbaycan xanlarının daha əvvəl şikayət etmiş olduqları Çıldır valisi Süleyman paşanın Tiflis xanına meyl etməsi ... 178
63. Şuşa və Qarabağ xanı İbrahimxəlil xanın, hərbi kömək göndərilmədiyi təqdirdə bəzi xanların ruslara tabe olacaqlarını bildirdiyi ... 179
64. Ağa Məhəmməd xanın üsyan edərək Azərbaycan torpaqları üzərinə hücum etməyə hazırlanması ... 182
65. İrəvan ilə Şuşa və Qarabağ xanlarının Ağa Məhəmmədə qarşı özlərinə padşah tərəfindən bərat verilməsini tələb etdikləri ... 184
66. Çıldır valisi Sabit paşanın Azərbaycanın ümumi vəziyyətinə aid əldə etdiyi məlumatlar ... 185
67. Osmanlı dövləti ilə İran arasında bağlanmış sülhün davamlı olmasının istənməsi ... 188
68. Şuşa və Qarabağ xanı İbrahimxəlil xanın Osmanlı dövlətinin xidmətində olmaq barəsində bölgədə tək qalması ... 191
69. Tehrandan böyük bir hərbi güclə irəliləyən iranlıların Şuşa və Qarabağ istiqamətinə hərəkət edərək, vuruşmaları nəticəsində rusları məğlub etmələri ... 193
70. Rusların Gəncə və Tiflis haqqında ətrafa yaydıqları xəbərlərlə bağlı müəyyən olunacaq münasibət haqqında ... 194
71. Rusların Qarabağda törətdikləri qırğından doğan zərərlərin yerinin doldurulması ... 195
72. Qarabağ xanı İbrahimxəlil xanın qızı Tutu xanımın düşmənə qarşı Osmanlı dövlətindən kömək tələbi ... 199
73. Rusların Şuşa üzərinə yürüşü, iranlıların Şuşanı tərk etməyə məcbur qalmaları və Gəncədə əsgər saxlamaları ... 202
74. Rusiyanın Qars üzərinə əsgər göndərəcəyi xəbər alındığından əsgər və sursatın artırılmasına ehtiyac duyulması ... 205

75. Şahsevən tayfasının Qarabağa olan hücumlarından istifadə edərək İranı gizli bir müqavilə bağlamağa məcbur etməsi ... 209
76. Rusiyadan göndərilən sandıqdakı "Qarabağ" başlıqlı kitablara əl qoyulması ... 211
77. Qarabağ ermənilərinin Van, Bəyazid və Muş tərəflərinə hücum etməyə hazırlanmaları ... 211
78. Naxçıvan və Qarabağ ermənilərinə qarşı Rusiya və İran hududu boyunca təhlükəsizlik tədbirlərinin artırılması ... 212
79. Rusiya ordusunun Qarabağ ətrafında toplandığına dair məlumatlar ... 213
80. Naxçıvan və Qarabağ ermənilərinin Osmanlı sərhədinə hücum üçün bir araya gəlmələri ... 214
81. İran və Azərbaycanda erməni bölücülərin fəaliyyətləri ... 219
82. İngiltərə dövlətinin Tehran səfirliyinin hərbi attaşesi mayor Picotun Xoy və Maku ətrafına səyahətinin səbəbləri ... 224
83. Qarabağ erməni separatçılarının digər ermənilər üsyana təşviq etmələri ... 227
84. Axıska, Qarabağ və Gəncədən Osmanlı torpaqlarına keçərək qarışıqlıq çıxaracaqları xəbər alınan ermənilər üçün tədbir görülməsi ... 230
85. Erməni komitəsini təhrik etmək üçün liderləri tərəfindən gizlincə paylanan broşuralar ... 231
86. Gəncədə ermənilərin müsəlman evlərini yandırıb yağmalamaları ... 232
87. Qafqaz müsəlmanlarının qırğınına qatılmaq üzrə Ərzurumdakı erməni fədailərin Gəncəyə gəlməyə başladıqları ... 233
88. Rusiyanın Şuşa şəhərindən olan Vartanın İstanbulda axtarılması ... 236
89. Gəncə, Zəngəzur, Şuşa, Cavanşir və Qazax bölgələrində üsyanlarla bağlı yemək və ərzaq çətinliyi ... 237
90. Gəncədəki iki erməni kilsəsində çoxlu miqdarda tüfəng və patlayıcının aşkara çıxarılması ... 238
91. Daşnaksütyun komitəsinin ən nüfuzlu liderindən birinin Gəncədə həbs olunması ... 238
92. Yelizavetpolda ələ keçirilən silahların Daşnaksütyun erməni dəstəsi ilə əlaqəsinin təsbit edilməsi ... 239

93. Azərbaycan vilayətindəki erməni separatçıların təbliğatının qarşısının alınması üçün tədbirlər 240
94. Bolşevik qiyamından sonra Gürcüstan, Qafqaz müsəlmanları, Krım və Qazan tatarları arasında milli hərəkatların meydana gəlməyə başlaması 243
95. Maliyyə köməyi məqsədi ilə Azərbaycandan torpaq və mədən məhsullarının satın alınması 249
96. Batumi müqaviləsindən sonra ermənilərin gürcü və almanlarla birlikdə Qarabağ və Naxçıvanda törətdikləri qırğın 250
97. Bolşevik qiyamından sonra Azərbaycanın ümumi vəziyyətini bildirən hesabat 252
98. Azərbaycan bölgəsindəki Osmanlı qüvvələrinin geri çəkilməsindəki gecikmənin səbəbləri 256
99. Azərbaycanlıların Şuşada ermənilər məğlub edərək Xəzər dənizi sahilindəki Lənkəran bölgəsini ələ keçirmələri 258
100. Ermənilərin İrəvan məntəqəsində yenidən qırğına başlamaları 259
101. Bolşeviklərin Gəncədəki qırğınları və Nuru paşanın bölgədəki fəaliyyətləri 262
102. Osmanlı torpaqlarında axtarılan Azərbaycan və gəncəli əsirlər haqqındakı məlumat 263

MÜHACİRƏT

103. Vanda olan Gəncə mühacirlərinin Diyarbəkir vilayətinə göndərilməsi 265
104. Gəncə vilayətinə daxil olan Cəbrayıl qəzasından köç edərək Diyarbəkrə gələnlərin xərclərinin ödənilməsi 265
105. Malatyaya gələn Qarabağ və Dağıstan mühacirlərinin ehtiyaclarının bahar mövsümünə qədər ödənilməsi 268
106. Qarabağdan hərəkət edib İran torpaqlarından keçərək Osmanlı dövlətinə köç etmək istəyənlərin şikayətləri 270
107. Mamurətülaziz və Malatyadakı Qarabağ və Dağıstan mühacirlərinin Yazıxanda məskunlaşdırılması 272

108. Batumidə gözləyən Gəncə mühacirlərinə giriş icazəsi verilməsi 273
109. Adanaya göndərilən Qarabağ mühacirlərinin Ərzurumdakı xərclərinin ödənilməsi 274
110. Adana Hamidiyə qəzasına göndərilən Qarabağ mühacirlərinin kirayə və yemək xərcləri 276
111. Fəthiyə kəndində məskunlaşan Dağıstan və Qarabağ mühacirlərinin dolanışıq xərclərinin ödənməsi 277
112. Mamurətülaziz vilayətindəki Dağıstan və Qarabağ muhacirləri üçün tikilən evlərə məskunlaşma icazəsinin verilməsi 278
113. Bitlisdən Diyarbəkirə göndərilən Qarabağ mühacirlərinin ehtiyaçlarının ödənilməsi 279
114. Malatya bölgəsinin Hamidiyə kəndindəki Qarabağ mühacirlərinin idari dəyişikliyə etirazları 282
115. Rusiyanın Qaradağ əhalisindən Malatyaya yerləşmiş olan bir qəbilədən gələ bilməyib Xoyda qalanlar üçün edilən müraciət 283
116. Malatya Yazıxanda yerləşdirilən Dağıstan və Qarabağ mühacirlərinin ehtiyaclarının təsbiti 286
117. Qarabağ əhalisindən Osmanlı torpaqlarına hicrət etmək üçün Xoya gələnlərin qarşılaşdıqları maneələr 287
118. Bitlisə gələn Qarabağ mühacirlərinin şəhər mərkəzinə yerləştirilmələri 289
119. Sənədli ərazilərinə Dağıstan və Qarabağ mühacirləri yerləştirilən Fəthiyə kəndi əhalisinin şikayətləri 291

ƏLAVƏLƏR

Əlavə 1. Gəncənin 1732-ci il təhriri 297
Əlavə 2. Qafqazın ümumi əhalisi 359

II HİSSƏ
SƏNƏD GÖRÜNÜŞLƏRİ

ARXİV FONDLARI 363
SƏNƏDLƏR VƏ XƏRİTƏLƏR 367

QISALTMALAR

Hicri aylarm adları və qısaltmaları

Məhərrəm	**M.**
Səfər	**S.**
Rəbiül-əvvəl	**Rə.**
Rəbiül-axir	**R**
Cəmaziyəl-əvvəl	**Ca.**
Cəmaziyəl-axir	**C.**
Rəcəb	**B.**
Şaban	**Ş.**
Ramazan	**N.**
Şəvvəl	**L.**
Zilkədə	**Za.**
Zilhiccə	**Z.**

I HİSSƏ

SİYASİ, HƏRBİ VƏ DİPLOMATİK ƏLAQƏLƏR

1
QARABAĞIN FƏTHİ ÜÇÜN GÖNDƏRİLƏN VƏZİR FƏRHAD PAŞANIN HƏRBİ EHTİYACLARININ GÜCLƏNDİRİLMƏSİ

Qarabağın fəthi ilə vəzifələndirilən vəzir Fərhad Paşanın bərabərindəki əsgərlərin yeyəcək, sursat və digər ehtiyaclarının təmin edilməsi və Dəmirqapıdakı əsgərlərin başında olan vəzir Cəfər Paşa ilə birlikdə Ərdəbil və ətrafına basqın edilib zərər verilərək Qızılbaşın öhdəsindən gəlinməsi haqqında Dağıstan hakimi Şamxala yazılan hökm.

[31 mart 1587]

Qırmızı bir kisəyə qoyulub göndərilmişdir. Cəfər Paşanın ...[1] məzkur adamlarından qapı kətxüdasına təslim olunmuşdur... Çavuş ilə belə.

Fi 21 R. il [9]95

Dağıstan hâkimi Şamxala hökm ki,

Bundan əvvəl vilayəti Şirvan Qızılbaşı evbaş ellərində ikən inayəti aliyyəsini Həzrəti Məliki Mennani ilə fəth-ü təshiri cənabı xilafət-me'abıma müəssər olub ol diyarlarda olan əhli İslam, rafazasını liyamın zülmü ta'addisindən xilas olub bir neçə ildir ki faslı şita nəhayəti şiddət üzrə olub yollardan mürur və kəsrət ilə olan sulardan ubur mümkün olmamaqla bəri tərəfdən adam göndərilməyib və ol tərəfdən də kimsə gəlməmiş idi. Hələ həngâm-ı bahar-ı meserrət-asar çatıb ol tərəfdən razılığı hümayunuma müvafiq xəbərlər gəlib və Ərzurumda olan cüyuş ü dəryahuruş sərdarım olan düsturu mükərrəm Vəzirim Fərhad Paşaya bu ili mübarikədə vilayəti Qarabağın fəth ü təshiri üçün əmri cəlilü'l-qədrim sadır olmuşdur. Əvvəlcədən də şəxsində qoyulan xüsusiyyət və nihadında olan hamiyyətü sədaqət mucibincə vilayəti məzburəyə göndərilən asakiri mansurənin əgər dindar və əgər sayir xüsuslarda kamal-i yardım və vüfuru xidmətin zühura

[1] Mətnin orginalında boşluq var

gəldiyi məlumu şərifim olmuş idi. Hələ ol tərəflərə göndərilən kimsələr havme-i qənaətinizdə olan yerlərə uğradıqda lazım olan xüsusları tədarük olunub əmin ü salim mahallı məmura çatdırılmaq üçün etdiyiniz yardım və xidmət kəmaqan zühura gəlmək a`da rağmına əhəmm ü lazımlı olmağın gərəkdir ki vusul buldukda nihadı səda-qət-mu'tadınızdan cənabı cəlalət-meabıma olan vüfuru ixlas və itaətiniz mucibincə bi'l-fi'l Dəmirqapıda olan asakiri zəfər-me'asirimə sərdar olan düsturu mükərrəm vəzirim Cəfər Paşa ilə hüsnü birliyi ittifaq üzrə yek-dil ü yek-cəhəti olub inşaallahı Təala çatan asakirim üçün əgər vafir ü müstəvfi zahirə tədarükündə və əgər o tərəfdən südde-i səadətimə və atebe-i ulyamdan və yaxud müşarünileyh sərdarım tərəfindən vilayəti mezburəyə göndərilən kimsələr ki taxtı qənaətinizdə olan yerlərə vasıl oldukda mu'accələn xərclərin görüb mahallı məmura əmin ü salim irsal və isalı babında xidmət-i məbrurə və işi məşkurəniz zühura gətürülə ki Asitane-i Səadət-aşiyanəmizə vüfuru ixlas ilə dostluq edənlərdən envas-i riayat-ı Padişahanəmiz ilə məri və möhtərəm olagəlmişlərdir. Siz də məmulunuzdan çox merahimi aliyyə-i hüsrəvanə və mekarimi cəliyə-i hidivanəm ilə məzhər olmanızı söz biləsiz. Bi-hamdillahi Təala Qızılbaşı bəd-ma'aş gündən günə məğlub u münhəzim olub indi sizin də xidmətiniz görünəcək. Bakı tərəfindən Ərdəbil beş məskən yeri uzaqlıqdadır. Həman qəflət etməyib Ərdəbili və ətrafını garət və hasarət edib yer iktiza edib fürsət əl verdiyinə görə mumaileyh vəzirim Cəfər Paşa bacarığıyla a'danın əgər öhdəsindən gəlinməsidir, əgər məmləkət vilayətləri garət və hasarət eyləməsidir, bir vəchilə xidmət eyləyəsüz ki inşaallah Təala zühura gələn xidmətiniz qarşılığında envas-ı inayəti aliyə-i hüsrəvanəmə məzhər olmağınız mükərrirdir. A`daya fürsət verməyib göz açdırmamağa səy eyləyəsin.

Bu dahi

Bir surəti Salyan hakimi Rüstəm bəyə.

Bu dahi

Bir surəti vəchi məşruh üzrə İsmayıl bəyə.

Bu dahi

Bir surəti Kaytak hakimi Usumi bəyə.

Bu dahi

Bir surəti Tabəsəran hakimi Məsum bəyə.

Bu dahi

Bir surəti Karabudak bəyə.

Bu dahi

Bir surəti Urdula (?) hakimi Əli bəyə.

Bu dahi

Bir surəti Xəlil Bəyə yazılmışdır, vəchi məşruh üzrə.

[31 mart 1587]

A. DVNS. MHM. d, 62/67

2
VƏZİR FƏRHAD PAŞANIN QARABAĞIN FƏTH EDİLMƏSİ ÜÇÜN ŞƏMKİRDƏ QALA TİKİLMƏSİNİN LAZIM OLDUĞUNU BİLDİRMƏSİ

Gəncə və Qarabağın fəthi ilə vəzifələndirilən Vəzir Fərhad Paşanın Şəmkirdə qala tikilməsi vacibliyini bildirdiyi; gərək bu barədə, gərəksə düşmənə qarşı qoyulması barəsində Fərhad Paşa, Şirvan mühafizi Cəfər Paşa və bölgədəki digər bəylərbəyilər ilə birlikdə hərəkət etmələrinə dair Şirvan ümərası və Şirvan mühasibinə yazılan hökm.

[1 aprel 1587]

***

Ağ kisəyə qoyulub qapı kətxudasına təslim olunmuşdur.
Fi 22 R. [9]95

Vilayəti Şirvanda olan üməradan Şəki və Quba və Restov və Çerağ Bərməki və Çəli və Aktaş və Qanı (?) və Ərudan (?) və sabiq Salyan bəyi olub ... və məhkumluq Mahmudan Bəyi Şahrəmli və Şirvan mühasibinə hökm ki,

Hələ Şərq səfərində asakiri mansurəmə sərdar təyin olunan Vəzirim Fərhad Paşa ədamallahu Təala iclalehudan Dərgahı Saadət-dəst-gahıma məktub varid olub işbu sali fərhundə-faldə Gəncə və Qarabağ vilayətlərinin fəth u təshiri üçün Şəmkir qalası bina olunmaq lazımdır deyu ərz etməyin inayəti Haqq cəllə və ala ilə vilayəti məzburənin fəth u təshirinə muğayat olasın deyu fərmanım olub, vilayəti Şirvan mühafizəsində olan Vəzirim Cəfər

Paşa edamallahu Təala iclalehuya və Şirvana tabe olan bəylərbəylərə dahi ehkamı hümayunum göndərilib hüsnü ittifaq u birlik üzrə düşmən dəfinei mütəallik umurda ənvası yüzaklıkları meydana gətirməyə səy ü qayğı eyləyəsiz deyu əmrim olub və sizin də müşarünileyhim vəzirim və bəylərbəylərim ilə hüsnü ittifaq üzrə uğuru sultanıma və din ü dövləti hüsrəvanəmə mütəallik zühura gələn ənvası faydalılığınız məlumu hüsrəvanəm olub üzünüz ağ olsun sizdən umulan bu məqulə faydalılıqlar idi ki meydana gətirəsiz (?) ol babda ənvası eltafı aliyyəi hüsrəvanəmə müstahıkk olmuşsuzdur. Buyurdum ki çatdiqda bu babda hər biriniz şəxsən muağayat olub müşarünileyh vəzirim və bəylərbəylərim ilə yekdil ü yek-cəhəti olub vəch ü münasib gördükləri xidməti hümayunumda hüsnü ittifaq u birlik üzrə ənvası üzaqlıqları yaratmağa səy ü qayğıda dəqiqə fevt etməyəsiz. Təbrizdə qalan ətraf əsgər nə məqulə küllü xidmətlər və yoldaşlıqlar etdikləri məsmumuz olmuşdur. Hər biri mamulündən çox riayət olunmuşlar. Siz də var gücünüzlə səy və hamiyyət qurşağın miyanı qayğınıza möhkəmbənd edib ənvayı üzaqlıqları təhsilinə mücidd ü sa`ı olub a'danın dəf ü rəf və qal' u kamına mütəallik xüsuslarda bezli makdur eyləyəsiz. İnşaallah zühura gələn xidmətiniz qarşılığında envayı inayəti aliyyəsi hüsrəvanəmə məzhər olmağınız mükərrər və şübhəsizdir və indallah da nə qədər əcrlər hasil eyləmişsizdir. Zinhar xidmətimiz məhv' olar deyu fikir etməklə təhsil etdiyiniz savabı heç etməyib əsl xidmət zamanı bundan sonradır. Din ü dövlətə münasib olduğu üzrə cümləniz hüsnü ittihadı ittifaqla a`danın dəf ü rəfinə səy ü qayğı göstərəsiz deyu əmri şərif yazılmışdır.

[1 aprel 1587]

A. DVNS. MHM. d, 62/74

3
GƏNCƏ VƏ QARABAĞDA ŞAHIN XAHİŞİ ÜZƏRİNƏ QALALARIN TİKİLİŞİNİN TƏXİRƏ SALINMASI

Gəncə və Qarabağda sülh şəraitinin təmin edilməsi üçün qalaların tikilməsinin Şahın xahişi ilə təxirə salınmasına baxmayaraq, Abbas Mirzənin Xorasan, Qəzvindən yola çıxıb Ərdəbildə qışlayarak Təbriz yollarını kəsdiyindən, Hakkari hakimi və bölgədəki digər bəylərə göndərilən əmrlər ilə qüvvələrin Təbriz mühafizəsində olan Cəfər Paşanın maiyyətində toplanmasının əmr edildiyinə dair hökm.

[2 may 1588]

***

Tac-zadə Əfəndi həzrətlərinin zamanı şəriflərində səfərə mütəallik baş verən ehkamı şərifənin qeydidir ki cümlə səfərə mütəallik xüsuslar buna qeyd olunur.

Rəbbi təmmim bil-xeyir.

[Yev]mü'l-əhad
Fi 5 Cumadəlaxir, il 996

Əmrləri yazı[l]ıp cümləsi Təbrizdə olan Vəzir Cəfər Paşa həzrətlərinin qapı kətxudasına verilmişdir. Fi 6 C. il [9] 96
Ba-müsvəddə-i həzrəti əfəndi

Cənabı emarət-me 'ab Hakkari hakimi olan Zəkəriya Bəyə hökm ki,

Bundan akdəm sərdarı zəfər-şüarım olan vəzirim Sərdar Fərhad Paşaya hökmü şərifim göndərilib Gəncə və Qarabağa qalalar bina olunub ol tərəflər zəbt etdirilib və inadı müxalifət üzrə olan taifei məlahidə qılıncdan keçirilmək fərman olunmağın Şah Xüdabəndədən və oğullarından və xan və sultanlarından məktublar gəlib bir neçə ildən bərü rəaya paymal olmaqla indiyə qədər alınan yerlərdən fərəqət olundu deyu sülhü salah olub asudə-hal olaq deyu iltimas eyləməklə və bu mənanın istehkamı üçün mirzələrindən birin atəbəi ulyama göndərmək murad əldə etməklə Şahın ricası cəhəti qəbulda vaqe olub qala tikilməsi təxirə salınmışdı. Haliya Təbrizdə mühafizə xidmətində olan vəzirim Cəfər Paşadan məktublar varid olub Abbas Mirzə Xorasandan Qəzvinə gəlib ətraf u eknafda olan xanlar və sultanlara tacı xələtlər göndərib bu qış Ərdəbil həvalisində qışlayıb axınlar salıb Təbriz tərəfinə xəzinə vü zahirə alıb getməyə qoymayıb muradı qala əhalisin zəbun edib zərər qəsdində olduğun iləm etməyin taxtı hükümətinizdə olan tayfa bəyləriylə və sair aşayirü qəbail və bilcümlə əyalətinə mütəallik olan Əkradı taifəsi nüsrət-mu'tad ilə və belə gedəcək zahirə vü sürsat ilə bilcümlə mürəttəb ü mükəmməl alatı hərb ü kıtal və alətləri cəng ü cidal ilə bər-vech-i

isti'cal çıxıb Təbriz mühafizəsində olan Cəfər Paşaya çatıb mülaki olmaq əmr edib buyurdum ki,

Vardıqda, bu babda kamalı takayyüd ilə müqəyyəd olub edən an-cəddin Asitanəi Səadət-aşiyanəmə olan sədaqət ü ixlas və rıkkıyə ü ixtisasın mucibincə var qüvvəti əsasıya gətirib bu zamanı sair zamanlara müqayisə etməyib əyalətinə tabe olan Əkrad əsgəriylə və lazım olan zahirə və sürsat ilə bər-vech-i isti'cal çatıb Təbrizdə olan vəzirim Cəfər Paşaya mülaki olub münasib gördüyün üzrə uğuru sultanımda xidmətdə olasan. Ümərani Əkrad indiyə qədər Qızılbaşı evbaşa qılınc urup fi- səbilillah qəza vü cihad etmişlər. Abbas Mirzə yanına cəm' olan asakiri şeytanət rəhbər bəhər-hal tək dayanmayıb bir müxalif hərəkət edib başına bəla gətirsələr gərəkdir, qeyrət və hamiyyət zamanıdır. İnşaallahı Təala uğuru sultanımda zühura gələn xidmətin zayi olmayıb ezafı muzaafı inayəti aliyyəi Hüsrəvanəmə məzhər olmaq mukarrərdir. Dini mübini seyyidü'l-mürsəlin uğruna bəzli makdur edib səndən mə'mul olduğu üzrə ümərani Əkrad mabeynində xeyir ilə ad çıxarmağa səy eyləyəsin.

Bu dahi
Bir surəti __ Bitlis hakimi Şərəf Xana yazılmışdır.
Bu dahi
Bir surəti __ Mahmud və Həsən Bəy oğlu Şir Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Alpak Bəyi İbrahim Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Hizan Bəyi Həsən Bəyə yazılmışdır.
Bu /dahi
Bir surəti __ Müküs Bəyi Abdala yazılmışdır.
Bu dahi
Bir surəti __ Şirvi Bəyi Zeynəl Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Bırados Bəyi yazılmışdır.
Bu dahi
Bir surəti __ Ziriki bəylərindən Məmməd Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Keysan Bəyi Məmməd Bəyə yazılmışdır.

Bu dahi
Bir surəti __ Muş Bəyi Əhməd Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Ispayrıd Bəyi Əyyub Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Bırados bəylərindən Döyənək Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Bırados bəylərindən Zeynəddin qarındaşı oğlu Cəfər Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ İstoni(?) Bəyi Tur Əli Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Suyabi (?) Bəyi Koçi Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Kotur Bəyi Vəli Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Marağa Bəyi Min(?) Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Adilcəvaz Bəyi Məmməd Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Ərciş Bəyi Qılınc Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Beynə(?) Bəyi Mənsur Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Səlmas Bəyi Adil Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Siird(?) Bəyi Qazi Bəy qarındaşı Ələddin Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Xoy Bəyi Ulama Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Makü Bəyi Ayvad Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Diyadin Beyi'[ne] yazılmışdır.
Bu dahi
Bir surəti __ Abaga Bəyi karındaşı Qılınc Bəyə yazılmışdır.

Bu dahi
Bir surəti __ Sökmənova Bəyi Nəzər Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Ağakis Bəyi Zahid Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Aralıq Bəyi Həsən Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Sündüs Bəyi Mir-paşa qarındaşı Hüseyn Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Qurdiqan Bəyi Məmməd Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Seplek(?) Bəyi Xalid Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Tereşim(?) Bəyi Rüstəm Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Xizan bəylərindən Namran Bəyi Yusif Bəyə yazılmışdır.
Bu dahi
Bir surəti __ Nəfərən 35

Eyniylə surətlər Təbrizdə olan vəzir Cəfər Paşa həzrətlərindən bu [ve]chlə gəlib buna görə hər birinə Hakkari hakiminə cənab yazılmışdır. Maadasına sancakbəyi əlkabı yazılmışdır.

[2 may 1588]

A. DVNS. MHM. d, 64/573

4
GƏNCƏ VİLAYƏTİNDƏ POZULAN NİZAMIN YENİDƏN TƏMİN EDİLMƏSİ

Gəncə Vilayəti üzərinə edilən yürüşlərdən sonra bölgə əhalisinin yurdlarına dönməsi ilə ölkə abadlaşdırıldığı halda sonradan qanunlara riayət edilməmiş, intizam pozulub yenidən başlayan Qızılbaş hücumlarına Gəncə hakimi Məhəmməd xanın qarşı qoyması əsnasında Şirvan, Gürcüstan və Kür çayı tərəflərinə yerləşdirilən bir qisim xalqın, haqsız vergilərdən və əsayişsizlikdən yaşanılmaz hala gələn şəhərin vəziyyətini görüb Gəncə və Qarabağa geri qayıtmağa qorxduqları üçün, verilməsini tələb ettikləri Padşahın tuğrası çəkili olan yeni qanunnamənin göndərildiyindən bəhslə lazımi işlərin görülməsi, heç kimin malına, mülkünə, vəqf və dükkanına, ailəsinə zərər verilməməsi xüsuslarında Gəncə Bəylərbəyi Davud ilə mühasib və qazıya xitab olaraq yazılan hökm.

[2 oktyabr 1590]

***

Gəncə Bəylərbəyisi Davud damə ikbalühuya və mühasibinə və qazısına hökm ki,

Məhkumluq Gəncə qazısı olan kıdvətü kudatü'l-müslimin mövlana Kamal *zidə fazluhü* Dərgahı Mualləmə məktub göndərib Gəncənin üləma vü suleha və əhali vü əyanı və sair rəaya vü füqərası məclisi şərə gəlib təkəllüm eylədikləri əcildən keyfiyyəti halları təfahhus olunduqda doxsan altı ilində vilayəti məzburə üzərinə vaqe olan səfərlərdə qarət və qətl ü xəsarətdən nicat tapıb və Qızılbaşı bəd'-ma'aşdan dahi xilas olub istimalət ilə gəlib itaət ü inkıyad edib yerlərinə və yurdlarına gələn rəaya və ulusat ilə vilayəti məzburə xoş olub sərdar tərəfindən qanunnamə verilmişkən əməl olunmayıb xilafı şər' ü qanun və mugayiri əmri humayun bidatlar ihdas olunmaqla rəaya və itaət və inkıyad edən kimsələr mə'yus u məcruh olduqların məhkumluq Qızılbaş zamanında Gəncə hakimi olan Məhəmməd Xan bu əhvalı hisdimə' etməklə hərəkətə gəlib Gəncə tərəfinə təvəccöh etdikdə rəaya və dönmələrə məkatib və istimalətnamələr göndərməklə kəfərəi rəaya və dönmələrdən cəmi kəsr və Yafho adlı mürtəd ol tərəfə müraciət etməklə xanı məzbur qüvvət tapıb Gəncə qalası üzərinə gəlib muhasirə etdikdə orada olan əsgərdən və ol tərəfin üləma vü suleha və əhli sünnət və camaatdan və qeyridən cəmi kəsr qətl və əhl ü ıyalləri paymal və ərzaq u əmvalləri qarət olunmuş ikən xanı məzbur və sair usatı bədgirdar dəf ü rəfinə təkrar asakiri nüsrət-şüar təyin olunduqda xarici qaladə qalıb imkan və iqtidarı olan kimsələr əhl ü ıyallərin Şirvan və Gürcüstan tərəflərinə keçirib və məadəsi "əsgərin yolu uğrağı deyildir" deyu Kür çayı kənarına firar ü qərar etmişlər ikən gedən əsgər də onların üzərlərinə uğrayıb baki qalan emval ü ərzaq və davarların qarət və necəsinin ıyal ü ətfallərin əsir və

bi-günah kimsələri qətl edib aç və çılpaq yerində qalan rəaya vü füqəradan şiddəti şita səbəbi ilə neçə nəfs tələf olub bu qədər bəlalardan xilas olan kimsələrin bilfiil də ıyal ü ətfal ü əmvalləri və əmlakları özlərinin olmayıb və mədrəsə və məscid xarab və cumhur meyxana və bozaxanalar abadan və mamur və mahalli esvakda övrət deyil bəlkə adəmlər də sərxoşlar və ləvəndat xovfundan çıxıb gəzməyə qadir deyildirlər və bazarda dəymə kimsə rəayadan dükan açıb bəy' u şirə edə bilməz və qala qapılarında və körpü və yollar üzərlərinə bıçaq və nacak və qılınc və sair hərb alətilə dayanan sərxoşlar və ləvəndat xovfundan karye xalqı şəhərə bəy' ü şiraya gəlməyib və qoyun və quzu və sair zad ü zəvadə və odun gətirən kimsələrin ərzaqları yağma olunub ırqat üçün işləməyə gələnlər suhrəyə tutulub və ətraf u cevanib və ahar diya[r]dan gələn bal və yağ və düyü və sair mə'kulatdan "ihtisabiyyə" deyu yük başma üç və dörd Səlimi alınıb və hər dükandan "asəsiyyə" deyu həftədə bir iki Səlimi alınıb və ulusat və qura xalqından quzu və pendir və yağ və toyuq və sair zahirəyi müft ü meccanən alıb və dükan və sair ərazi vü əmlakı sahiblərinə zəbt u qənaət etdirməyib və ulusat və sair rəayadan xilafı qanun ziyadə rüsum tələb edib və bəzi karyelər təhrir olunduqda ədafı muda'afa məhsul bağlanıb və bəzi nahiyələrə dözümündən çox verilməklə bu məqula zülmü bidətlərin əxbarı ətrafı cevanibə şayi' olmaqla ahar vilayətlərdə olan Gəncə və Qarabağın rəayası xof edib gəlməyə cürət edə bilməyib məmləkətin halı və xaraba-müşrif olub belə ki, bu dəfə xilaf u şərr ü qanun olan bidatı və zülmü və meyxana və şürbü hamr və sair fısku fücur və mukataat və təhrir və bəzi təklifin rəfinə və qul və sair sipah və quldur vü eşirra və sair ləvəndat zabtına təqayyüd olunub evamiri şərifə irsal ü iera olunmağa. "Cəlanı vətən etmələri mukarrərdir" deyu Süddei Səadətimdən qanunnamə verilmək xahişinə ərz etməyin Asitanei Səadətimdən tuğrayi şərifimlə mu'anvən qanunamei humayunum verilmişdir. Buyurdum ki,

Vusul buldukda, hər biriniz daima bu xüsusa müqəyyəd olub min-ba'd Asitanei Səadətimdən göndərilən qanunamei humayunum mucibincə əməl edib xilafı şər' u qanun nesnələrin (obyektlər) aldırmayıb və sən ki bəylərbəyisin, onda olan qapı qullarını və

sair nəfəratı möhkəm zəbt edib bir fərdin əhl ü ıyalinə və əmlakına və evkafına və dükanlarına və əmval və əsbablarına qarşı hücum etdirməyib lazımınca tənbeh ü təkid eyləyəsin ki, hər biri öz halında olub rəaya vü füqəranı və sair əhalyi qalayi rencidə vü remidə etməyələr, ba'də't-tənbeh esləməyənlər baş nəfəratından isə dirliklərin qət' edib günahlarına görə qazı bacarığıyla cəzaların verəsin. Qapı qullarmdan olanları adları və şəkilləriylə yazıb ərz eyləyəsin, sonra onlar haqqında əmrim nə vəchilə sadır olsa mucibiylə əməl eyləyəsin və bilcümlə məmləkət ü vilayətin emn ü əmanı və rəaya vü bərayanın rəfahiyyət ü itminanı babında bəzli makdur və sayi na-mahzur eyləyəsüz.

2. Z. 998 [2 oktyabr 1590]

A. DVNS. MHM. ZYL.d., 4/167

5
GƏNCƏ VƏ QARABAĞ VİLAYƏTLƏRİNDƏ GÖRÜLƏN QITLIQ VƏ BAHALILIQ

Gəncə və Qarabağ vilayətlərində görülən qıtlıq və bahalılıq üzündən Rəvan və Naxçıvandan zahirə gətirilməyə başlandığı, ancaq Göyçə bölgəsində davarların hər gediş-gəlişində davar başına bir səlimi alınmasının füqəraya zülm olacağı anlaşıldığından, bunun qabağına keçilməsinə dair Rəvan bəylərbəyinə və adı çəkilən əyalətdəki qazılara yazılan hökm.

[4 noyabr 1590]

Gəncə bəylərbəyinin kətxudasına verilmişdir.

Rəvan bəylərbəyinə və əyaləti məzburda vaqe' olan qazılara hökm ki,

Xəzinəyi Amirəmin Gəncə bölgəsi mühasibi Əli damə ulüvvühu süddei səadətimə məktub göndərib Gəncə və Qarabağ vilayətinə kahtu qala müstəvli olub füqəra və zu'afa dəfi müzayakaları için Rəvan və Naxçıvan tərəflərindən zahirə gətirilmək[lə] məşğul olub vilayəti məzburə əhalisindən cəmmi gafir özə çatıb zahirə için Rəvan tərəfinə getmədən boş davar ilə Kegna (?)'ya varduklarında davar başına bir səlimi və Göyçə tərəfindən gedənlərdən Balıqlı (?) adlı mevzidə Göyçə beyinin adamları da davar başına bir səlimi və bir dəfə də Naxçıvana

zahirəyə gedərkən Zaruzənbil və Orut sancaq bəylərinin adamları geri davar başına bir səlimi almaqla füqəra tayfası zahirə gətirmək barəsində iztirab çəkib hətta Rəvan tərəfindən Gəncəyə on min davarı mirimiz ki (?) göndərildikdə ...və Göyçə bəylərinin adamları miri zahirə yükündən bir səlimi alınmaq füqəraya zülmdür deyu dəfaatlə tənbeh olunmuş ikən bac alınıb envai zülm ü ta'addi edərlər. Bac alındığı təqdircə parça və sair əmtəə' yüklərindən iki axça alınarkən zahirə yükündən bir səlimi alınmaq füqəraya zülmdür deyu dəfaatlə tənbeh olunmuş ikən məhrum' olunmamaqla vilayəti məzburəyə zahirə gəlməyib kaht üzrədir deyu ərz u ilam etməyin büyürdüm ki vusul buldukda adı çəkilənlərə möhkəm tənbeh ü təkid eyləyəsiz ki zahirə gətirən kimsə ol gələnə müxalif əşyası alınmaq caiz deyil. Ka-nun-ı qədim üzrə aldırıb qanuna müxalif kimsəyə iş etdirməyəsin. Müqəyyəd olmayanları yazıb ərz eyləyəsin deyu yazılmışdır.

6 M. 999 [4 noyabr 1590]

A. DVNS. MHM. d, 67/59

6

GƏNCƏ LİVASI BƏRDƏ NAHİYƏSİNİN BƏZİ KƏNDLƏRİ ÜÇÜN HAZIRLANAN TİMAR TEVCİHİ

Gəncə bəylərbəyi Mustafa Paşanın ərzi və Şirvan əyaləti mutasarrıfı Cəfər Paşanın əmrləri üzərinə, Gəncə livasına bağlı Bərdə nahiyəsində Muzaffərabad və Hangahbaba kəndlərinin gəlirlərinə aid timarın Əhmədə tevcihi səbəbiylə, əlaqədar bəraət verilməsi üçün hazırlanan ruznamçə təzkirəsi.

[24 dekabr 1590]

* * *

Təhriri cəddidən təcdidi bəraət eyləmişdir. Fi il səlasə və mie. [Yev]mü'l-əhad, Fi 26 Safər, il 999. Hökmü şərif verilmişdir. Nahiyəyi Bərdə dər-livayı m[əzkur Gəncə]. Timarı Əhməd

Karyei Muzaffərabad tabim Bər-vechi tahmin 10.000	Karyei Hangahbaba tabim Bər vechi tahmin 10.000
Yekun 20.000 **Cüt 13.333**	

K 25 Bayraqı Əli Ağa K. 3 Məmməd bin Həsən güllə sağ uyluğundan urub o biri tərəfindən çıxmışdır.	K 40 Bayraqı Piri Ağa M 79 Həsən bin Hüseyn güllə sağ çiyinindən urub içəridə qalmışdır.	Məmməd Çavuşoğlu güllə ağzından urub dişləri qırılmışdır.	K 1 Bayraqı Mustfa Ağa M 64 Süleyman bin Salim güllə sağ ayağından urub məcruh etmişdir.
K 31 Bayraqı Ferik Osman Ağa Abdullah bin Yusif Güllə sağ uyluğundan urup məcruh etmişdir.	2 Bayraqı m. Mustafa bin Hüseyn Güllə sol əli biləgindən urup yaralanmışdır.	M. 41 Bayraqı Həsən Ağa M 2 Ömər bin Osman Fi m. Güllə sol ayağı baldırından urup yaralamışdır.	K 26 Sekban, minh. Süleyman bin Məmməd Güllə sol uyluğundan urup məcruh etmişdir.

M 79 Bayraqı Çolak Mahmud Ağa Ömər bin Məmməd Güllə sağ ayağını üç yerindən qırmışdır.	M 64 minhu m. Məmməd bin Mədən Güllə sol çiyinindən urup məcruh etmişdir.	K 26 Bayraqı Hacı Mustafa Ağa K. 2 Saleh bin Məmməd Güllə sol ayağı baldırından urup o biri tərəfindən çıxmışdır.	M. 25 Bayraqı təzkirə dadə. Əli bin Həsən Güllə sağ topuğundan urup məcruh etmişdir.
Divriğili Hüseyn Ağa M 27 Güllə sol çiyini və çənəsini yaralamışdır.	M. 97 Bayraqı Divriğili Hüseyn Ağa İsmayıl bin Həsən Güllə boğazından urup peysərindən çıxmışdır.	B. 64 K. 2 Məmməd bin Rəcəb Güllə sol çiyinindən və çənəsindən urup məcruh.	K. 31 Bayraqı Rizeli İbrahimAğa Hüseyn bin Məmməd Qılınc ilə başından yaralanmışdır.
K. 1 Ağamı cədid Mustafa bin Sinan Güllə sol uyluğundan urup içində qalmışdır.	K. 27 Bayraqı m. Əhməd bin Həsən Daş ilə burnu qırılmışdır.	3 Bayraqı m. Əli bin Məmməd Güllə sol əlini iki yerindən məcruh etmişdir.	2 Bayraqı m. Mustafa bin Məmməd Güllə belindən urup içində qalmışdır
3 Bayraqı m Saleh bin Həsən Güllə belindən urup yaralanmışdır.	K. 33 Sekban Bayraqı m İbrahim bin Məmməd Qılınc ilə sağ əli yaralanmışdır.	M. 79 Bayraqı Yeleç Hüseyn Ağa M. 2 Xəlil bin Əli Cüt güllə sol qolunu iki yerdən qırıb məcruh.	K. 40 Bayraqı m Mahmud bin İbrahim Güllə boğazından urup peysərindən çıxmışdır.
K 31 Bayraqı Mustafa Ağa K. m. Hüseyn bin Davud Qılınc ilə iki əlləri məcruh olmuşdur.	K 33 Sekban Bayraqı Taşköprülü İbrahim Ağa Məmməd bin Əli K. 2 Bayraqı m. Mustafa bin Dursun K. 2 Bayraqı m Məmməd bin Osman Üçü də barıt ilə yanmışdır.		K. 31 Bayraqı Çorumlu Məmməd Ağa K. 23 Əli bin Vəli Qılınc sağ Bilayini və sağ gözü quyruğun yaralamışdır.
K. 4 Əli bin Həsən K. 21 Güllə sağ gözündən urup qaşın üzərindən çıxıb ama olmuşdur.	M. 25 Bayraqı Bayburdi Hüseyn Ağa Məmməd bin Abdi Güllə sol ayağı baldırından urup o biri tərəfindən çıxmışdır.	3 Bayraqı m. Mahmud bin Osman Güllə sol ayağı uyluğundan urup içəridə qalmışdır.	K. 54 Bayraqı Kalayi Məmməd Ağa Məmməd bin Məmməd Güllə sağ əli Bilayindən urup məcruh olmuşdur.

Balada təryim olunan səkkiz yüz qırx doqquz ədəd nəfərat-lar, Gəncə müharibəsində məcruh olub esamiləri təhrir və haqq-payı dövlətlərinə firistadə qılındı. Lori qalası və Gəncə məcru-hatları doqquz yüz on yeddi ədəd əsəmi dəftəri məzbura təhrir olundu.

Bəndə Mustafa
[29 yanvar 1726]
MAD, 6756/1, 4-5

16
GƏNCƏDƏ YARADILAN İDARİ TƏNZİMLƏMƏLƏR

Gəncə fəth edildikdən sonra yaradılan tənzimləmədə Gəncə qəza mərkəzi olaraq mevalidən birinə tevcih edilmək üzrə mev-ləviyət surətiylə təyin edilməsi və digər yerlərə isə qəza olmaq üzrə bir qazı təyin edilməsi üsulu təsbit olunmasına rağmən gəlir-lərin qeyri-kafiliyindən və can güvənliyindən doğan narahatçı-lıqların aradan qaldırılması xüsusunda Gəncə və Şirvan tərəflə-rində vəzifəli Səraskər Mustafa Paşaya xitabən yazılan hökm.

[Avqust 1726]

***

Ərzurum əyalətinə mutasarrıf olub Gəncə və Şirvan tərəfinə məmur asakiri mansurəm səraskəri zəfər-rəhbərim olan vəzirim Mustafa Paşaya hökm ki,

Bi-lütfi'llahi Təala Gəncənin fəth ü təshiri husul-pəzir olduqda Gəncə qəzası mevləviyyət olmaq üzrə mevalidən birinə təvcih və əyaləti Gəncədə vaqe bəzi yerlər də müstəqillən bir qəza olmaq üzrə bir qazıya təvcih olunmaq üçün tərtibi dəri dövlət-medarıma ərz u inha etmənlə ilamın üzrə Gəncə qəzası mevləviyyət üzrə akda kudatü'l-müslimin ... *zidət fədailuhuya* təvcih və sair yerlərə də tərtibin üzrə bir qazı nasb və təyin olun-muşdu. Lakin mövlanayi mumaileyhə etbaıyla şəddi rahl edib məsafəi ba'id olan mansıbına iyab u zəhabında yol masarifi və onda iqaməti halında özünün və etba'ının mürəttəb ü vəsaitlərinə kifayət edəcək irada möhtac ikən Gəncə qəzasına mevləviyyətə saleh və qazılarının masarıfına vafi olacaq nevahi artım və ilhak olunmamaqla mövlanayi mumaileyhi zərurət ü müzayaka məss

eylədiyindən maada sair qazı nasb olunan yerlərin də müstəqil qəza olmaq dözümü olmadığından qeyri bəzisi yədi Qızılbaşdan bil-külliyyə tahlis olunmamaqla təyin olunan qazıların bəzisi buraxıb Asitanei Səadətimə gəlib və onda qalanlar da müqəddərü'l-əhval olunduqları ilam olunmağın, sən ki vəziri müşarünileyhsin, Gəncə qəzasına mevləviyyət iradına yetkin və qazılarının iyab [u] zehablarında və əyyamı iqamətlərində xərci masarıflarına vafi olacaq nevahi zamm ü ilhak və həmçinin sair müstəqil qəzaya vəfa edəcək irad hasil olmayacaq qəzaları da bir-birinə zamm ü ilhak və zərurət ü müzayaka çəkilməyəcək vəch üzrə hüsnü nizama ifrağ ilə tərtib və dəri Dövlət-medarıma ərz u ilam etməyin babında fərmanı alişanım sadır olmuşdur. Büyürdüm ki...

Fi əvaili [Məhərrəm] il [1] 139 [Avqust 1726]

A. DVNS. MHM. d, 133/1037

17
GƏNCƏ VİLAYƏTİ QEYDLƏRİ NƏTİCƏSİNDƏ HAZIRLANACAQ DƏFTƏRLƏRİN İSTANBULA GÖNDƏRİLMƏLƏRİ

Gəncə vilayətinin, Osmanlı dövlətinin qanun və qaydaları üzrə təhrir edilməsi məqsədi ilə mübaşir təyin edilən Kapıcıbaşı İbrahim ilə mühasib təyin edilən Məmmədin birlikdə təhrir işləmələrinə başlayaraq kənd və mahal gəlirlərini xas, zəamət, timar və ocaqlıq olaraq ayırmaq surətiylə yazım nəticəsində hazırlayacaqları dəftərləri İstanbul'a göndərmələri üçün Ərzurum Vilayətinə mutasarrıf olub Gəncə və Şirvan tərəflərində vəzifəli olan Səraskər Mustafa Paşa ilə vəzifələndirilən mübaşir və mühasibə xitabən yazılan hökm.

[Sentyabr 1726]

***

Hələ Ərzurum Əyalətinə mutasarrıf olub Gəncə və Şirvan tərəfinə məmur asakiri mansurəm səraskəri zəfər-rəhbərim olan vəzirim Mustafa Paşaya və dərgahı yüksəyim qapıcıbaşlarından olub bu dəfə təhrir üçün mübaşir təyin olunan İbrahim damə məcduhuya və məhkumluq silahdar ağası olub hələ Gəncə mühasibi olan Məmməd zidə məcduhuya hökm ki,

Sən ki vəziri müşarünileyhsin, bundan akdəm Gəncə məmləkətinin iradı tərəfindən qələmə alınıb icmalın tərəfindən dəftəri dəri dövlət-medarıma irsal və inşaallahı Təala məmləkət hüsnü nizam tapıb yevmən fe-yevmən umram tərəqqi olduqca iradı da izdiyad-pəzir olacağı mukarrər olduğun ərz u ilam eyləmək ilə vilayəti mərkumənin Dövləti Aliyyənin qanun və qaydası üzrə təhriri üçün qapıçıbaşını mumaileyh İbrahim mufassal və məşruh əmri şərifimlə məmur və yanına Dəftərhanei Amirəmdən katib təyin olunub və məmləkəti mərkumənin məzidi diqqət və taharri ilə gərəyi kimi təhrir ü dəftər və iradı mukarrərəsinin bir xoşca zəbt etdirilməsi əhəmmi umuru Dövləti Aliyyəmdən olmaqla bər-vech-i müşarekət təhrir etməyin üçün Gəncə Mühasibi İbrahimə də fərmanım olmuş idi. Lakin mühasibi mumaileyh vəfat edib yerinə məhkumluq silahdar ağası olan mumaileyh Gəncə mühasibi təyin olunmaqla,

İmdi, işbu əmri şərifim vusulündə qapıçıbaşını mumaileyhlə marru'z-zikr Gəncə Mühasibi Məmməd *zidə məcduhuya* müşarekət üzrə təhrirə mübaşirət etdirib indiyə qədər təhrir olunanlardan maada məmləkəti mərkumədə vaki kura və qəsəbə rəayasıyla əmlak və akarat və ərazi və bağat və sair təhriri iktiza edən merahil ü cihad və aşar u rüsumatlarından bir maddəsi məktum qalmamaq vəchi üzrə bir xoşca təhrir ü dəftər və müqəddimə fərmanım olduğu üzrə tərəfi miridən zəbt olunması münasib olanları havassı sultana ifraz və zəamət və timar olmağa ces-pan olanları vəchi münasibi ilə zəamət və timara təfrik və mir-liva hassı olacaqları kifayət mərtəbəsində təsis və yerli qullarına ocaqlıq verilməsi tasmim olunanları da ocaqlığa təyin və inayəti Rəbbani ilə Bila-nöqsan itmam və təkmil etdirdikdən sonra muharrirlərə icmal və mufassalları bağlatdırıb Dəftərhanei Amirəmdə hifz olunmaq üçün dəftərləri dəri Dövlət-medarıma irsal eyləyəsin və siz ki mübaşiranı mumaileyhimasız, bu mühimmi hatir, əzəm ümid edəri Dövləti Aliyyə və akdəmi şuunu Səltənəti Səniyyəmdən olub sizin məmurluğunuz mütləq vüfuru sədaqət və istiqamətinizə vüsuk və etimaddan neş'et edər bir halət olmaqla ikiniz də bu əmri cəlili müqavilei vifak üzrə kıyam birlə kamalı ittihad ü ittifaq ilə əmri təhrirə mübaşirət və siyakı məşruh üzrə

məmləkəti məzkurənin təhririnə şüru' və mübaderət edib xahiş i şəfaət və tamai hama teba'iyət ilə Beytülmali Müsliminə gadr u zərər irtikabından ittika vü mücanebət ü muktəzai sadakat ü diyanəti icra birlə mesai məşkurə meydana gətirməyə səyi diqqət eyləməniz babında fərmanı alişanım sadır olmuşdur. Buyurdum ki...

Fi əvaili Səfər il [1]139 [Sentyabr 1726]

A. DVNS. MHM. d, 133/1122

18
GƏNCƏ İLƏ TEBRİZ ARASINDA QARADAĞ SƏRHƏDİNƏ BİTİŞİK OLAN DİZAKDA ERMƏNİ ÜSYANLARININ YATIRILMASI

Gəncə ilə Təbriz arasında Qaradağ sərhədinə bitişik olan Dizak adı verilən yerdə toplanaraq üsyan halında olan bir qrup erməninin, Karaçorlu, Pesyan və Şirvanşahlu ilə digər kürd qulduru və Bərgüşad hakimi Fətəli ilə ittifaq edərək hər keçən gün qüvvələrini artırdıqları xəbər almdığından Təbriz Səraskəri Əli Paşa ilə xəbərləşilib quldurun dəf edilməsi üçün Gəncə və Şirvan Səraskəri Mustafa Paşaya xitabən yazılan hökm.

[Dekabr 1726]

***

Hələ Ərzurum Əyalətinə mutasarrıf olub Gəncə və Şirvan tərəfləri səraskəri olan Vəzir Mustafa Paşaya hökm ki,

Qaradağ hüduduna muttasıl olan Dizak adlı məhəllə karib Sığnakda hələ üsyan üzrə olan Avan adlı Erməni həvasına tabe Eramine quldurundan vafir Erməni ilə tahassun edib ətrafda da Karaçorlu və Pesyan və Şirvanşahlu və sair Ekrad və qulduru şəkavət-nihad yanında təməzzüb ü təcəmmu' və ətrafında vaqe Bərgüşad əhalisi və hakimi Fətəli Sultan məzburlar [ilə] ittifaq ü ittihad və yevmən fe-yevmən ədəd u udəd cəhətindən qüvvələri müzdad olub ətraf ü əknafa isalı xəsarətdən halı olmadıqları düsturu mükərrəm müşiri mufahham nizamü'l-aləm hələ Təbriz tərəfi səraskəri vəzirim Əli Paşa *ədamallahu Təala iclalehu* tərəfindən qaiməsiylə dəri dövlət-medarıma ilam və vəchi məşruh üzrə olduğun müş'ir Abdürrəzzaq Paşanın özünə gələn kaiməsini də irsal etməklə məsrurların bir gün əvvəl tədarükü görülmək lazi-

mei haldan olub və sığnakı mərkum Gəncə ilə Təbriz beynində olmağın vəziri müşarünileyh ilə xəbərləşib taifei mərkumənin dəfi fəsadları əsbabına təşəbbüs və bir gün mukaddəm tədarükləri görülüb iktizasına görə hərəkət ilə dəf və rəfi ga-ile-i məkr və fəsadlarına çox ihtimamı diqqət etməyin babında fərmanı alişanım sadır olmuşdur. Buyurdum ki...

Fi əvaxiri R., il 1139 [Dekabr 1726]

C. DH, 14204

19
İRANDAN ALINAN GƏNCƏNİN GECİKƏN TƏHRİRİNƏ, TƏSİS EDİLƏN SÜLH ŞƏRAİTİNDƏ BAŞLANILMASI

Fəth edilən diyarların gəlirlərinin təhrir edilməsi dövlətin qədim adəti olduğundan İrandan alınan Gəncənin gecikən təhririnə, təsis edilən barış şəraitində başlanılması, bunun üçün vəzifələndirilən mübaşir və katibin; bölgədəki bütün kənd və qəsəbələrin yazımı lazım olan vergi və öşürlərini, cəmiyyət üçün ayrılacaq xas, timar və zəamətlərini təhrir edərək hazırladıqları icmal və mufassal dəftərləri vaxt keçirtmədən İstanbul' a göndərmələri haqqında Gəncə mühafizi vəzir Mustafa Paşaya xitabən yazılan hökm.

[Dekabr 1727]

***

Bunun da "Mucibincə əməl oluna" deyu ünvanında xətti humayun vardır.

Ərzurum valisi olub Gəncə səraskəri olan vəzirim Mustafa Paşaya və Dərgahı Yüksəyim qapıcıbaşılarından Əli Paşa-zadə Məmməd damə məcduhuya hökm ki,

Bi-avni'llahi Sübhanehu və Təala makbuzu qəbzi təshiri Padşahanə və mazbutu dəsti aləm-giri Hüsrəvanəm olan memalik və büldanın iradı tabəsi hər nə isə zəbt və təhrir olunmaq Dövləti Aliyyei əbədiyyü'l-istimrarımın dirinei müstahsənəsindən olmaqdan naşi kişvəri İrandan fəthi müyəssər olan bilad və əmsarın alə'l-infirad təhrirləri üçün evamiri aliyyəm göndərilməklə Gəncə məmləkətinin də mücəddədən təhriri üçün müqəddimə fərmanı alişanım göndərilmişikən bəzi mevanii a'ika təqribi ilə əmri təhrir, məvkufu ukdei təxir olunmuşdu. Bi-meşiyyəti'llahi

Təala in'ikad olan sülhü salah müstətbii əminlik və necah olub bi-hamdi'llahi Sübhanehu memalik, karini əsayiş və təhlükəsizlik və ammei halayık, rehini axtarmış və istirahət olmalarıyla mücəddədən təhrirlərinə şüru' u mübaderət etdirilmək muktəzii vaxt və halda olub əl-əlxüsus Gəncə məmləkəti umranı kura və emakin və kesrəti kuttan və sevakin ilə mütəvatir və məşhur olmaq cəhətiylə İrandan emvalı məvfurə və mebaliği qeyri mahsurə hasil olacağı mütə'ayyən olmağın bu surətdə zəbt və təhriri məzidi diqqət və kamalı bəsirətə möhtac olduğu zahir və aşkar olub və sən ki vəziri müşarünileyhsin, bu misüllü umuru azimə və hatveyi cesimədə sənin hüsnü kifayət və məzidi kiyasət və rü'yətinə etimadı sədad, makrunu Mülukanəm olmaqla xüsusu məzbur sənin rəyi rəzini sədidinə tender(ihalə) və təqlid və Dərgahı Yüksəyim qapıcıbaşılarından mumaileyh Məmməd *damə mecduhu* mahsusan muharrir və Dəftərxana katiblərindən ... *zidə kadruhu* da katib təyin olmağın, imdi, işbu əmri şərifi alişanım vusulündə Gəncə məmləkətinin bir hatve məhəlli xaric qalmamaq üzrə mübaşiri mumaileyh bacarığıyla təhririnə mübaşirət və məmləkəti mərkumədə vaqe kura vü qəsəbə rəayalarıyla bilcümlə əmlak ü akaratü ərazi vü bağatü ammei merahil və cihad ü ribağ' ü dıya' var isə və sair təhriri iktiza edən aşar ü rüsumatlarından bir maddəsi məstur ü məktuma tərk olmamaq şərtiylə bir xoşca təhrir və dəftər və tərəfi miridən zəbt olunması münasib olanları havassı humayun üçün ifraz və zəamət və timar olunmaq cəs-ban olanları vəchi mərgub və rəftarı mitlub üzrə zəamət və timara təfrik və kifayət mərtəbəsən mirliva havassına təsis və yerli qullarına ocaqlıq verilmək ıstısvab olanlarını da ocaqlıq təyin və bi-tevfikı Sübhanehu və Təala vəchi dil-pəzir üzrə bila-qüsur itmam və təkmil etdirdikdən sonra muharrirlərə icmal və mufassallarun bağladıb Dəftərhanei Amirəmdə hifz olunmaq üçün dəftərlərin dəri dövlət-medarıma irsal etməyin diqqət və beyudə yerə vaxt ü zaman ilə tətili məsləhətə ruhsat və cevaz göstərməyib müddəti yesirdə husul-pəzir olmasına bəzl ü səy və qüdrət eyləyəsin. Sən ki mübaşiri mumaileyhsin, bu xüsusa məmurluğunun mütləq zatında mərkuz olan qabiliyyət və istedad və vakurı rüşdü sedadına vüsuk və etimaddan neş'ət edər

bir xalət olub bu babda səndən muktəzayi sədaqət və müstədayi istiqamət üzrə xidməti məbrurə və amalı məşkurə mətlub və muntazır olmaqla qata bir yerdə təvakkuf və iraq etmədən kamalı sürət və şitab ilə məhəllinə çatıb xidməti məmurənlə təmşiyətinə kıyam və mübaderət və əmri təhrirdə vəziri müşarünileyhin rəyi rəzini bahiritdəmkini ilə əməl və hərəkət edib balada təfsil və tasrih olunduğu üzrə vəchi vecih ilə məmləkəti məzburəyi təhrir və mukarenəti tevfıkı Haqq ilə bir gün müqəddəm itmam və təkmil eylədikdən sonra icmal və mufassalların bağladıb dəftərlərin dəri dövlət-medarı mülukanəmə gətirməyə təqayyüd eyləyəsin.

Hasili kəlam xüsusu məzbur əzəmi umuru Dövləti Aliyyəmdən olub bir an əvvəlcə itimam ü təkmil olunmasın etəmmi mekasıdı Hüsrəvanəm olmaqla siyakı məşruh üzrə məmləkəti mərkumeyi kamalı diqqət və taharri ilə təhrir və dəftər edib xahiş və şəfaət və tamaı hama teba'iyət ilə Beytülmalı Müsliminə gadru zərər irtikabından ittika vü mücanebət etməniz babında fərmanı alişanım sadır olmuşdur.

Fi əvasıtı R. il 1140 [Dekabr 1727]

A.DVNS.MHM.d, 134\946

20

TİFLİS, RƏVAN VƏ NAXÇIVANDAN SONRA GƏNCƏ ƏYALƏTİ QEYDLƏRİNİN DƏ TAMAMLANMASI

Tiflis əyaləti təhriri tamamlandığı halda, Rəvan əyaləti və Naxçıvana aid olub İstanbula göndərilməsi gecikdirilən və təhrirdə əskik buraxılan icmal dəftərlərinin də hazırlanması, Gəncə əyalətinin təhririnin də təyin olunan və bölgədə olan mübaşir və muharrirlər vasitəsiylə bir an əvvəl tamamlanması haqqında Gəncə səraskəri ilə dəftərxana katiblərinə xitabən yazılan hökm.

[Dekabr 1727]

Gəncə Səraskəri Mustafa Paşaya və Dəftərxanai Amirəm küttabından hələ Tiflisdə olan Sadiq Məmməd və Gəncədə olan Əli zidə kadruhumaya hökm ki,

Bundan akdəm Rəvan Əyaləti təhriri üçün Dəftərxanai Amirəm küttabından Katib Şit və Durmuş Həsən məmur və irsal

olmalarıyla mahallinə çatıb ol vaxtda Rəvan mühafizi mütəvəffa Vəzir Rəcəb Paşa mərifətiylə Rəvan və Naxçıvanın bilcümlə şəhər və qəsəbat və kura və məzariini təhrir və havassı humayun və hassı mirimiran və sairi və zəamət və umarları təsis və vəziri müşarünileyh tərəfindən alə'l-ixtisar surətləri gəlib Dəftərxana və Başmuhasibədə hifz olunub zəamət və timarı üçün bəraətları da verilib lakin əyaləti mərkumə təhrir olunub tamam olunduqdan sonra icmalları da məhəllində bağlanmaq lazım ikən məmur olan katiblər gaflət ü cəhalət edib bir tək dəftəri mufassal ilə avdət və gətirdikləri dəftərlər Dəftərxanai Amirəmdə hifz olunub ancaq dəftəri mufassal havass və zəamət və timar və sairi natık olmayıb ala-eyyi hal cümləni mübəyyin dəftəri icmala möhtac olub bu tərəfə gətirdikləri Rəvan və Naxçıvan mufassallarının eyni bir surəti Rəvanda mövcud olduğun xəbər verməsiylə sən ki mumaileyh Sadiq Məmməd *zidə kadruhusun,* bundan akdəm yenə Dəftərxanai Amirəm kitabətindən Mustafa Ruhi *zidə kadruhu* ilə muharrir təyin olduğunuz Tiflis Əyaləti təhririni təkmil və dəftəri mufassal və icmalı təbyiz edib ol tərəfdə lüzumunuz qalmamaqla mumaileyh Mustafa Ruhi Tiflisdən Rəvana çatıb Rəvan mühafizei bacarığıyla Rəvan və Naxçıvanın ol tərəfdə mövcud dəftəri mufassallarında havassı humayun və mirimiran və zəamət və timar və sairəyə tevzi' olunanları sənədatların görərək sehvə xələldən halı olacaq vəchilə tevzi' və taksim və icmal bağlayıb və xaric əz-təhrir olanları da var isə ehtiyat və taharri edərək görüb başqa zəbt və dəftər və Rəcəb Paşa vaxtında olan tevzi' və bölünməyə müxalif olmamaq üzrə icmalı təbyiz və bu tərəfə irsal və özü ba'də't-təkmil Gəncəyə çatıb Gəncə Əyaləti təhririnə mübaşir olan Dərgahı Muallam qapıcıbaşılarından Məmməd *damə məcduhu* mübaşirəti və Gəncə səraskəri vəziri müşarünileyhin bacarığıyla iktiza edən təhrirlərin xidmətinə məmur qılınması üçün Rəvan gözətçisinə və mumaileyh Ruhi Mustafaya xitabən bir qitə və sən də fimaba'd Tiflisdə tevakkuf etməyib Gəncəyə çatıb və Mustafa Ruhinin çatmasına baxmayıb qapıcıbaşını mumaileyh mübaşirətiylə hələ də Gəncədə olan mumaileyh Əli *zidə kadruhu* ilə ma'an təhrirə mübaşirət etməniz üçün də bir qitə evamiri şərifəm təhrir

babında iftiharü'l-emacid vəl-əkarim bi'l-fi'il Dəftər Əmini olan əl-həcc Mustafa *damə məcduhu* ilam etməyin mumaileyh ilamı mucibincə Rəvan gözətçisinə və mumaileyh Mustafa Ruhiyə başqa əmri şərifim ısdar u irsal olunmağa sən ki mumaileyh Sadiq Məmməd *zidə kadruhusun,* sən də bundan sonra Tiflis'də qata təxir və tevakkuf etməyib Gəncə ['ye] çatıb və Mustafa Ruhinin çatmasına baxmayıb qapıcıbaşını mumaileyh mübaşirətiylə hələ Gəncədə olan mumaileyh Əli ilə ma'an təhrirə mübaşirət və qayğı ü diqqət etməniz babında fərmanı alişanım sadır olmuşdur.

Fi evaili Ca. İl 1140 [Dekabr 1727]

Bir surəti ____
Rəvan mühafizei vəzirə və Dəftəri Xaqanı küttabından
Ruhi Mustafa'ya.

A. DVN. MHM. d, 134/1012-1013

21
VƏZİR MUSTAFA PAŞANIN GƏNCƏDƏ TƏSİS ETDİYİ MƏSCİD VƏ MƏDRƏSƏ VƏQFİNİN GƏLİRLƏRİNİN ARTIRILMASI

Vəzir Mustafa Paşanın Gəncədə təsis etdiyi məscid və mədrəsə vəqfinin, gəlirləri xərclərini qarşılamadığından Padşaha aid "havassı humayun" ərazilərindən olan Xangah kəndinin, davam edən təhrir işləri sırasına təhrir dəftərinə "vəqf" olaraq yazılması üçün Gəncədə olan dəftərxana muharririnə xitabən yazılan hökm.

[Mart 1729]

***

Dərgahı yüksəyim qapıcıbaşılarından olub Gəncə muharriri olan ... damə məcduhuya hökm ki,

Gəncə mühafizei düsturu mükərrəm və müşiri mufahham nizamü'l-a-ləm Gəncə mühafizi vəzirim Mustafa Paşa *edamallahu Təala iclalehunun* külliyyən li-merdati'l-lahi Təala bina vü icad etdiyi məscidi şərif və mədrə-sə-i münifəyə vəqf etdiyi müsakkafatın iradı masarıfına kifayət etməməklə Gəncə Sancağında iyirmi dörd ərazisindən Hangah karyəsi tərəfindən məscidi şərifə vəqf olmaq üzrə havassı humayundan təmlik və özləri təmlik

olunmaq üçün his istidai inayət etməklə iltimasına icazei ərzani olmaqla karyəi mərkumə hüdud u sınırıyla vəziri müşarünileyhə təmlik olmaq üzrə fərman olunmaqla lakin Gəncə Əyalətinin hələ təhrir dəftərləri gəlmədiyindən Dəftərxanai Amirədə qeydi təshih olunmağın imkanı olmaqla zikr olunan Hangah karyəsi vəziri müşarünileyh tərəfindən Gəncə'də əhya olunan məscid və mədrəsənin masarıfı mu'ayyenəsinə vəqf olmaq üzrə avatıfı atəbei hüsrəvanəmdən lütfkarlıq və təmlik və dəftəri təhrirə vəqf olmaq üzrə təhrir etməyin üçün Divanı Humayunum tərəfindən əmri şərifim təhriri babında bil-fil başdəftərdarım olan Əli *damə ulüvvühu* iləm etməklə mumaileyhin eləmi mucibincə əməl etməyin babında fərmanı alişanım sadır olmuşdur. Buyurdum ki.

Fi əvaili Şum il [1]141/ [Mart 1729]

A.DVNS.MHM.d,135\1014

22
VƏFAT EDƏN GƏNCƏ MÜHAFİZİ MUSTAFA PAŞANIN YERİNƏ, VƏZİRLƏR KƏTXUDASI İBRAHİM PAŞANIN BƏYLƏRBƏYİ TƏYİN EDİLMƏSİ

Əfqan, Şirvan, Moskva, Əcəm, Şahsevenli, Ləzgi və Gürçü bölgələri arasında əhəmiyyətli mövqedə olan Gəncənin vəfat edən mühafizi Mustafa Paşanın yerinə, vəzirlər kətxudalığı vəzifəsində olan İbrahim Paşanın bəylərbəyi olaraq təyin edildiğinə, lazım olduğunda Şirvan xanı Surxay ilə yazışarak işlərini icra etməsinə dair hökm.

[Aprel 1729]

***

Rumeli bəylərbəyiliyi payəsiylə Gəncə bəylərbəyisi olan İbrahim Paşa damət me 'alihiyə hökm ki,

Məhkumluq Gəncə Mühafizi Mustafa Paşa vəfat edib məmləkəti Gəncə Əfqan və Şirvan və Moskov və Acəm və Şahsevənlü və Ləzgi və Gürçü tayfalarının ortasmda vaqe' olmaqla bi-avni'llahi Təala hifz u hırasəti rəaya vü bərayanın himayət ü sıyanəti və ərbabı fəsad və şekavətin dəf u rəf iylə hüsnü nizamı məmləkətə qadir bir sütudə-rəy və qar-azmağı ra'iyyət-pər-vər və marzıyyü'l-əsər bəylərbəyi təyin və təqrir olunmaq əhəmmi ümid edəri Dövləti

Aliyyəmdən olub və sən ki mirimiranı mumaileyhsin. Neçə müddətdən bəri vüzəra kətxudalığı xidmətində olmağınla rəayapərvərlik və qapıçılığının zəbt u rəbdində ihtimamı tam və sair umuru hüsnü nizamı məmləkətə vüqüfü tammıyla maarruf və məşhur olmağınla səndən hər vəchilə rızai humayunuma müvafiq hərəkatı hasənə və din ü Dövləti Aliyyəmə layiq xidməti müstahsənə məlhuzu tabı səfa-makrunu Padşahanəm olmaqla avatıfı aliyyəi mülukanəmdən şərərbəxş-i sudur olan xətti hümayun-ı mevhəbətmakrunum mucibincə Rumeli bəylərbəyiliği payəsiylə Gəncə Əyaləti sənə tevcih və lütfkarlığım olub mühafizəsinə məmur və təyin olunmusan. İmdi işbu əmri şərifim ... ilə sənə hər nə yerdə vusul tapar isə kata bir an təxir ü təvakkuf etməyib seri'an və təcili olaraq savbı məmura sərfi inanı azimət və bir gün akdəm Gəncəyə çatıb mühafizəsinə kıyam və mütəvəffayı müşarünileyhin etba' və qapısı xalqını istishab və məşğulluq və bi-inayəti'llahi'l-Məliki'l-Allam hifzi hırasəti məmləkət və icranı hüsnü hökumət və müraatı mərasimi ədalət və himayət və sıyanəti sükkanı məmləkət və rəaya vü bərayaya ızharı asarı mərahim ü şəfqət və iktiza edən umur və xüsusları cənabı əmarət-me'ab-ı əyalət-nisabı səadət-iktisab Şirvan Xanı Surxay *damət me 'alihi* ilə mükatebə vü müraselə ilə müzakirə vü müşavirə və lazimü't-təmşiyət olan xüsuslarda hüsnü nizamı məmləkətə dair kaffei umurun təmşiyət ü icra vü tətmim ədasında ihtimamı tam ilə səndən məmulu sultanım olduğu üzrə xidməti cəmilə meydana gətirib sayın məbrur u məşkur olmağa bəzli tab ü tüvan etməyin babında fərmanı alişanım sadır olmuşdur. Buyurdum ki...

Fi əvaxiri N. İl 1141 [Aprel 1729]

İE. HR, 1141

23
GƏNCƏNİN ŞAHSEVƏN MƏHƏLLƏSİNDƏ SATILAN DAŞINA BİLMƏYƏN MALLARIN ƏVƏZİNİN XƏZİNƏYƏ TƏHVİL VERİLMƏSİ

Fəth edildikdən sonra əmlak və ərazisinə cəmiyyət tərəfindən əl qoyulması lazım gəldiyindən Gəncə mühasibinin ərzi və Sivas valisi olub Gəncənin qorumasında iştirak edən vzir Əli Paşanın

da təsdiqi üzərinə, Şahsevən məhəlləsində bir ev, bağ və boş torpağın Məmməd Bəyə satılaraq əldə edilən nağd əvəzin xəzinəyə təhvil verildiyinə dair Gəncə xəzinəsindən verilən bəraət.

[25 may 1729]

***

Möhür (Gəncə Mühafizi Əli)

Səbəbi təhriri kitabı səhhət-nisab [oldur] ki,

Bi-avni'llahi Təala fəth u təshiri müyəssər olan Gəncənin əmlak ü arazisi və müsakkafatı tərəfi miri üçün zəbtı lazım gəlməklə zəbt və tərəfi miridən taliblərinə füruht və təmlik üçün fərmanı əli sadır olmaqla mucibincə dərunu Gəncədə Şahsevən məhəlləsində Qızılbaş xanlarından olmaq üzrə Boyaçı Hacı Məhəmməd xanəsı deməklə bilinən dörd otaq daxiliyə və yeddi otaq xaric və iki bala xanə və bir eyvan və bir mətbəx və bir axır və altı dönüm bağdır divar ilə görkəmli bir tərəfi torpaqı xalıya və bir tərəfi topçu hamamı və tariqi am və bir tərəfi Şarabdar Qasım xanəsı və bağı və [bir] tərəfi Maraş çavuşlar kətxudası olduğu xanə ilə məhdud və təhriri cədid dəftərlərində mastur olduğu üzrə xərrac olunduqda rağabatı inkıtasında altı yüz əlli guruşa Məmməd Bəy üzərində qərar etməklə məbləği məzbur bər-vech-i nakd Məmməd Bəy yedindən Gəncə Xəzinəsi üçün ahz və irad olunub mülkiyyət üzrə xanəi məzburu zəbti üçün şərtnaməsi verilmək babında hələ Gəncə Mühasibi Mahmud Əfəndi *zidə məcduhu* təlxis etməyin mucibincə Sivas valisi olub Gəncə mühafizəsində olan vəzir-i mükərrəm dövlətli Əli Paşa həzrətlərinin işbu min yüz qırx bir ili Şəvvali şərifinin iyirmi altıncı günü tarixiylə müvərrah sadır olan fərmanı alilərıylə məbləği məzbur miri mumaileyh yedindən bər-vech-i nakd Gəncə Xəzinəsi üçün ahz u irad olunub xanəi məzburu cümlə tevabiyi vü levahıkıyla keyfə ma-yeşa mülkiyyət üzrə Məmməd Bəy *zidə məcduhunun* zəbt u qənaətinə tərəfi ahardan bir fərd mümanaat etməmək üçün zəbt u qənaətinə işbu şərtnaməi mutadə [mucibincə] Gəncə Xəzinəsindən təhrir və bəraət itia qılmdı. Təhrirən, fi'l-yevmi's-sadis ışrin, şəhəri Şəvval, il, ihda ərbanın vəmiyə və elf.

(26 Şəvval 1141 [25 may 1729])

İmza **C. ML, 19112**

24
GƏNCƏYƏ HÜCUMLARI GÖZLƏNİLƏN RAFİZİ QRUPLARIN QARŞISININ QARABAĞDAKI QÜVVƏLƏRİN DƏSTƏYİ İLƏ ALINMASI

Gəncəyə hücum etmələri gözlənilən Rafizi gruplara qarşı Qarabağda yerləşəcək olan vəzir Əhməd Paşa maiyyətindəki qüvvələr ilə müharibə nizamı qurulması və ayrıca Gəncə mühafizi İbrahim Paşa ilə vəzifəlilərdən mirmiran, qapıqulları və digər əsgəri birlik zabitlərinin xalat ilə mükafatlandırılmalarının uyğun hesab edildiyinə dair hökm.

[Oktyabr 1730]

Gəncə Mühafizi Vəzir İbrahim Paşaya və Gəncə mühafizəsində olan mirimiran və qapım qulları zabitlərinə və sair tavaifi əsgər zabitanına hökm ki,

Tərəfinizdən orduyu humyanuma irsal etdiyiniz ərz u mahzarınız gəlib bi-kazai'llahi Təala Təbriz əhvalı zühurundan bəru Car və Tale tayfasından və sair bəzi quldur qiyama ba'is hərəkətə tasaddi və Revafızı Qızılbaşı evbaşın da Gəncə qalasına sui-qəsd ilə hərəkəti məlhuz olmaqla cümləniz bir yerə gəlib bi-fazli'llahi Təala qalanı mərkumədə zahirə müstəvfi olmaqla ol xüsusda me'munü'l-gailə olmağınız ilə ızharı səy və hamiyyəti diniyyə ilə uğuru din və Dövləti Aliyyəmdə melaini məsfurə ilə bir qalana qədər sədaqəti niyyət ilə müharibə və müdafiələrində bəzli qüdrət etmək üzrə ittifaq u muahedə eylədiyiniz ilam etmişsiz. Bu günə adüvvən-lillah və adüvvü Resulillah olan melaini məsfurənin mukatelə vü müharibəsində ittifaq ü sədaqəti niyyət ilə mübaya'anız baisi neyli razılığı Xuda və səbəbi takviyəti şəriəti garra olmaqla duayı xeyiri icabət-əsəri Padşahanəmə məzhər olmuşsuzdur, bər-xurdar olasız. Qalayi mərkuməyə kifayət miqdarı piyada vü süvari əsgər vəziylə əmri mühafizəyə takviyət verilməkdə hələ himməti vala-nihmət-i Padşahanəmə dərgar olmaqla düsturu mükərrəm müşiri mufahham nizamü'l-aləm hələ Karaman Əyalətinə mutasarrıf olub sər-əsgəri hamiyyətpərvərim olan vəzirim Əhməd Paşa *edamallahu Təala iclalehu* maiyyətinə məmur olan tavaifi əsgər ilə icalətən

Qarabağ tərəfinə çatıb anda meşta-nişin və iqamət və maiyyətində olan süvari vü piyada əsgərdən və təhriri fərmanım olan dalqılıç sərdənkeçdi əsgərindən qalayi mərkuməyə kifayət miqdarı əsgər vəz' və əgər melaini məsfurə qalayı məzburəyə çatıb mühasirə ilə təzyiq göstərər isə özü də maiyyətində olan asakir ilə münasib olan yerlərdən metrislər alıb məsrurları müharibə ilə təzyiq və payı səbatlarının təzəlzülü ilə tədmirlərinə ikdam ü qayğı eyləməsi üçün tənbihatı eki də və inzaratı şədidəyi müştəmil xətti humayunu şövkət-makrunum ilə mu'anvən mufassal və məşruh əmri şərifim ısdar və Dərgahı Muallam qapıcıbaşılarından iftiharü'l-emacid vəl-əkərəm ... *damə məcduhu* vəziri müşarünileyhi qaldırıb mahallı məzbura aparmaq üzrə mahsusan mübaşir təyin və irsal olunmaqla sən ki vəziri müşarünileyhsin xidməti mühafizədə əmrinə takviyət və şanına murisi izz u rif at olmaq üçün xassa xilai fahirəi Mülukanəmdə sənə bir sevbi səmmuru fayizü's-sürura bəzəkli xallatı murisü'l-behcət-i Sultanı və qalayı mərkumədə əmri mühafizədə bəzli tab ü tüvan edən rüəsanı asakiri zəfər-me'asirə də baisi irtifai rütbət və iktisabı qüvvət ü qüdrət üçün iyirmi sevbi sərasəri hil'at atiyyei mülukanəm olub əmri şərifimlə iktiza edən masarif üçün də əlli min guruş virilip ... ilə irsal olunmuşdur.

Ləda'l-vusul inayət və lütfkarlığım olan hilatı fahirə və kisvəi zahirəmi hutuvatı iclal ilə gələcək və şifahı təzim ü təkrim ilə təlsim və iktisa və xidməti mühafizədə izharı səy və hamiyyət ilə bəzli tab u tüvan edən rüəsayı əsgər üçün lütfkarlığım olan hilai fahirəyi də ilbas və izharı mübahat və iktisabı müfaharət etdikləri zahir olan səy və hamiyyəti diniyyə üzrə hərəkət və müqəddimə Həmədan və Kirmanşahan və Təbriz'də olduğu üzrə melaini məsfurə ilə muqabilə vü mukatelə üçün qaladan taşra çıxmayıb dərunu qalada tahsin və top və tüfəng və sair ədəvatı cəng ilə dərini başdan *bi-avni'llahi Təala* mukatelə vü müdafaalarından ittifaq üzrə bəzli miknət eyləyəsüz. *Bi-avni'llahi Təala* qalayı mərkumədə kifayət miqdarı əsgər mövcud olduğu halda adai bəd-rə'y bir nesnəyə qadir olmayacaqları zahir və duayı xeyiri Hidivanə və yümnü təvəccüh-i Padşahanəm sizinlədir. Xeyirin-nasırın olan Cənabı Rabbü'l-Aziz'dən məsul və məmilim

budur ki, asakiri İslamı mənsur və müzəffər və adai liyəmi makhur və müdəmmər eyləyə. Amin. Be-cahı Muhammməd-ur-rəsulü'l-əmin. Heman "İnnallahə yuhıbbu'ş-şəcaatə" hədisi şərifi məfhumu səadət-mərsumu üzrə daməni səy və hamiyyəti dər-biyan və "Harridilimümininə alə'l-kıtal" ayəi kəriməsi mısdakmca qalayi mərkumədə olan cünudu muvahhidini fi-səbili'llah melaini məsfurə ilə qitalə tahris u tərgib və uruku şücaətlərin təhrik və ittifaq ü ittihad üzrə dərini qal'adan müharibə ilə melaini məsfurənin tədmirlərində bəzli tab u tüvan edib ıyazən billahi Təala adai bəd-rə'y ilə dərunu qal'ada tahassun ilə müharibədə sərimu taksirləriniz zühuru ilə qalayı mərkuməyə zərər isabət edilməkdə olar isə biriniz atəşi qəhri Padşahanəmdən xilas olmağınız ehtimalını xəyalı muhal bilib ona görə basirət üzrə hərəkət və adai bəd-rə'y ilə müharibə vü müdafiələrində sərimu taksirdən gayətü'l-gayə ihtiraz və mücanebət etməniz babında fərmanı alişanım sadır olmuşdur. Buyurdum ki...

Fi əvasıtı Rə. 1143/ [Oktyabr 1730]

A. DVNS. MHM. d, 136/877

25
GƏNCƏ VƏ ƏTRAFININ GƏLİR VƏ XƏRCLƏRİ İLƏ EHTİYACLARINA DAİR TƏLƏBLƏR

Gəncə qalasında vəzifəli əsgərlərin zahirə ihtiyaçlarının Qars ətrafından qarşılanmasının sağlanması, Gəncə, Xalxana və Qazaxda mənzil təşkilatı qurulması, Bərgüşad, Çiləbörd və Gəncə mühafizəsində olan ləvəntlərin aylıqlarının ödənməsi, Gəncə əyaləti xəzinəsinə aid olub iltizam və əmanət yoluyla işlədilən mukataa və cizyə gəlirlərinin çatdığı miqdar mövzularında Gəncə mühafizi Gənc Əli Paşanın Sadarətə göndərdiyi yazı xülasələri.

[21 iyun 1732]

***

Hələ Gəncə mühafizi olan Vəziri mükərrəm səadətli Gənc Əli Paşa həzrətlərindən gələn kağızların xülasəsidir.
Fi 27 Z. il [1]144

Gəncə qalası mühafizəsində olan qapıqulları və yerli nəfəratın zehayirə ehtiyacları olmaqla xırman vaxtı mürur etmədən

Qars havalisindən və sair münasib olan yerlərdən bər-vech-i müsaraat zehayir mubayaası üçün səksən min quruş xəzinə ilə bir mukaddəm qulları mübaya'acı təyin buyurulmasın iltimas edər.

Nəfsi Gəncəyə müruru ubur edən ulaqlar üçün nəfsi Gəncəyə və Xalxanaya başqa başqa mənzil vəz' olunmasın və Tiflis Əyalətinə tabe Qazax Sancağında Qazax beyinin olduğu məhəllə mənzil vəz' olunub bargir baha və masarifi sairəsi Tiflis Xəzinəsindən təyin olunmaq üzrə Tiflis mühafizinə və mühasibinə və livai məzbur bəyi Kazım Bəyə fərmanı ali ısdar buyurulmasın iltimas edər.

Vəziri müşarünileyhin maiyyətlərində olan min dörd yüz doxsan iki və Bərgüşad mühafizəsində olan iki yüz əlli iki və Çiləbörd mühafizəsində olan iyirmi dörd və Xalxana mühafizəsində olan yüz nəfər ki min-haysü'l-məcmu min səkkiz yüz altmış səkkiz miri Farsan ləvəndatının ülufə və təyinatları yedlərinə verilən mümza təzkirələri tarixindən Gəncə Xəzinəsindən verilmək üzrə fərman buyurulmasın iltimas edər.

Gəncə Əyalətinin min yüz qırx dörd ilinə mənsub olmaq üzrə iltizama verilən mukataatı iki yüz əlli yeddi kisəyə yetkin və cizyəsindən hasili altmış iki kisə ki min haysü'l-məcmu' üç yüz iyirmi üç yarım kisə əl-haləti hazihi Gəncə Xəzinəsinin iradı olub və qeyri əz zehayir və masarifi sairə şəhəriyə on min bir yarım quruş masarifi mukarrərəsi olduğun göndərdikləri dəftər natık olduğun yazmışlar.

İki yüz əlli yeddi kisəyə iltizama verilən mukataatdan maada qüsur mukataatı əmanətən təfviz etdiklərindən naşi hələ hasilləri nə olacağı məlum olmayıb və əmanətən verilən mukata'ların rəayası əhdi karibdə Kür çayı ubur və əkinçilik vaxtı mürur etməklə vücuh ilə himayət ü sıyanətə möhtac olduqların və tərəflərindən də istimalətlərinə təqayyüd olunduğun yazmış.

[21 iyun 1732]

C. AS, 29237

26

TƏHMASIBQULU XANIN RƏVAN, GƏNCƏ VƏ ŞİRVAN TƏRƏFLƏRİNƏ YÜRÜŞ EDƏCƏYİ AYDIN OLDUĞUNDAN GƏNCƏ QALASININ TƏMİR EDİLƏRƏK GÜCLƏNDİRİLMƏSİ

İranda üsyan edən Təhmasibqulu xanın, Şahın təyin etdiyi xanı Təbrizdən uzaqlaşdıraraq yerinə bir başqasım gətirdiyi və müşahidə edilən hərəkətlərindən Rəvan, Gəncə və Şirvan tərəflərinə yönələcəyi anlaşıldığından bölgənin qorunması üçün Şirvan Xanı Surxayın, əsgər və təchizat cəhətdən möhkəmləndirildiyi, düşmənə qarşı birlikdə hərəkət edilməsi və Gəncə qalasının təmir edilərək gücləndirilməsi haqqında Gəncə, Tiflis və Rəvan mühafizlərinə göndərilən hökm.

[İyul 1732]

***

"Mucibincə əməl oluna" deyu ünvanına xətti humayunu şövkət-makrun keşidə qılınmışdır.

Gəncə mühafizi vəzirim Gənc Əli Paşaya hökm ki,

Bu əsnada tərəfi İranda aləm-əfrazı utüvv ü tüğyan olan Təhmasibqulu Xanı bəd-peyman Şah tərəfindən mənsub və Əmcəd Xanı(?) Təbriz'dən rəf və yerinə öz tərəfindən ahar xan nasb ü təyin edib məsfurun bu günə vazına və ıstıtla' və isticlab olunan hərəkat ü səkənatı sairəsinə görə fima-ba'd Bağdad tərəfinə getməyib Rəvan və Gəncə və Şirvan tərəflərinə sui-qəsd fikiri fasidində olduğu qarini rütbəi ihsas və yəqin olmaqdan naşi ol tərəflərin takviyəti əsbabı mühafizəsi əmrinə qayğı və akdəmı mehammı vacibü'l-ikdamdan olmaqla bu əsnalarda cənabı əmə-rədd-meabı əyalət-nisabı səadət-iktisab bi'l-fı'il Şirvan Xanı olan Surxay Xan *damət mealihi* təchiz və cəmi asakiri küll-liyyə və idadı tədarükatı kaviyyə ilə ətraf ü eknafa samiyə-küşadə dayanıb sən ki vəziri müşarünileyhsin, səninlə və Rəvan və Tiflis gözətçiləriylə dəm-bədəm xəbərləşməkdən halı olmayıb süğuru məzburədən birində mevkufi ianeti olan bir əmri na-məlhuz zühur etmək ehtimalı olar isə iktizayı halə görə min-nəfs hərəkət ilə imdad ü yardımda mübaderət etməsi əmri şərifimlə bu dəfə də özünə tövsiyə vü təkid və xanı müşarünileyh təşrifatı mülu-

kanə və atıyyei hüsrəvanə ilə təkrimü təltif olunub sən ki vəziri müşarünileyhsin, həqiqəti hal məlumun olub mühafizəsinə məmur olduğun Gəncə qalasının hifzi hırasəti və hüdud və sınur məmləkətin səddi sıyanəti barəsində kamalı intibah ü bəsirət ilə hərəkət və ətraf ü əknafa hər halda həvaləi çeşmü guşu bəşarət birlə mühafizəi qala və məmləkətə qayğı ü diqqət və bəzli məchud və səy etməyin üçün təkidən və ihtimamən işbu əmri şərifi cəlilü'l-kadrim ısdar və ... ilə irsal olunmuşdur.

Vusulündə, imdi sən ki vəziri müşarünileyhsin, müqəddəmə əmri şərifimlə sənə tənbeh ü tövsiyə olunduğu vəchilə Gəncə qalasının möhtacı təmir olan yerlərinin bir gün akdəm təkmili ilə təsdid ü tahsini və əsbabı mühafizədən olan zehayir və sursatı sairə cəm' ü tədarüküylə takviyət və istehkamı əmri mühafizəyə kamalı mərtəbə ciddü ikdam və ətraf ü əknafa daim samiyə-küşayi intibah olub muktəzayı vaxt ü hala görə hər bar xanı müşarünileyh və Rəvan və Tiflis gözətçiləriylə xəbərləşməkdən və bir-birlərinizin keyfiyyətindən xəbər və agah olmaqdan halı olmayıb ələlxüsus *ma'azallahu Təala* tayfai A'camın hövzəi hökumətinə sui-qəsd fikiri fasidiylə təcavüz ü hücuma cəsarətləri məxsus və olabiləcək olar isə Bila-tərəddüd xanı müşarünileyhi tələb və dəvət ilə istimdad ü isti'anətə mübaderət edib vəl-hasil müqəddəmə və hələ fərmanım olduğu və uhdei səy və qayğısına lazımlı və ihalə olunduğu vəchilə mühafizə vü muharesəi qala və məmləkət və müdafiəi adayi bəd-tıynət, din və Dövlət-i Aliyyəmə layiq və şanı şövkəti Səltənəti Səniyyəmə müvafiq xidməti məşkurə və measiri məbrurə meydana gətirməyə bəzli makdur və sərfi səyi na-mahsur edib ol tərəfin əhval və asarı lazımü'ş-şiarını peydərpey Dərsəadətimə ərz u ilamə cidd ü ikdam etməyin babında fərmanı alişanım sadır olmuşdur.

Fi əvaili S. il 1145 [İyul 1732]

Mucibincə əməl oluna deyu ünvanına xətti humayunu şövkətmakrun keşidə qılınmışdır.

Bir surəti ___

Rəvan Mühafizi Vəzir İbrahim Paşaya vəchi məşruh üzrə...

Mucibincə əməl oluna deyu ünvanına xətti humayun şövkətmakrun keşidə qılınmışdır.

Bir surəti ___

Tiflis Mühafizi Vəziri əzəmi sabiq Osman Paşaya vəchi məşruh üzrə ...

A. DVNS. MHM. d, 138/1137-1139

27
ƏRZURUM ƏYALƏTİNƏ BAĞLI BÖLGƏLƏRDƏKİ TİMAR VƏ ZƏAMƏT SAHİBLƏRİNİN GƏNCƏYƏ ÇATDIRILMALARI

Gəncə qalasının düşməndən qorunması üçün vəzifələndirilən Ərzurum Əyalətinə bağlı livalardaki timar və zəamət sahiblərinin Gəncəyə ulaştıklarında qalanın və diyarın düşməndən qorunması üçün yerləşdirilmələri haqqında Gəncə Mühafizi Vəzir Gənc Əli Paşaya xitabən yazılan hökm.

[Avqust 1732]

***

Gəncə Mühafizi Vəzir Gənc Əli Paşaya hökm ki,

Bu əsnalarda Gəncə qal'ası'nın hifzi hırasəti akdəmi mehammı lazımü'l-ihtimam-ı Dövləti Aliyyəmdən olmaqla Ərzurum Əyalətində olan elviyə alaybəylər sancaqlarının umumən zu'ema və mütəxəssisi timarıyla seri'an və təcili olaraq yerlərindən qalxıb iki evi bir edərək kamalı sürət və şitab ilə Gəncə qal'asına çatıb xidməti mühafizəyə kıyam və hifz u hırasəti qala və məmləkət və sair baş verən xidməti din ü Dövləti Aliyyəmdə sən ki vəziri müşarünileyhsin, rəyi rəzini isabət-qarinin üzərə əməl ü hərəkətdə cidd ü qayğı etmələri şərtiylə tənbeh ü təkidi müştəmil əmri şərifimlə məmur qılınıb tacilü alət-ta'cil tesyirlərinə Dərsəadətimdən ... xüsusiyyətdən mübaşir təyin olunmaqla ilamı hal üçün işbu əmri şərifim ısdar və irsal olunmuşdur.

Vusulündə, sən ki vəziri müşarünileyhsin, əyaləti mərkumə zu'ema və ərbabı timarı məmur olduqları vəch üzrə yanına çatıb vasıl olduqlarında xidməti mühafizəyə kıyam etdirib iktizayı vaxt ü hala görə hifz u hırasəti qala və məmləkət və müdafiyəi adayı bəd-tıynət və sair baş verən xidməti dini Dövləti Aliyyəmdə məşğulluq və uhdə[nə] mütərəttib olan əmri mühafizə və

sair ümid edər və xüsusda gərəyi kimi izharı səy ü qayğı ilə say ü ma-la-kelam etməyin babında fərmanı alişanım sadır olmuşdur. Buyurdum ki...

Fi əvasıtı S. il 1145 [Avqust 1732]

A. DVNS. MHM. d, 138/1162

28

GƏNCƏDƏKİ TİMAR VƏ ZƏAMƏT SAHİBLƏRİNİN "QƏLƏM XƏRCİ"NDƏN AZAD OLMALARI

Gəncə əyalət divanın tərəfindən, təhrir nəticəsində beş yüz iyirmi altı ədəd təsbit olunan zəamət və timar sahiplərinin bağışlandıqları "miri xərc"dən başqa ödəmələri lazım olan "qələm xərci"ndən də azad olmaları üçün etdikləri müraciət haqqındakı buyuruldu.

[Sentyabr 1732]

***

Dəri dövlət-mədara ərzi bəndəi bi-mikdar budur ki;

Bundan akdəm ba-fərman-ı ali Gəncə Əyalətinə tərtib olunan beş yüz iyirmi altı ədəd zəamət və timarın bərəvatı Asitanəi Səadətdən mübaşir tayin buyurulan Əmr Seyid Osman Əfəndi qullarıyla vürud edib sadır olan fərmanı cəlilü'ş-şan mucibincə in'am olunan xərci miridən maada iktiza edən dörd min səkkiz yüz qırx səkkiz guruş aklam xərci tələb olunduqda Gəncə Əyaləti hini fəthdən bu ana qədər asudəlik olduğundan naşi öşrü mi'şarı ziraat və hırasət olunmayıb yazıları miqdarı hasilləri də olmayıb bu vaxta qədər xidməti asiyyədə bəzli makdur edib şayəstei mərhəmət olmalarıyla iktiza edən bəraət xərcləri in'am olunmaq üçün dəri dövlət-medara ərz u ilam olunması babında divanı Gəncəyə mahzar birlə arzuhal etmələriylə vəchi məşruh üzrə zikr olunan zəamət və timar karyələrinin rəayası pərakəndə vü pərişan olub inayət ü mərhəmətə layiq olduqları dəri dövləti mərha-mət-unvana ərz və ilam olundu. Baki fərman, dərgahı gərduni iqtidarındır.

Əl-Həcc Əli

Mühafizi Gəncə

Xərci bəraət üçün verilən fərman Divandan və aklamı sairədən dərkənər ola.

Gəncə mühafizi olan Vəzir Gənç Əli Paşaya hökm ki,

Gəncə və Xalxana və Bərgüşad və Bərdə sancaqlarının mücəddədən təhrir olunan zəamət və timarlarını sələfin vəzirim İbrahim Paşa *ədamallahu Təala iclalehu* tərtib, dəftərini Dərsəadətimə irsal və mucibincə tezakir və bərəvatı ixrac və Dəftəri Xaqanı katiblərindən kıdvətü ərbabüt-təhrir vəl-qələm Seyid Osman *zidə kadruhu* ilə tərəfinə irsal olunub lakin zikr olunan bəraətların in'am olunan xərci mirisindən maada xərci aklamı hesab olunduqda dörd min səkkiz yüz qırx səkkiz guruşa yetkin olmaqla məbləği mərkumə səhabələrindən təhsil və bu tərəfə irsal ü isal olunmaq fərmanım olmağın imdi sən ki vəziri müşarünileyhsin, zikr olunan bəraətların in'am olunan mirisindən maada xərci aklam olmaq üzrə verilməsi iktiza edən məblağ-ı məzbur dörd min səkkiz yüz qırx səkkiz guruş hini təvzidə səhabələrindən tamamilə təhsil və bir gün əvvəl bu tərəfə irsal ü isal eyləmək babında fərman-ı alişan yazılmışdır. Fərman sultanımındır.

Fi əvaxiri Rə. il [1]145 [Sentyabr 1732]

Mucibincə xərci bəraətları in'am olunduğunu müş'ir Gəncə mühafizinə hökm buyuruldu.

TZ, 6785

29

GƏNCƏ ZƏRBXANASINDA KƏSİLƏN GÜMÜŞ SİKKƏLƏRDƏN ZƏRBXANA SAHİBİ TƏRƏFİNDƏN ALINMASI LAZIM OLAN DÖVLƏT XƏZİNƏSİNƏ AİD PAYIN TƏHVİL EDİLMƏSİ

Gəncə zərbxanasmda doqquz ay müddətində zərb olunan gümüş sikkələrin hər birindən alınması lazım olan miri(dövlət xəzinəsinə aid) payın mühasibə təslim edilməsinə dair zərbxanə əmirinin istəyi üzərinə Sədrəzəmin, tələb olunan mühasibin göndərilməsini nəzərdə tutan buyruğu.

[7 avqust 1733]

***

Sah

İzzətli Mühasib Əfəndi,

Gəncə Zərbxanasmdan hasd olan min səkkiz yüz altmış iki yarım guruşu əmini yedindən ahz və yedinə ruznamçə verilmək deyu buyuruldu.

Kurs Ədəd 74,5	Fi-i miri Quruş 25
Quruş 1862,5	

Dövlətli, mərhəmətin, əfəndim, sultanım həzrətləri, sağ olsun,

Gəncə Zərbxanasında qırx beş ili Cəmaziyələvvəlin qurrəsindən qırx altı ili Səfərü'l-xeyrin çoxuna gəlincə sikkə zərb olunan yetmiş dörd yarım kurs gümüşün bəhər kursun mutadı qədim üzrə iyirmi beş quruş mirisi mühasib əfəndi qulları tərəfinə təslim olunub ruznamçə verilmək babında əmr ü fərman mərhəmətli əfəndimindir.

Bəndə Əbubəkr
Əmini Zərbxana
[7 avqust 1733]
C. DRB, 1478

30
SİVAS ƏYALƏTİNDƏKİ TİMAR VƏ ZƏAMƏT SAHİBLƏRİNİN TƏYİNLƏRİNİN GƏNCƏ MÜHAFİZİ GƏNCƏLİ PAŞA TƏRƏFİNDƏN İCRASININ UYĞUN HESAB EDİLDİYİ

Sivas əyalətindəki timar və zəamət sahiblərinin təyinlərini Rəvan mühafizi Əli Paşanın etməsi əmr edilmişkən, tətbiqdən imtina edilərək bu təyinlərin, qanuna uyğun olaraq edilmək və təyin bəlgələrinə Padşah adına tuğra çəkmək üzrə, yanında cibə dəftərləri olan Gəncə mühafizi Gənc Əli Paşa tərəfindən tevcihinin uyğun hesab edildiyinə dair hökm.

[Fevral 1734]

***

Gəncə mühafizi vəzirim Gənc Əli Paşaya hökm ki,

Bu əsnada əyaləti Sivasın zu'ema və ərbabı timarı Rəvan qalası mühafizəsinə təyin və tevcihatları da Rəvan mühafizi və səraskəri vəzirim Əli Paşaya sifarişü təfviz olmaqla müqəddəmə sənin yanında olan cəbə dəftərləri bir varakı məhv' və tələf olmaq üzrə memhurən səraskəri müşarünileyh tərəfinə irsal olunmaq üçün sən ki vəziri müşarünileyhsin; başqa əmri şərifimlə hərçənd sənə tənbeh olunmuş idi. Ancaq iktizayi vaxt ü hala görə əyaləti mərkumə Rəvan mühafizəsindən sərf və səddi sədidi İslamiyədən olan Gəncə mühafizəsinə təyin ü tevcihatları da sənə təfviz olunduğuna görə müqəddəmə sənə irsal və hələ yanında olan cəbə dəftərlərini hifz edib və bundan belə əyaləti mərkumədə vaqe zü'ama və ərbabı timardan savbı məmurlarına çatmayıb xidməti lazimələrində mövcud olmayanların və səhabələri fevt olanların zəamət və timarları bi-hasəbi'l-kanun mahlul olub və fevt olan zamın iki oğlu qalar isə böyük oğluna beş min və kiçik oğluna dörd min və bir oğlu qalar isə ancaq beş min axça verib ərbabı timarın bir oğluna üç min axça verib icmallı isə icmalı pozulmamaq üzrə icmallı deyil isə dilədiyi yerdən alır və şəhidən fevt olanların zəamət və timarları mərhamətən qanunlarından çox oğullarına verilmək qanundur və atası fevtindən sonra meydana gələn mütəvəffanın oğluna zəamət və timar və icmallı qılıncdan hissə ayrılıb ahara verilmək və asakirə ecanibdən rəaya idxal olunmaq xilafi qanun olmaqla vəchi məşruh üzrə əməl və oğlu olmayan mütəvəffanın və na-mövcud olan benamdan və fərarilik və tərki xidmət edənlərin mahlul olan zəamət və timarları sancağmda sakin olub alaybəyisi bayrağı altında səfər eşmək şərtiylə eşkalləri miralay ərziylə ərbabı istihkaka tevcih və təhvil hökmü etdirib və sən ünvanına tuğrayi alişanım keşidə edib ol tərəfdən amәd olmamaq üzrə təzkirə verib və verdiyin təhvil və təzkirəyi Divan kitabətinin xidmətində olana təhrir və səhabələrinə təslim etdirib xilafi qanun tevcihatdan və bir fərdə qədrdən tevakki' eyləməyin babında fərmanı alişanım sadır olmuşdur. Buyurdum ki...

Bir surəti ___
Əyaləti Sivas alaybəylərinə, Gəncə məmuriyətləri üçün.

Fi əvaili N., il [1]146 [Fevral 1734]
A. DVNS. MHM. d, 139/1609-1610

31
ŞAHSEVƏNLİ TAYFASININ GƏNCƏ VƏ QARABAĞDA DAĞINIQ ŞƏKİLDƏ YERLƏŞDİRİLƏRƏK TƏHLÜKƏSİZLİKLƏRİNİN TƏMİN EDİLMƏSİ

Şirvan Xanı Surxay Xan tərəfindən olduqları yerdən çıxarılan Şahsevenli Tayfasının toplu olaraq bir yerdə məskənləri uyğun hesab edilmədiyindən bir qisiminin Bayatpazarından Gəncə və Xalxanaya çatana qədər olan kənd və nahiyələrə, digərlərinin Qarabağdakı Balagan və Hanargıya yerləşdirilərək özlərinin və ətraflarının güvənliklərinin təmin edilməsi üçün Gəncə Mühafizi Vəzir Gənc Əli Paşaya xitab olaraq yazılan hökm.

[Aprel 1734]

***

Gəncə Mühafizi Vəzir Gənc Əli Paşaya hökm ki,

Cənabı emarət-meab hələ Şirvan Xanı olan Surxay Xan *damət mealihinin* sən ki vəziri müşarünileyhsin, tərəfinə irsal etdiyi məktubuyla bu dəfə dəri dövlət-medarıma varid olan kağızının məfhumlarında Şahsevənlü tayfasına xanı müşarünileyh rəy verib və tayfayi məzkurəyi olduqları yerdən ixrac üçün tərəfindən təyin etdiyi adamlarına Şikaki tayfəyi itaət etmədiklərindən naşi müharibə ilə edənləri kəsr və qüsuru Şahsevənlidən on beş min miqdarı xanələri Qarabağı Gəncədə vaqe Balagan və Hanargı adlı yerlərdə iva olunmaq üçün ixrac olunduqları və tavaifi mərkumə müctəmi'an mahallı məzburədə məskunlaşdırılmaq münasib görülmədiyindən üç-dörd min xanələri təfrik və Bayatpazarından Gəncə və Xalxanaya çatınca nevahi və kuraya irmişər-otuzar xanə tevzi' olunmaq üzrə xanı müşarünileyhə tərəfindən ifadə vü ifham olunduğu təhrir ü ilam olunmuş tavaifi salifü'l-bəyan etimada layiq aşayir olmayıb ancaq istida və istiman surətlərin ibraz etmələriylə mərkumlar mevaziyi məzkurəyə məskən olunduqları halda itaət ü inkıyadları mə'mul ikən əsgəri makuləsinin və aharların özlərə ta'addi və təhqirlərindən naşi fimaba'd tənəffürlərinə mukazi halət zühur eyləməməsi və himayətü sıyanət olunduqları halda ol havalının şəni əbadan olması və bu surətdə bir hicrət hadisəi tapmaması məlhuz olar isə xanı müşarünileyhlə xəbərləşərək bil-ittifaq mərkumlar mahallı məzkurədə məskən olunmaq fərmamm olmağın,

İmdi, işbu əmri şərifim ... vusulündə sən ki vəziri müşarünileyhsin, xüsusu mərkumu vəchi məşruh üzrə ba'də'l-istişarə tavaifi məzkurənin təfrik olunan xanələri Bayatpazarından Gəncə və Xalxanaya çatınca olan kura və nevahiyə tahmillərinə görə irmişər-otuzar tevzi' u məskən və bakiyyəsi xanı müşarünileyhin rəyi üzrə salifü'z-zikr Qarabağı Gəncədə vaqe' Balagan və Hanargı adlı yerlərdə iva və məskən qılınıb gərək mərkumları aharların ta'addisindən və gərək ol havalidə olan rəaya vü bərayayı onların təcavüzlərindən mühafizəyə qayğı ü diqqət və bundan belə zuhur edən keyfiyyətlərin dəri dövlət medarıma ərz u ilama mübaderət eyləmən babında fərmanı alişanım sadır olmuşdur. Buyurdum ki...

Fi əvaili Za. İl 1146 [Aprel 1734]

A.DVNS.MHM.d,140\88

32
XALXANA SANCAĞININ MÖVQEYİNİN ƏHƏMİYYƏTİ DİQQƏTƏ ALINARAQ MİRMİRAN (SAHİBLƏR SAHİBİ) RÜTBƏSİ İLƏ MUSTAFA PAŞA SƏLAHİYYƏTİNİN UYĞUN HESAB EDİLMƏSİ

Gəncə yolu üzərində dayanacaq yeri olan Xalxana sancağının idarəsi və qorunması vəzifəsinin bir mirmiran öhdəsinə verilməsi lazımlı görüldüğündən istihdama ən layiq olan Mustafa Paşanın rütbəsi yüksəldilmək surətiylə "mutasarrıf" olarak təyininin Padşah təsdiqi ilə uyğun hesab edildiyinə dair hökm.

[Sentyabr 1734]

***

Bər-vech-i yurdluq və ocaqlıq Xalxana Sancağı Mutasarrıfı Mustafa Paşaya hökm ki,

Xalxana Sancağı Gəncənin caddei müstəqiməsində vaqe' olub Gəncə havalisinə memərru ma'bər olmaqdan naşi mahallı mərkum əksərən adayi bəd'-rə'yin matmahı nəzərləri olmaqla mühafizəsi bir mirimiranı şücaət-nişanın öhdei qayğısına həvalə olunmaq muktəzi olub və sən ki mirimiranı mumaileyhsin, sənin bil-verəsə şeci' u namı-dar və istihdama layiq sezavar olduğun məsmuyu humayunum olduğuna görə avatıfi aliyyəi hüsrəvanəm-

Bu əyyamda sultanü'l-bərreyn və hakanü'l-bahreyn maliki rikabu'l-üməm zıllu'llahi fi'l-aləm şövkətli, kəramətli, qüdrətli vəli-nemətimiz Padşahı aləm-pənah əfəndimiz həzrətlərinin şərəf-əfzanı sudur olan əmri aliləri və məktubu sami-i həzrəti Sadarət-pənahi ilə atayanı şahanə və hədəyanı Padşahanə silahşoranı xüsusiyyətdən Məmməd Saleh Bəy yediylə mumaileyh Ümmi Xana çatıb la-büd və la-yühsa sürüyər və müzahirət və ibtihac hasil olduğun.

Xanı mumaileyhin məktubu xülasəsi tətimməsindəndir

Xanı mumaileyhin əba vü əcdadı xidməti Dövləti Aliyyəyə və ubudiyəti Səltənəti Səniyyəyə məcbul və məftur olduqları mislli xanı mumaileyh də Dövləti Aliyyənin ubudiyəti ilə müftəxir və mübahı olduğuna keçən il vaqe' olan hərəkəti şahid idiğün.

Bu da

Xanı mumaileyhin ubudiyəti Dövləti Aliyyə indində məqbul olub haqqında atabə-i ulyanı hakaniyədən təvəccöhatı Səniyyə dərgar olduğu silahşoru mumaileyhin lisanən ifadəsindən də məlumu olub bu vəchilə sanih olan təvəccöhatı aliyyə ubudiyəti daiməsinin təzayüdünə ba'is olub həyatda olduqca xidməti aliyyədə qaim və əvamiri aliyyəyə əz-canı dil münkad və tabe olub nə vəchilə əmr olunar isə mucibincə əməl və hərəkət və nə tərəfə irsal olunar isə o tərəfə müsaraat edib bu babda hulfdən ba'id və xilafdan müctənib olduğun.

Bu da

Xanı mumaileyh Çıldır valisi müşarünileyhin tatar ilə irsal etdiyi məktubu da çatıb təhrir və iş'ar olunan bəzi xidməti məxsus mumaileyh Saleh Bəy ilə müşavirə və müzakirə olunub miri mumaileyh də Dövləti Aliyyənin xanı mumaileyh haqqında olan təvəccöhat və iltifatını yadı təzgar ilə xanı mumaileyhin xidməti Səniyyəyə olan şövq və xahişini qat nadir qat mütəzayid və əfzun etməklə mal və canı qohum və iyaliylə xidməti məzkurəyi qəbul edib əvamiri şahanə zühuruna mütərakkıb olmaqla nəhb ü qarət və təxrib ü inidam üçün gərək Gürcüstan tərəfinə və gərək Rusiya tərəfinə nə tərəfə əmr u fərman buyurular isə hazır u amadə olub əmri fərman və ianət Dövləti Aliyyədən və itaət və ictihad xanı mumaileyhdən və nüsrəti zəfər həzrəti Rabbü'l-aləmindən etdiyin.

Bu da

Nəhb ü təxrib üçün Rusiya memalikindən məvaziyi mümkünə və xanı mumaileyh tərəfinə səmt olan Qızlarqalası və ətrafında vaqe' olan qalalar idiğün və Gürcüstana təcdid etdikləri Ananur tarikinin təxribi də fərman buyurular isə mümkün idiğün və Tiflisə səfər iradə buyurular isə əmri səhl olunduğun.

Bu da

Rusiya diyarına soyğun və cihad fərman buyurular isə hululi vaxtından üç ay və daha çox müqəddəm fərman buyurulması lazimədən olduğun, çünki tədarükü kamil və cəmi vafirə möhtac olduğundan qeyri həvaliyi tarikdə vaqe' olan əhaliyi Xaçın və Çərkeş və sairləriylə hufyətən mükatəbə və mükaləmə olunmaq da lazım idiğün mumaileyh Ümmi Xan təhrir edər.

Şuşa və Qarabağ Xanı İbrahim Xəlil Xandan Çıldır valisi müşarünileyhə gələn məktubun xülasəsidir

Şuşa və Qarabağ Xanı İbrahim Xəlil Xandan Çıldır valisi müşarünnileyhə gələn məktubun xülasəsi olub ifadəyi haldır:

Bu dəfə tatar ilə göndərilən təhriratın vusulündən bəhslə o tərəfin əhvali zirdə bəyan olunduğu üzrə idiği tatar-ı mərkumun takririndən də məlum olacağın.

Bu da

Xanı mumaileyh Padşahı aləm-pənahın əmrinə inkıyad və itaəti iradəsinə məbni a`dayı dini mübinin təksir və ta`diminə kıyam birlə ülka-yı Qazaxı və Şəmsəddinlünü yədi qənaətindən ixrac etmiş olduğun.

Bu da

Cənabı Barının tevfiqiylə kəfərəyi fəcərənin can və malını səbili cihad üzrə vəz' edib tərgimi ünufu dəlalət-mə'lufuna səy u qeyrət edəcəyin.

Bu da ifadə-i haldır

Hələ Tiflis Xanı İrakli Xan Qubalu Fətəli Xanı və Şəkili Məhəmməd Həsən Xanı küfrü işrakına şərik edib mumaileyh İbrahim Xan ilə adavət etmək qəsdinə müşriki müştərək mərkuman i`anətiylə dəryayı həlakətə müstağrık olmuş ikən sər-nigunun bir miqdar sahili nəcata çəkib Rusiya və Gürcüyə sipahru-sipahın qaldırıb əzmi təshiri diyarı Gəncə edib Tiflisdən iyirmi saat məsafə tariqi tayy birlə ərzi Şəmsəddinlidə şəhəri Zilhiccənin qurrəsinə qədər məks ü ləbs etmiş olub diyarı Tiflis və diyarı Gürcüstan halı qalıb həngamı fürsət yaratmış ikən Çıldır Valisi Süleyman Paşa tərəfindən diyarı küffara bir qətl ü qarət vaqe' olmaması mumaileyh İbrahim Xana baisi tə'əccüb və istiğrab olduğun.

Bu da

A`da-yı dini mübinin dəmi fürsəti zühura yetdikdə fevt etmək caiz olmayıb aya nə vakia vaqe' olmuş və nə hadisə hudus etmiş ki müşarünileyh Süleyman Paşa tərəfindən bu dənli təvakkuf və təgaful vücuda gəlmiş. Padşahı İslam-pənahın fərmanı Süleyman Paşa xassətən və sair sərhəd paşaları ammətən mumaileyh İbrahim Xan və havanını Azərbaycan ilə müttəfiq və müttəhid olub kafir huruc etdikdə bir-birinə muin və müsta`in olaraq mütəvəkkilən alə'llahi'l-Bari nəf`yi küffara ikdam edələr mazmununda ikən hələ də "sipahı küffar huruc etmiş olub təgaful etmənin vəchi nə ola" deyu mumaileyh İbrahim Xan tə'əccüb etməklə ba`də əz-in müşriki səlasənsənin cihadı və rifayı üçün asakiri Azərbaycan cəminə məşğul olunub inşaallahu'r-Rahman

bir neçə günə qədər a`danı dini mübinin cəzanı amalləri icra olunmasın mumaileyh İbrahim Xan məzkurunda təhrir edər.

12 M. il 1202 [24 Oktyabr 1787]

XƏTT, 27/1307, 1308

59

RUSLARIN DÖYÜŞ HAZIRLIQLARINA BAXMAYARAQ ÇILDIR VALİSİ SÜLEYMAN PAŞANIN QOCALIĞI VƏ XƏSTƏLİKLƏRİ SƏBƏBİLƏ HEÇ BİR SƏFƏR HAZIRLIĞINDA OLMADIĞI

İrakli xanın gizli-açıq xəyanətlərinin səbəbini, ruslar tərəfindən Mozdok qəsəbəsindən Tiflisə göndərilməsi gözlənililən əsgərlərin təşkil etdiyi; Şuşa xanı İbrahim xan ilə bölgə xanlarının Çıldır valisi və Səraskəri Süleyman Paşaya güvənmədiklərinin aydın olduğu; Qoca və iqtidarsız bir halda olan Süleyman Paşanın sərhəd boyunda səfər hazırlığı içində olmadığı kimi Axısqanın əsgəri baxımdan gücləndirilməsinə də mane olduğu; Ola biləcək bir düşmən hücumu qarşısında gözlənillməyən bir vəziyyətlə qarşılaşa bilacəyi barədə Rikab kətxuda vəkili Saleh Ağanın təhriri.

[12 fevral 1788]

***

Cənabı vala-nisabları Dövləti Aliyyənin və dövlətli, mərhəmətli, vəliyyü'n-ni'am kəsəril-kərəm əfəndimiz həzrətlərinin bəndəganı sadıkü'l-cənanlarından olduğunuz təqribiylə bu tərəfin keyfiyətindən bəhs edərək hasbı halı rəftarıyla belə bastı həqiqəti halə ibtidar olunar ki,

Tiflis Xanı İrakli Xanı dəlalət-nişan gəmini fürsətdə olub xafi və cəli da'imü'l-evkat tədarükat və hərəkatı na-marziyyəyə məşğul ilə izharı xəyanət etməsi Moskovlu tərəfindən vürudu asakiri mənhusəyə mütərakkıb olduğu varəstəyi qeyd u bəyandır. Hətta ol havaliyə məmur olan cəsuslarımız bu əsnada tərəfi halisanəmizə vürud və lədə'l-istintak dərunu Tiflisə girmək bir tərəfə qura və ənhasına duhul da qabili hadd-i imkan olmayıb tarikləri gərəyi kimi sədd ü bənd etmiş olduğunu takrir etdilər. Bu misilli tarikləri səddi bənd etməsi məşğul olduğu e`fal və hərəkatdan kimsəyə sər-riştə verməmək üzrə bir hiyləyə məbni

olmaq gərəkdir və çayı Arak [Tərək] adıyla müsəmma olan tarikdən Tiflisə otuz altı, nəhayət qırx saat məsafə olan Moskov sərhəddində vaqe' Mozdok adlı qəsəbəsində bir ceneral ilə Moskovlunun külliyətlücə asakiri mənhusəsi olduğunu cəsuslarımız mərkumun qulları ol həvalidə hisdimə' etdiklərini və "guya Kızılyumurta təbir etdikləri vaxtda Mozdokdan hərəkət və Tiflisə gələcəklər[i] xəbəri ol həvalidə şöhrət-şüardır" deyu takrir etdilər. Bu şuyu'at hər nə qədər sədaqət u kizbə ehtimalı var isə də "su yatar düşmən yatmaz" fehvası üzrə əlbəttə əzm ü ehtiyata riayət ilə iktizasına görə əməl və hərəkət etmək farizayı zımmətimiz olmaqla gərək təqsiri asakirimiz hususunda və gərək vüsətimiz mərtəbə tədarükatı səfəriyyədə və gərək məddi inzarı bəsirətə səri mu qüsur və rəhavət təcviz olunmadığı və fima-ba'd da can bədəndə ikən təcvizi qüsur etmək muhal qabilindən idüğü bi-iştibahdır. Cənabı Haqq həmən tevfiqi aliyyəsində rəhbəri tariq edə. Amin. Ümərayı Dağıstandan Avar hakimi Ümmi Xan və Şuşa Xanı İbrahim Xəlil tərəflərindən bu dəfə səfiranı məxsuslarıyla tərəfi halisanəmizdə vürud edən bir qitə məktubları və İbrahimxəlil xanın səfirinin verdiyi bir qitə takriri haqq-payı həzrəti Sadarət-pənahiyə irsal olunmuşdur. Qaldı ki hananı mumaileyhimə və havanında sairə hələ də Çıldır valisi və səraskəri izzətli Süleyman Paşa həzrətləriylə surəti zahirdə hər nə qədər xəbərləşmə və mükatəbə mərasiminə riayətləri var isə batınən və həqiqətən bir-birlərinə razılıq və təhlükəsizlikləri və vəziri müşarünileyhə ürək qüvvələri olmadığını İbrahimxəlil xanın səfiri mərkumu sirr olmaq üzrə tərəfi muhlislərinə takrir etdi. Vəziri müşarünileyhin keyfiyəti halı sual buyurular isə müsinn və qoca və bi-hikmətillahi Təala xəstəliyi məfluciyyət ilə bir hala varmışdır ki iyazən billah Təala ihram ilə haram tərəfindən taşraya aparıb gətirirlər və qətiyyən nüzul və rükuba iqtidarı qalmamışdır. Və sınur başında intihayı sərhəddə olması təqribiylə cümlədən çox tədarükatı səfəriyyədə və təhyiəyi asakirdə bəzli makdirət etmək iktiza edər idi. O isə vaxtı asudəyi halı manəndi xəstəliyi ilə məşğul olub qətiyyən və katibətən bir tədarükü səfəriyyədə deyil. Hətta Axısqaya ordu ağası nasb və tərtib olunan məhkumluq Ərzurum Yeniçəri Ağası Osman Ağa

Axısqaya ordu ağası nasb və təyin olunalı iki mahdan çox olub məmurluğu lədə'z-zuhur umuru mə'murəsinə çatıb kıyam etmələri üçün vəziri müşarünileyhə lədə'l-istizan "indi vaxtı deyil, lazım olduğu vaxtda gətirdiriz" deyərək ağanı mumaileyhə tənbehnaməsi vüruduna məbni əl-an ağayı mumaileyh mədinəyi Ərzurumdadır və Axısqada və ol həvalidə mövcud olan edə' və palankalarda əsgər adıyla bir əhad və tədarükatı səfəriyyədən bir şey yoxdur. Və yanında da ətba' olaraq üç yüz dörd yüz adamı yoxdur. Ol dahi yerlidir. Vəziri müşarünileyhin bu hərəkəti səfəri humayuna dair sərairi Dövləti Aliyyədən bizlərdən çoxmu vaqifdir. Yoxsa Dövləti Aliyyədən bir xofu mu var da asakirin təcəmmu' və tahaşşüdünə razılıq verməz. Yoxsa mülahizəyi ahərimi vardır. Zamirində mərkuz olan nədir bilməm. *Allahümmə'hfazna* düşməni dini mübin lədə'z-zuhur, Ləzgi və Ekrad tayfaları mənə əsgər olar. Və bunlar ilə qarşılıqı a`da edərəm mülahizəsində isə alima'llahu Təala rəy və mülahizə deyildir. Mücərrəd suyi tədbirdir. Kangı tarixdə Ekrad və Ləzgi tayfaları səfəri humayunda yaradılar və iş gördülər. Ləzgi tayfası biaynihi Tatar tayfası kimi ancaq oğurlayıb çarpıb çapavul edə bilər. Yoxsa düşməni dini mübin ilə qarşılıq və mukatələ etmək mümkün deyil. Və heç vuku' tapmamışdır. Fərz edək ki lədə'l-iktiza tayfayi Ekrad və Ləzgiyanı cəm' edər mülahizəsində olub cəm' və cəlb edə bilməyəcəyi də gün kimi aşkardır. Xülasəyi kəlam belə məlumu səadətləri ola ki iyazən billah Təala düşməni dini mübin bu həvaliyə zühur edər isə bu mülahizə və hərəkət ilə xilafı mə'mul çox şeylər zühur edəcək. Cənabı Haqq həmən ən əncamını xeyir edə. Amin. Vəzir olması hasəbiylə bu mislli şeylər təhririmiz əğərçi na-mülakidir. Ancaq əlhəmdülillah! Təala Dövləti Aliyyənin və dövlətli vəliyyü'n-ni'am əfəndimiz həzrətlərinin bir ədna sadiq bəndələri olub bu həvalidə olaraq və əncam-karını təfəkkür ilə hələcanı dərunum kamala rəsidə oldu. Cənabı səadətləri də təmkinli olduqları məczumum olmaqla mücərrəd təskini hərarət və hasbı hal tarikiylə bir bəndəsi tərəfi səadətlərinə təhrir olundu. Qaldı ki vallahi və billah və tallahi nəfsaniyyət mənasına deyildir. Ancaq səyi diniyyədir. Əlbəttə Axısqa həvalisindən aməd-şüd edən mutəməd xadiməyi dövlət

bu hususatı Dəraliyyəyə takrir etmirlərmi? Andan qat-ı nəzər Dövləti Aliyyəyə görə təshih etmək bir güc məsləhət deyil. Bu takririmizi ba'də'l-kıraat kimsəyə ifşa etməyərək yenə mazrufən və məmhurən tərəfi halisanəmizə irsal buyurmanız əcli məsulu halisanəmizdir. Və billahi't-tevfik və minhu'l-inayətü.

Fi 5 Ca [1]202

Rikabı sultanda kətxuda vəkili olan Saleh Ağa qulları Ərzurum valisi Asitanədə ikən Saleh Ağa sultan kətxudası və müşarünileyh də əzvacı sələtından olmaqla bəzi şəkil və adətə dair mevad müzakirəsi üçün beynlərində ülfət olmaqla qulunuz Saleh Ağaya çavuşbaşı ikən tənbeh etmiş idim, Ərzurum valisinə təhrir et ol tərəfin həvadisini təhrir etsin deyu tənbeh etmişdim. Buna görə də Saleh Ağa təhrir etməklə ol dahi maddəyi bəyan etmiş. Dünənki gün Məclisdə qiraət olunmuşdur. Məlumu aliləri buyurulduğu üzrə fərman mən ləhü'l-əmrindir.

5.Ca.[l]202 [12 fevral 1788]

XƏTT, 33/1603

60

RUSLARIN TİFLİS XANI İRAKLI XANI DA ÖZ TƏRƏFLƏRİNƏ ÇƏKƏRƏK DAĞISTAN VƏ AZƏRBAYCAN TORPAQLARINA HƏRBİ HƏRƏKƏT ETMƏ PLANLARI

Rusiyanın, Osmanlı dövləti ilə barış etdikləri gündən bəri andlaşmaya uyğun gəlməyib zərər verici harəkətlərdə olduğu, Dağıstan və Azərbaycanı da zəbt arzusunda olduğu; Krımı gözlənilmədən mühasirəyə alaraq xalqını pərişan etdiklərindən etibarlarını itirən rusların, öz üzərlərinə müharibə qapılarını açdıqları; Verilən fitva və kumandanların ittifaqı ilə ruslara döyüş elan edildiyi; Sədrəzəm və Sərdar Yusif Paşa əmrindəki Osmanlı ordusunun Rusiya və Avstriya üzərinə getməsi qərarlaşdırıldığı; Krım bölgəsinin qurtarılması məqsədilə Soğucak rəhbəri Mustafa Paşanın sərancamındakı qüvvələrin göndərildiyi; Digər tərəfdən Kuban xam Şahbaz Giray xanın əmrindəki tatar əsgərləri ilə Kabarda və Kuban ətrafında birləşərək düşmənə etiraz edilməsi barədə Şuşa və Qarabağ xanı İbrahim xan və bölgədəki

digər Azərbaycan və Dağıstan xanlarına surətləri göndərilən hökm.

[Fevral 1788]

***

Digər yazılan misalı şahanə asakir mühimməsində qeyd olunandır]

Şuşa və Qarabağ Xanı İbrahim Xəlil Xan damət mə 'alihiyə hökm [ki],

Siz ki xanı hamiyyət-nişan-ı müşarunileyhsiz. Bundan akdəm dər-barı atufət-qərar-ı tac-daranəmdən təşrifatı Səniyyə və atayayi behiyyə ilə ısdar və irsal olunan misalı lazımü'l-imtisal-i şahanəmə və sadrıazam və vəkili mütləq və sərdarı əkrəm təhriratına cavab olaraq bu dəfə Dəraliyyə'[yə] tərəfinizdən və hananı Dağıstan və Azərbaycan tərəflərindən varid olan maruzatı musadakat-gayat-ı məfahimində əba və əcdadınız qədimdən bəri xandanı rasıhatü'l-bünyan-ı Dövləti Aliyyə və dudmanı muhallədü'l-ərkan-ı Səltənəti Səniyyəmin niamı cəliləsinə məzhər olub siz də əba və əcdadınız əsərinə iktifa ilə siz və övlad u ahfadınız əmr və nəhyi şahanəmə imtisa[l] və mutavaat və can bədəndə [və] ramakı bədəndə olduqca xidməti dini mübin və Dövləti Aliyyəyi əbəd-karında sərfi ma-hasal miknət edəcəyinizi və bir müddətdən bəri tıynəti əslə və cibilliyəti rədi'əsində mərkuz olan xəyanət və məl'anəti icra fikiri fasidiylə beyzayı İslamiyəyə sui-qəsdini bəzi müqəddəmətı qəsidəyə təşəbbüs göstərərək izhar və elan edən gərək İrakli Xanı məfsədət-nişan və gərək müttəfiki olan Rusiyanın qəhri kamları xüsuslarında və gərək sair tərəfi Dövlət-i Aliyyəmdən hər nə xidmətə və nə vəchilə hərəkətə məmur qılınar isə itmamı xidmət və ifanı məmurluğa bəzli qüdrət edəcəyinizi bəyan ilə muktəzanı salabəti diniyyə və hamiyyət və səyi İslamiyəniz üzrə tərəfi vazıhu'ş-şərəf-i cahandaranəmə vücuhla meyl və mütabaat və surəti inkıyad və mutava'atınızı göstərərək cümləniz şaki's-silah və naskulətü's-süyuf və məsrücətü'l-əfras olduqlarınız halda tərəfi Dövləti Aliyyəmdən mütərakkıbı ima və işarə olduğunuz alət-təfsil dərc və tasdır olunmuş sizin dini mübin yolunda və Dövləti Aliyyəm uğurunda gayuranə və hamiyyət-məndanə ibrazı

asarı cəladət və ifayı ləvazımı mərdanəgi və şücaət edərək mühafizəyi namusu din və dəfi mazarrı kəfərəyi müşrikin xüsuslarında mütəhəyyiyi kıyam və kəmər-bəstəyi qayğı olmağınız və bu vəchilə sunuh və büruz edən ətvarı salabət-asarınız tamam dini mübin və şəriəti mutahharayı həzrəti Seyyidi'l-mürsəlin qeyrətində sizdən mə'mul və məczumu şəhriyarhanəm olan asarı hamiyyət və mətanəti təyid və təsdiq etmiş olduğundan haqqınızda dərgar olan hüsnü təvəccöhü davəranəm və də-avatı hayriyyəyi mülukanəmin təzayüd və müza'afatını mucib olmuşdur. Cənabı Haqq və nasırı mütləq işbu vəchilə niyyəti sadiğə və aziməti halısanızı müqəddiməyi zühuru fevz u nüsrət edib əlviyəyi İslam mənsur və müzəffər və a`dayı liamı alə'd-davam mahzul və müdəmmir olaraq fütuhatı cəliləyə müvəffəq və məzhər edə. Amin. Moskov kəfərəsinin məsfur İrakli Xanı iğfal ilə bir müddətdən bəri tasahhub etməsi məsfuru dərpiş edərək ol tərəflərə dəst-dıraz olmaq və ma'azallahu Təala hıttayı Dağıstan və memaliki Azərbaycanı və kuttanını biladı sairəyə etdikləri mislli ənvayı hiyəl ilə zəbt və sükkanını paymalı cevr ü cəfa etmək iradəyi fasıdasına məbni idüği ra`na-yı məlumunuz olan hilatdan və ədna mülahizə ilə zahir olar kazayadan olduğu cümlə indində müsəlləm və mübərhəndir. Bundan başqa Moskov kəfərəsi Dövləti Aliyyəmlə musalaha olduğu gündən bəri öz halında və əhd u peymanında dayanmayıb Dövləti Aliyyəmə və amməyi ibadı Müsliminə muzır olan guna gun təkalifi baridə və hərəkat və ətvarı anidəyə ibtidar və münafiyi əhd və şurut hıttayı Krımı bağtətən zəbt və dərununda olan bu qədər üləma və suləha və sadatı kiram və bihisab nisvan və sıbyan və əramil və əytamı raiyyəti hökmünə tənzil və neçə neçə qrupu biçarəganı ayaqları altına alıb ənvayı cəfa və əza ilə təzlil etdikləri vəl-hasili hamiyyəti İslamiyyənin heç cür qəbul etməyəcəyi la-yu'ad və la-yuhsa hərəkata və vücuhla özlərindən təhlükəsizliyi salıb olar evza`a cəsarətləri üzərlərinə fəthi ebvabı müharibə və mukateləyi müstəlzim olduğundan tərəfi şəriəti mutahharadan verilən fətvanı şərifə mucibincə üləmayı a`lam və ricalı dövləti əbəd-kıyam və ocaqlar agavat və zabitanı ittifaqlarıyla kəfərəyi Moskov üzərlərinə səfəri humayunum tahakkuk edib Dəraliyyədə olan elçisi

qaidəyi dövləti əbəd-müddət üzrə Yediqulləyə qaldırılıb vəz' u həbs və məmaliki vəsi'atü'l-məsalik-i xüdavəndigaranəmə elanı müharibəni mutazammın evamir nəşr olunduqdan sonra livayi şərifi nüsrət-rədifi həzrəti sipehsaları asfiya əleyhi və ala alihi və ashabihi əfdalü's-salat və əzkə't-təhaya sayəsiylə bi'l-fi'l sadrıazamı sütudə-şiyəm və vəkili mütləqi kaviyyü'l-himəm və sərdarı əkrəmim Yusif Paşa *iclaləhu və ikbalehu* və rical və ocaqlı və Dərgahı Mu`allam mütəfərrikaları və sair bilcümlə asakiri zəfər mə'asir ilə orduyu humayunumun Dəraliyyəmdən hurucuna muktəzi olan kaffəyi ləvazimatın ikmal və təhyiəsinə məşğuliyyət olunmaqda ikən Nemçəli də Moskovlu ilə müttəfikan ləğvi əhd etməklə bundan belə mütəvəkkilən alə'llah və mütəvəssilən min-ruhaniyət-i Rəsul *sallallahu əleyhi vəsəlləm* Moskovlu və Nemçəli üzərlərinə azimət və bərrən və bahrən diyarı məmaliki namizədə hücum və iktiham olunaraq "**Qatıhl-müşrikinə kaffətən kema yukatilunəküm kaffətən"** nəzmi kərimi muktəzasınca qəhri kamı müşrikin və vikayəyi namusu dini mübin xüsuslarına daməni dərmiyanı qeyrət və **"Cahidu fi-səbilillah"** əmri Zülcəlalinə imtisalən icrayı farizayı qaza və ihyanı sünnəti Səniyyəyi Rəsuli kibriyaya sərfi ma-hasal miknət olunmaq xüsusları qərar dadə olunduğundan qeyri hələ Quban Xanı Şahbaz Giray Xan *damət mə'alihi* maiyyətində olan külliyətlü Tatarı aduv-şikar ilə kudumu baharı məymə-nət-asarda səfinə ilə Qubana keçib hələ Soğucak Rəhbəri Mustafa Paşa *iclaləhü* ilə bil-ittifaq Quban çayının bərü geçəsində sakit kaffəyi kabail və akvam və sair asakiri səy-irtisam ilə eyadiyi mənhusəyi a`da-yı dindən hıttayı Krımın nəz' və istihlasına və dərununda məcruhü'l-fuad olan ihvanı mömininə şəfa-rəsan olmağa bəzli miknət etmək üzrə tərəfi Padşahanəmdən məmur və təyin qılınmış olmaq mülabəsəsiylə siz ki xanı müşarunileyhsiz. Quban xanı müşarünileyh ma'iyyətləriylə məmaliki düşmənə isalayı süyul hücum və iktiham edərək xidməti cihad və gazaya kıyam və **"Faddallahü'l-mücahidinə alə'l-kaidinə əcrən azimən"** nəzmi cəlili muktəzasınca məhz naili fəzaili cihad olmağa sayı ma-la-kəlam eyləməniz xüsusu ehassı mətalibi davəranəm olduğunu elan və iş'ar siyakında işbu misalı şahanəm ısdar və ... ilə irsal olunmuşdur. İmdi bu xüsus

sair hananı Dağıstan və Azərbaycana başqa başqa emsiləyi Padşahanəmlə tövsiyə olunduğu və sizdən bu xüsusu hayriyyət-mənsus əz-dil u canı hamiyyət-məndanə və rəviyyət-karanə ibrazı asarı mərdi və dilavəriyə himmət-sünuhı məczumu şəhriyarhanəm idüği və bu yanda indiyə qədər iktiza edən təfhimat və təlimat və muktəzi olan hılatı Sadrıazamım müşarünileyh tərəfindən təhrir etdirildiyi məlumu dəkayık-məlzumunuz olduqda daxili əyalət və hövzəyi hökumətinizdə olan hərb u zərb ərbabından külliyətlü cünudu zəfər-məv'ud istishabıyla mütəvəkkilən ala'llahu Təala hərəkət və hananı Dağıstan və Azərbaycandan lazım gələnlər ilə xəbərləşmə və yek-cəhətiyə mübaderət və tariqi münasibdən Kabartaylar tərəflərinə və ondan Quban xanı müşarünileyh maiyyətinə vusul və lühuka müsaraat və xanı müşarünileyh ilə rüsumu ittifaq ü birliyə riayət **"Rabbəna efriğ aleyna sabrən və səbbit akdaməna və'nsurna alə'l-kavmi'l-kafirinə"** tazarrusuyla mukabeləyi a`danı dində səbat ikdam ilə qəhrı kamı müşrikin və əhyam sünnəti Səniyyəyi seyyidi'l-mürsəlin daməni dərmiyanı qayğı edərək məmaliki düşmənə axınlar və a`dayı din və dövlətin təxribi memalik və mevatınlarıyla i`la-yı kəlimətullahi'l-ulya farizasını icraya və dərunu memaliki alada olan din qarındaşlarının giriftar olduqları bəla vü cəfadan rəhayab olmaları barəsində indallah vən-nas məqbul və mərgub olacaq xidməti cəliləyə müvəffəq olmağa və əba və əcdadınız din yolunda səbkat edən hamiyyət və səylərini siz də təyid ilə Dövləti Aliyyəmin daimən və müstəmirrən ni'am və eltafı cəziləsinə məzhəriyyətə səyi ma-la-kəlam etməniz babında misalı alişanım sadır olmuşdur. Buyurdum ki...

Fi evaili Ca. İl [1]202 [Fevral 1788]

Bir surəti Surxay Xanzadə **Məhəmməd Xana** bər-vechi məşruh	*Bir surəti* **Məhəmməd Şamxal Xana** bər-vechi muharrər
Bir surəti Şəki Xanı **Məhəmməd Həsən Xana** bər- vechi muharrər	*Bir surəti* **Usumi Həmzə Xana** bər-vechi muharrər

Bir surəti Conketay hakimi **Əli Sultana** bər-vechi məşruh Rumili bəylərbəyliyi payəsi vardır.	*Bir surəti* Conketay hakimi mumaileyhin qardaşı və Rumili bəylərbəyliyi payəsi olan **Əhməd Xana**
Bir surəti Akuşa Qazısı **Məhəmməd Əfəndiyə** molla əlkabıyla bər-vechi məşruh	*Bir surəti* Ümərа-i Dağıstandan **Zozan Bəyə** bər minval-i muharrər
Bir surəti Rəvan Xanı **Məhəmməd Xana** vechi məşruh üzərə Anadolu bəylərbəyliyi payəsi vardır.	*Bir surəti* Təbriz Xanı **Xudad Xana**
Bir surəti Ərdəbil Xanı Nəzər **Əli Xanzadə Nəsrullah Xana** bər minval-i muharrər	*Bir surəti* Xoy Xanı **Hüseyn Qulu Xana** siyakı məşruh üzərə
Bir surəti Marağa hakimi **Əhməd Xana** siyak-ı muharrər üzərə	*Bir surəti* Rumiyyə Xanı **Məhəmməd Qulu Xan** *damət mə`alihiyə*
Bir surəti Quba Xanı **Fətəli Xana** bər-vechi məşruh üzərə	
Bir surəti Qaracadağ hakimi **Mustafa Qulu Xana** təşrifat və ataya göndərildiyindən bəhs olunmayıb fəqət tərəfi Dövləti Aliyyəyə xülus və sədaqətini şamil ərizəsi varid olduğu və hananı Dağıstan və Azərbaycana əsildə mündəric əmsilə ısdar və irsal olunduğu bəyan olunaraq Krım tərəfinə məmuriyyəti üçün.	
Bir surəti Ümərа-yı Dağıstandan **Rüstəm Bəy** *damə izzuhu* həmçinin təşrifat və ataya tay olunub sair hananın mütəahhid olduqları vechiylə mütərakkıbı ima və əşarət idüğü gələn ərizəsində muharrər olmaqla vechi məşruh üzərə məmuriyyəti üçün	

Bir surəti

Hələ də Kuban Xanı **Şahbaz Giray Xan** *damət me`alihi*yə i`lam-ı hal siyakında hananı Dağıstan və Azərbaycan ilə rüsum-ı ittifaq ü ittihada riayət edərək mukaddəm və mu`ahhar əvamiri şərifə ilə məmur olduqları üzərə cihad və qaza farızasını icraya kıyam eyləmələri üçün hananın təhriratları və surəti məmuriyyətləri bər-vechi ixtisar dərc olunaraq iktizasına görə.

A. DVNS.NMH. d, 9_229

61
ŞUŞA VƏ QARABAĞ XANININ KUBAN TƏRƏFİNDƏKİ RUSLARIN ÜZƏRİNƏ GÖNDƏRİLMƏSİ

Çıldır və Ərzurum valilərindən sonra Bəyazid mutasarrıfından gələn yazıda da Şuşa və Qarabağ xanı ilə Avar və Dərbənd xanları arasındakı əlaqənin müsbət olduğunun təsdiq edildiyi; Valinin narahatlığı səbəbilə Çıldır vilayəti Səraskərliği ünvanının Ərzurum valisinə həvalə edilməsinin uyğun olacağı; Ümmi xanın Tiflis üzərinə Dərbənd, Şuşa və Qarabağ xanlarının isə Kuban tərəfindən Moskov üzərinə göndərilməsi barədə Sədrəzəm tərəfindən lazımi tədbirlərin görülməsini əmr edən xətti humayun.

[1788]

***

Mənim vəzirim işbu hər bir təlxisin mucibincə tənzimləri möhtac olan maddələrin tənzimləri dərhal görməyin iktiza edən maddələrin ərzi tələsik olan maddələrin tənzimləri sənə həvalə olunmuşdur. Cənabı Müsəhhilü'l-umur kaffə umurunda tevfiqə məzhər eyliyə. Amin.

Bu gün yeniçəri, fərdası cəbəci və topçu orduları qalxmaq üzrə dərhal ihtimam eyləyəsin

Şövkətli, kəramətli, məhabətli, qüdrətli vəli-ne 'mətim əfəndim Padişahım;

Avar hakimi Ümmi Xan və Şuşa və Qarabağ Xanı və Dərbənd hakimi miyanələrində safvət hususlünü müş'ir Çıldır valisi tərəfindən varid olan təhrirat məruzu atabəyi ulyaları qılındığını müş'ir süddəyi Səniyyələrinə təqdim olunan takrirı çakəri ba`lasına Çıldır valisinun bu dəfə təhriratı və müqəddəmə Ərzurum

valisinun təhriri başqa olduğunu havi xətti humayunu inayətmakrunları şərəf-rizi sudur olub məfhumu məlumu acizanəm olmuşdur. Hananı mumaileyhimin beynlərində hüsnü ülfət husulü bundan akdəmcə Bəyazid Mutasarrıfı İshak Paşa qulları tərəfindən də xəbər olunduğuna görə Çıldır valisinun bu dəfə vürud edən təhriratı İshak Paşa xəbərini müəyyəd olub qaldı ki Ərzurum valisindan çənd ruz akdəm varid olub hüzur tərcüməyi-məvfuru cahan-darlarına ərz olunan kağızda Çıldır valisinin təhriratına mugayir maddə olmayıb mücərrəd müşarünileyhin fütur və illəti mizacı hasəbiylə umuru məmurluğu idarədə qüsuru olacağını müş'ir olmaqla Çıldır səraskərliği də Ərzurum valisinə ihalə və Süleyman Paşadan səraskərlik də lafzan ilga olunmayıb qaribən təhriratı vürudu məsmu' olduğuna görə varid olacaq təhriratına cavab yazıldıkda "sənin illəti mizacın hasəbiylə əmri məzkuru idarədə füturun zühur etməmək və xəstəliyinin təzayüdünü mucib olmamaq üçün səraskərlik əğərçi Ərzurum valisinə ihalə olunmuşdur. Ancaq Çıldır əyaləti və həvalisinin mühafizəsi və hananı Azərbaycan və Dağıstanın kəma-yenbağı təlif və istimaləsi və iktiza edən muavenət və müzahirətdə qayğı etməsi" dərc olunaraq təhrir olunmaq xüsusu çənd ruz akdəmcə takrirı çakəri ilə haqqı payı hümayunlarına ərz olunmuş idi. Çıldır valisinun vürudu muntazır olan təhriratı işbu təhrirat olmaqla bərvech-i məşruh cavab yazılacağı və mumaileyh Ümmi Xanın Tiflis üzərinə taslıti babında fərmanı ali irsal olunmuş olub digərləri Kuban tərəfindən Moskov üzrə məmur olmaqla iktizasını ba'də'l-mülahaza rikabı şahanələrinə alət-təfsil ərz olunacağı məlumu aliləri buyurulduqda əmri fərman şövkətli kəramətli məhabətli qüdrətli vəli-nemətim əfəndim həzrətlərinindir.

Tamamı təsviddir. Əl-yəvm Bazar göndərərəm və təsvidi tərif edərəm.

Donanma üçün baş məmur paşa qullarına xitabən iktiza edən xətti hümayunları təsvidi matlubu humayun buyurulduğuna görə qələmə alınıb təqdim olunmaqla ol vecihləmi yoxsa ahar surətləmi nə vecihlə iradə buyurular isə suduru məvkufu rəyi sami idiği məlumu aliləri buyurulduqda fərman mən ləhü'l-əmr həzrətlərinindir.

[1202]/ [1787/1788]

XƏTT, 24/1182

62

AZƏRBAYCAN XANLARININ DAHA ƏVVƏL ŞİKAYƏT ETMİŞ OLDUQLARI ÇILDIR VALİSİ SÜLEYMAN PAŞANIN TİFLİS XANINA MEYL ETMƏSİ

Çıldır valisi Süleyman Paşanın Tiflis xanı İrakli xana meyl etməsilə bağlı şikayət edən Şuşa və Qarabağ xanı ilə Conketay hakimlərinin yazıları üzərinə haqqında daha əvvəl də şikayət olan və vəzifədən uzaqlaşdırılmaması üçün müxtəlif xəyanətə müraciət etdiyi ifadə edilən Süleyman Paşanın yerinə Sədrəzəmin fikri də alınaraq başqa bir valinin təyin edilməsinə dair xətti humayun.

[1789]

***

Şövkətli, kəramətli, məhabətli, qüdrətli, vəli-nemətim əfəndim Padşahım

Bu dəfə Şuşa və Qarabağ Xanı İbrahim Xəlil Xan, Conketay hakimləri Hacı Əhməd Xan və Əli Sultan Xan tərəflərindən təhriratları vürud etməklə xülasə etdirib xülasəsilə ma'an məruzu atabə-i ulyaları qılınmışdır. Məfhum və məzayaları hələ də Çıldır Valisi Süleyman Paşanın Tiflis Xanı İrakli Xan ilə müsalahaya rəğbətindən şikayət olub ancaq bundan akdəm bir dəfə də bu xüsusa dair təhrirat vürud etdiyi və təshihi xüsusu bəhər-hal hələ də Bəyazid Mutasarrıfı İshak Paşadan zəbtimə möhtac olmaqla həqiqəti üzrə səri'an bu tərəfə təhrir ü bəyan etməsi babında müşarünileyhə təhrirat göndərildiği məlumu humayunlarıdır. Lakin əl-haləti hazihi xəbəri zühur etməyib və indi təkrar hananı mumaileyhimdən bu vəchilə təhriratı məzkurə varid olmaqla ba'də'n-nazar təhriratı mərkumənin sadrıazam qullarına irsali və xəbəri vüruduna qədər təhriratı məzkurəyi gətirən Mirzə Məhəmməd Əfəndinin bu tərəfdən i`adə və Ərzurumda tevkifi müvafiqi rəyi sami-i mülukanələri isə əmr ü fərman şövkətli, kəramətli, məhabətli qüdrətli vəli nemətim əfəndim Padşahım həzrətlərinindir.

Qaim-i mövqe paşa

Süleyman Paşanın tabiyyəti halı məlum bir haldır ki azl olmasın deyə həmən cürbəcür xəyanəti zahir, Bəyazid Mutasarrıfı İshak Paşanın təhririnə baxmayıb işbu gələn təhriratları sadrıazama irsal, bi-əyyi hal Süleyman Paşa azlı, yerinə İshak Paşa yaxud Vanda olan Teymur Paşaya ya Trabzon Valisi Abdullah Paşaya ya Tayfur Paşaya icalətən lakin zənnim Tayfur da bilməm necə olar istəsəniz bir cür bir xətti humayun belə yazaram. Bi-eyyi hal Süleyman Paşanın təbdili xüsusu həmən nizam verilmək kəsbi iktiza etmiş xəbəri matlubu humayunumdur. Gecikdirməyəsin.

[1788/1789]

XƏTT, 1383/54684

63

ŞUŞA VƏ QARABAĞ XANI İBRAHİMXƏLİL XANIN HƏRBİ KÖMƏK GÖNDƏRİLMƏDİYİ TƏQDİRDƏ BƏZİ XANLARIN RUSLARA TABE OLACAQLARINI BİLDİRDİYİ

Gəncə bəylərbəyinin Ərzurum valisi vasitəsilə İstanbula göndərdiyi ərizədə Şuşa və Qarabağ xanı İbrahimxəlil xanın, əgər hərbi kömək göndərilməzsə idarəsi altındakı bəzi xanların Moskvaya tabe olaraq sülh bağlamaq məcburiyyətində qalınacağından şikayətlənməsi üzərinə; Trabzon, Canik, Amasiya və sair yerlər ilə Dağıstandakı xan, qazı və bəylərin qüvvələrinin Anapa və Soğucak Səraskəri vəzir Battal Hüseyn Paşa sərancamında olan çoxlu əsgər ilə rusların narahat ediləcəyi Kuban tərəfində toplanacağından, düşmənə hücum əsnasında özünün də orduya qatılaraq kömək olması haqqında hökm.

[Aprel 1790]

***

Şuşa və Qarabağ Xanı İbrahim Xəlil Xan damət məalihiyə hökm ki,

Siz ki, xanı hamiyyət-nişan-ı mumaileyhsiz. Bu əsnada tərəfinizdən hələ də Ərzurum Valisi vəzirim Abdullah Paşa *iclalehuya* irsal olunan təhriratınıza mashubən rikabı qəmər-tabı Mülukanəmizə təsis qılınan ma'ruzatınızda səfəri humayunum zühurundan bərü bilcümlə Dağıstan əsgəriylə gərək Tiflis xanı və gərək Moskovlu tərəfinə isalı ziyan və ziyan etməyin tərəfinizdən heç cür qüsur olunmayıb ancaq ibtidayi səfərdən bərü tərəfi Dövləti Aliyyəmdən ol tərəflərə əsgər irsaliylə i'anət və

müzahərət olunmadığından ziri hökumətinizdə olan bəzi hanan Moskofa təbaiyət etmələriylə bu ili mübarəkədə də Dövləti Aliyyəm tərəfindən asakir ilə öznüzə ianət və imdad olunmaz isə biz-zarur Moskovlu ilə müsalahaya məcbur olacağınız təhrir və inha olunmuş olmaqla məfhumu ma'ruzatımz karı-ni ıttılayı şahanəm olmuşdur.

Moskovlu kəfərəsinin çoxluğuyla gocunacağı yer Kuban tərəfləri olub ba-avn və inayəti Bar-ı ol tərəfdən düşmən məmləkətlərinə hücum olunduqda qatı çox fütuhatı cəlilə zühura gələcəyi məczum olmaq hasəbiylə bu ili mübarəkədə Trabzon və Canik və Qarahisarı Şərqi və Amasiya tərəflərindən və sair yerlərdən Anapa və Soğucak və sairü'l-həvali səraskəri vəzirim Battal əl-Həcc Hüseyn Paşa *iclalehu* maiyyətinə külliyətlü asakir tərtib və ədavatı hərbiyə və zəhayiri kəsrə tənzim olunmaqla bi-mənnihi Təala qaribən səraskəri müşarünileyh Anapadan hərəkət və tədarükatı hərbiyə və məcmu' kabail xalqıyla Kabartaylar tərəfinə azimət və onları da istishab birlə mütəvəkkilən aləllahil Mu`in ol tərəflərdə olan edə' və məmaliki adayı zəbt və təshir və adüvvü dini qəhri tədmir edərək Qızlarqalasına çatmaq üzrə tərəfi Dövləti Aliyyəmdən bil-istiqlal məmur və təyin qılınıb orduyu müşarünileyhə içdimə edəcək asakiri müvahhidinin mə'kulat və təyinatları idarəsi üçün Dərsəadətimdən mahsusan mühasib və ordu nazırı da təyin və təsyir olunmuş olmaqdan naşi bi-avnihi Təala səraskəri müşarünileyhə qaribən bilcümlə Rum əsgəri və məcmuyu Çərakisə və Abaza və Nogay qəbilələri xalqı və küllıyətlü top və sursat və ədavatı hərbiyə ilə əvvəl-baharda Anapadan qalxıb Kabartaylar içindən Qızlarqalası üzərinə təvəccöh və azimət etməkdə hananı hamiyyət-nişan-ı Dağıstandan hələ Avar və Kunzak Xanı Ümmi Xan və Targu Xanı Şamxal Xan və Conketay Hakimi Əhməd Xan və Əli Sultan və Usumi Xan və Qazi Kumuk Xan *damət məalihim* və Akuşa qazısı *zidət fədailuhu* və Anderay bəyləri və ələ'l-xüsus kutbü'l-arifin həzrəti

Abdülqadir Geylani *küddisə sirruhu'l-azizin* sülaləyi tahirəsindən və fühulu üləmayi amilindən olub hasbətən lilləhi Təala küffar ilə cihad və gazaya sənəd tələbində olan hələ də Dağıstanda mukim bərabər Şeyx Məmməd Rıza bin Osman *zidə fazluhu* da asakiri şücaət-məasiri Dağıstani istishab və siz asakiri müşarünileyh ilə müharibə və mükatəbə edərək bil-ittifaq hərəkət və ətrafı Dağıstanda vaqe' olan salifü'z-zikr Qızlarqalasına təvəccöh və azimət etmələri xüsusu evamiri şərifəmlə hər birinə bundan akdəm tənbeh olunmuş olmaqla siz ki, xanı qeyrətnişanı mumaileyhsiz, sizin əvvəldən Dövləti Aliyyəmə sədaqəti hulus-ı taviyyətiniz məlum və uğuru Səltənəti Səniyyəmdə can ü baş ilə xidmət edəcəyiniz bədihi və məczum olub zatınızda mərkuz olan salabəti diniyə və hamiyyəti cibilliyə muktəzasınca xanı Dağıstan və səraskəri müşarünileyh ilə xəbərləşmə siz də ol tərəfdən məmaliki düşmənə hücum ilə ləvazimatı hamiyyət və səyi icraya ikdam və diqqət və sizdən məmulu şahanəm olan sədaqət və istiqaməti ibraz və izhara müsaraat etməniz üçün xassətən rikabı humayunumdan işbu misalı vacibül-imdisəlim ısdar və ... ilə tərəfinizə irsal olunmuşdur.

İmdi siz ki, xanı bəsalət-nişan-ı mumaileyhsiz, ba`lada bəyan olunduğu vəchilə Kuban tərəfinə xeyli takviyət verildiyi və səraskəri müşarünileyh ilə hananı Dağıstan ol həvalidən cəmi' kabail ilə bil-ittifaq memaliki düşmənə hücuma mütəhəyyi etdikləri məlumunuz olduqda bər-vech-i muharrər siz də ol tərəfdə münasib olan yerdən ziri hükümətinizdə olan asakiri səy-mə'asiri maiyyətinizə istishab və səraskəri müşarünileyh ilə və sair münasib olanlar ilə mükatəbə və xəbərləşmə levazımına riayət və mərasimi ittifaq və yek-cəhətiyə mübaderət edərək məmaliki a`daya hücum və iktiham və gərəyi kimi ahzı sar və intiqam əsbabını istihsalə daməni dərmiyanı səy və səbti sahabəti asar olacaq xidməti mərgubə ibrazına kamalı qayğı və diqqət və lazimü'l-inha əhvalı səraskər-i müşarünileyh tərəfinə və aralıq aralıq Dəraliyyəmə təhrir və iş'ara müsaraat etməniz babında misali şahanəm sadır olmuşdur.

Fi əvail-i Ş. il [1]204

Bir surəti

Soğucak və Anapa və sairü'l-havali səraskəri müşarünileyh Battal Paşaya, xanı mumaileyhdən bu dəfə əslən mündəric əmri şərif sadır olduğu hekayə olunaraq xanı müşarünileyh ilə mərasimi xəbərləşmə və mükatəbəyə riayət və hututu humayun ilə

mu'anvən müqəddəm və mu'ahhar sadır olan evamiri şərifə ilə məmur olduğu əmri əhəmmi din və Dövləti Aliyyənin bər-tıbk-ı mə'mul tədiyyə və təmşiyətlə ikdam və səy və səri mu qüsur və rəhavət hadisəsindən təhaşi və mücanəbət etməsi dərciylə iktizasına görə...

[Aprel 1790]

A. DVN. MHM. d, 192/301-302

64
AGA MƏHƏMMƏD XANIN ÜSYAN EDƏRƏK AZƏRBAYCAN TORPAQLARI ÜZƏRİNƏ HÜCUM ETMƏYƏ HAZIRLANMASI

Qızılbaş Ağa Məhəmməd xanın üsyan edərək İraq və İran torpaqlarını ələ keçirdiyi, indi isə Azərbaycan torpaqları üzərinə hücum etməyə hazırlandığı, bu torpaqlar üzərindəki müsəlmanların böyük zülm altmda olduqlarından qarşı durabilmək üçün Osmanlı dövlətinin kömək və qoruyuculuğuna ehtiyacı olduğuna dair Qarabağ xanı İbrahim xanın məktubu.

[1795]

***

Urz-ı daştı bəndəyi muhlis-i qədimi İbrahim Xəlil,

Şövkətli əfəndimizin hallədəllahu mülkəhu payəyi xilafətmasirində təvakkuf edən ərbabı ubudiyətinin türabı müqəddəmlərinə ərzi hal edər ki

Dövləti Aliyyəyi aliyə zıllu'llahi fi'l-arz və məlazı küllü'l-ənam və məlcə-i havass u avam oldugu üçün mən bəndəyi muhtass u çakəri muhlis **"əti'ullah və əti'urrasulə və uli'l-əmri minküm"** əl'ayətü irşadı ilə hablü'l-mətin-i inkıyadə müqəyyəd olub şol bar-gahı aləm-pənahının caddei itaatində maddəyi süluku ubudiyət üz göstərib iyirmi bir il və bəlkə ziyadədir ki əhaliyi diyarı Rum cəridəsində şərəf-intizam tapıb mərhum məğrur rıdvanməkan Sultan Hamidin əyyamı həyatında həmişə məndən dövlətə ariza və ondan mənə fərman və məndən ona itaət və ondan mənə i'anət zühur edərdi. Ondan sonra ki şövkətli əfəndimiz səriri səltənətdə talatı tacı cahan-əfruzu xurşidi aləm-ara kimi ziya-

bəxşi beynəssəmə vəl-ərz oldu. Qayda sabıka üzrə araizi ixlas tərcümələrimiz asitanı məlayiki aşiyana mərsul olub masdarı ma'delətdən fərmanlar sudur edib şərəfi ziyarəti ilə kamalı fahr u mübahat hasil edib də ruzu qiyamət əmr ü nəhyinə muntazır olmağımız həzrəti aləmü'l-gayb və'ş-şəhadətə zahirdir ki imtisalində zərrə miqdarı tahallüfümüz olmaya.

Xülasatü'l-kəlam, Dövləti Aliyyəyi aliyənin xidmət-güzar bəndələriyik. Xassətən və hələ fərzi ayn və aynı fərzdir ki bu tərəflərdə vaqe' olan hadisələri ərz edəlim. Keyfiyəti əhval bu minval üzrədir ki Qızılbaşdan Aga Məhəmməd Xan xüruc edib İran mülkündə vaqe' olan İraqı məmləkəteyn və Fars diyarların taxtı qənaətə gətirib indi iradəsi budur ki Azərbaycan diyarına əzm olub rud-xanə-i Arasdan ubur edib əvvəla mənim üzərimdə və saniyən İrəvan Xanı Məhəmməd Xan üzrə və salisən Gürcüstan üzrə və ala-hazə't-tərtib məqsədi mənzurun qüvvədən filə gətirə. Bundan geri əmr şövkətli əfəndimizindir. Xahişimiz budur ki bizə hifz u hırasətləri və avn u inayətləri məri ola ki inşaallahı Təala Dövləti Aliyyəyi aliyənin qüvvəti ikballəri ilə ərbabı inadının və əshabı sefk və fəsadının maddəsin münfəcir etmək alatariki's-sür'at səhl ü asandır və də ərzi sani budur ki, aya İran xalqı nə cürm və nə günah etmiş ki şahənşahı əzəm maliki rikabü'l-üməm sultanü'l-bərreyn vəl-bahreyn hafizü'l-Harəməynü'ş-Şərifeyn kayimi mövqe-i Rəsulü's-sakaleyn olan şövkətli əfəndimiz eltaf və eşfakin ərzanı etməyib sayəyi səadət-pirayəsin İran torpağmın üzərindən za'il idübdir ki dövranm hər bir gərdişində Habilə bir səffak və fəsad xüruc edib fəxri kainat əfəndimizin ümmətlərin qətl ü qarət edib məhv' və muzmahill etməkdə bax eyləmə[mi]z vacib idi, ərz olundu və bu ərizəyi haqq-payı tutiya-asa-yı mütəvakkıfan payə-sərəri xilafət-masirə isal etmək üçün alişanı necabət və siyadət-ərkan Abdullah Çələbi mərsul olundu. Cəmi-i əhval və ahbar şol hərifin zərfi əvəzliyinə təslim olunmuş ki hər-gah istinba olunsa ərz edər. Baki, əmrə muta-ım.

[1794/1795]

XƏTT, 162/6748_C

65

RƏVAN İLƏ ŞUŞA VƏ QARABAĞ XANLARININ AGA MƏHƏMMƏDƏ QARŞI ÖZLƏRİNƏ PADŞAH TƏRƏFİNDƏN BƏRAT VERİLMƏSİNİ TƏLƏB ETDİKLƏRİ

Rəvan xanı Məhəmməd xan ilə Şuşa və Qarabağ xanı İbrahimxəlil xanın İranda hakimiyyət quran Aga Məhəmməd xana qarşı dəstək olunması məqsədilə özlərinə bəraət verilməsi tələblərinin Padşah tərəfindən uyğun hesab edildiyinə dair xətti sultan.

[1795]

***

Manzurum olmuşdur. İktiza edən bərat irsal olunsun.

Şövkətli, kəramətli, məhabətli qüdrətli vəli-nemətim əfəndim Padişahım,

Bu əsnada Rəvan Xanı Məhəmməd Xan tərəfindən ma'ruzatıyla təvarüd edən Eşikağası Hacı Zeynəl Ağanın xanı mumaileyh tərəfindən rikabı şahanələrinə olan ərizə və tərəfi çakəriyə olaraq Farisiyü'l-ibarə arzuhali maddə-be-maddə tərcümə etdirilib muktəzası ba`lalarına sürhlə işarə olunduğundan başqa gərək mumaileyh eşikağası və gərək Şuşa və Qarabağ Xanı İbrahimxəlil xanın ərizəsiylə gələn Seyid Abdullah Çələbinin takrirləri qələmə alınmaqla tərcümələrində hananı mumaileyhimə Dövləti Aliyyələrinin bəndəsi olub müqəddəmə özlərinə bərat və mənşur lütfkarlıq buyurulduğundan bəhslə məmləkəti İranda tagallüb edən Aga Məhəmməd Xandan şikayət və özlərinə i'anət buyurulması xahişindən ibarət idiği və Ərzurum Valisi Vəzir Yusif Ziya Paşa qulları tərəfindən bu dəfə varid olan Salam Ağası Məmiş Ağa qullarından da mumaileyh Aga Məhəmməd Xanın hal və keyfiyyəti sual və istintak olunduqda vəziri müşarünileyh qullarının təshihinə görə etdiyi takriri də digər bir kağıza zəbt ü təhrir və cümləsi haqq-payı mülukanələrinə ərz u təqdim olunduğu və sənədi məzkurə lədəl-mütəla təfsili karını elmi aləm-ara-yı cahandariləri buyurulacağı məlumu humayunları buyurulduqda xüdavəndigarı sabiq vaxtında verilən bəratın təcdidiylə xanı mumaileyhin tatyibi müvafiqi rəyi rəzini şahanələri buyurular

isə fərman şövkətli, kəramətli, məhabətli, qüdrətli vəliyyü'nne'mətim əfəndim Padşahım həzrətlərinindir.

[1794/1795]

XƏTT, 227/12634

66

ÇILDIR VALİSİ SABİT PAŞANIN AZƏRBAYCANDAKI ÜMUMİ VƏZİYYƏTƏ AİD ƏLDƏ ETDİYİ MƏLUMATLAR

Şuşa və Qarabağ xanı İbrahimxəlil xanın qızı İranda şahlıq iddiasında olan Aga Məhəmməd xanın qardaşının oğlu olan Baba xan sərdarına verməyə hazırlandığı; Özünün də toy hədiyyəsini aparmaq üzrə oğlunu göndərdiyi; Həmçinin Tiflis xanı İrakli xanın uzun zamandır xəstə olduğundan oğlu Georgini xan olaraq seçməsi üzərinə digər oğlanlarının buna qarşı çıxıb Çıldır valisinə müraciət edərək, onlara yardım edildiyi təqdirdə Tiflisə heç bir rusu buraxmayacaqlarına söz verdikləri; Ancaq İrakli xanın vəfatından sonra xanlıq davasına düşərək Osmanlı dövlətinə sığınsalar veriləcək cavabın nə olacağının Padşahın iradəsinə bağlı olduğuna dair Sadarət ərz təzkirəsi üzərinə yazılan xətti humayun.

[9 fevral 1798]

***

Çıldır Valisi Sabit Paşa qullarının kaiməsidir.

Dövlətli, inayətli, mürüvvətli, mərhəmətli, atufətlü vəliyyü'nni'am kəsəril-lütf vəl-kərəm əfəndim sultanım həzrətləri,

Bundan akdəm isticlabı həvadisi zımnında Azərbaycan həvalisinə bas və irsal olunan adamımız qulları vürud edib həvadisi zəmini İrana dair bu əsnada ərz və inhaya layiq həvadis olmayıb lakin Şuşa və Qarabağ Xanı İbrahim Xan kəriməsini hələ Tehranda şahlıq iddiasıyla iqamət üzrə olan Aga Məhəmməd Xanın qardaş-zadəsi Ata Xan sərdarına verdiyini və xanı mumaileyh də qəbul edib əyyamı novruzda Sultanıya adlı məhəllə vürud və vəliməyə mübaşirət edəcəklərini və İbrahim Xan da hədaya ilə oğlunu Ata Xan sərdarına irsal etdiyini xəbər verdiyindən maada Tiflis Xanı İrakli Xan müddəti vafirədən bərü Kahəti adlı yerdə xəstə və sahib-firaş olub həyatından mə'yus olduğundan oğulla-

rından Görgi adında kəbir oğlunu Tiflisə xan nasb etdiyinə digər oğulları atalarının bu tədbirinə razı olmadıqlarından miyanələrindən şuriş və qiyam peyda və kıyl ü qaidən halı olmadıqlarından naşi əyaləti bəndəgiyə kurb u ətraf olduqları hasəbiylə Dövləti Aliyyəyi daimü'l-qərara ərzi ubudiyət və sıtk u istiqamət surətləri runuma olaraq fima-ba'd Rusiyalıdan fərdi vahidini Tiflis və həvalisinə duhul etdirməmək halətlərini təəhhüd və niyaz etmələriylə bu hilaldə xanı mərsum rəsidəyi dərəkə-i bə'isü'l-masir olub oğulları xanlıq iddiasıyla bir-birlərıylə mu'araza və münazaaya dərgar olacaqları bədidar olmaqla Dövləti Aliyyəyi əbədiyyü'l-qərara iltica və tərəfi qullarından istimdad üçün xanı mərsumun oğullarından biri tərəfi qullarına vürud etdiyi halda təəhhüd və niyazlarına mələlün ahar olduğumuzdan bu qullarına etimadı qavi hasil olmadığından və tərəfi bəndələrindən nə vəchilə cavab verilməsi istehsan və istisvab və iradəyi Səniyyəyi vəliyyü'n-ni'amiləri nə günə taalluk buyurular isə bu çakəri dirinələrinə əmr ü fərman buyurulmaq niyazıyla tasdı-a ictira olundu. Ol babda və hər halda əmr ü fərman və lütf u ehsan dövlətli, inayətli, mürüvvətli, mərhəmətli, atufətlü vəliyyü'n-ni'am kəsəril-lütf vəl-kərəm əfəndim sultanım həzrətlərinindir.

Fi 22 Şum [1]212

Möhür
Sabit

Çıldır Valisi Sabit Paşa qullarının kaiməsidir.

Səadətli, mürüvvətli, məkrəmətli, rə 'fətlü, qarındaşı ə 'azz ü əkrəmim, sultanım ağanı cəlilü'ş-şan həzrətləri

Həmarəzibi qaşanəyi səadət idi ikbal və məzhəri tevfikatı həzrəti Cənabı Mütəal olmaları dəa'vatı be-xülusi'l-bal əda və ikmal qılındığı siyakında nümudəyi muhlisi saf-nihadlarıdır ki zat-ı mürüvvət-simatlarıyla miyanəmizdə mərbut və müşəyyəd olan riştəyi ixlası sədaqəti taviyyət-ixtisasım laziməsi tabı səadətlərini təfakkud və isdiksaya vəsilə-cuyan ikən bundan akdəm isticlabı həvadis zımnında Azərbaycan həvalisinə bas u irsal olunan adamımız qulları vürud edib həvadisi zəmin-i İrana dair bu əsnada təhrir və inhaya layiq həvadis olmayıb lakin Şuşa və

Qarabağ Xanı İbrahim Xan kəriməsini hələ Tehran adlı yerdə şahlıq iddiasında olan Aga Məhəmməd Xanın qardaş-zadəsi Ata Xan sərdarına verdiyini və xanı mumaileyh də qəbul edib əyyamı novruzda Sultanıya adlı məhəllə vürud və vəliməyə mübaşirət edəcəklərini və İbrahim Xan da hədaya ilə oğlunu Ata Xan sərdarına irsal etdiyini xəbər verdiyindən maada Tiflis Xam İrakli Xan müddəti vafirədən bərü Kahəti adlı yerdə xəstə və sahib-fıraş olub həyatından mə'yus olduğundan oğullarmdan Görgi adında kəbir oğlunu Tiflisə xan nasb etdiyindən digər oğulları atalarının bu tədbirinə razı olmadıqlarından miyanələrində şuriş və qiyam peyda və qıyl ü qaidən halı olmadıqlarından naşi əyaləti muhlisiyə kurb u ətraf olduqları hasəbiylə Dövləti Aliyyəyi daimü'l-qərara ərzi ubudiyət və sədaqəti istiqamət surətləri runuma olaraq və fima-ba'd Rusiyalıdan fərdi vahid Tiflis və həvalisinə duhul etdirməmək halətlərini təəhhüd və niyaz etmələriylə bu hilalda xanı mərsumu sarsarı badı əcəl, həyatı çirk-aludunu rəsidəyi dərəkəyi be'isü'l-masir etməklə oğulları xanlıq iddiasıyla bir-birlərıylə mu'araza və münazaaya dərgar olacaqları bədidar olmaqla Dövləti Aliyyəyi əbədiyyü'l-qərara iltica və xilaskarlarına istimdad üçün oğullarından biri nəzdi muhlisiyə vürud etdiyi halda təəhhüd və niyazlarına mələlün ahar olduğundan və tərəfi ihlaskarlarına etimadı güclü hasil olmadığından iktiza edən cavabı irade-i Dövləti Aliyyəyə mənut və möhtac olduğundan keyfıyəti məzburə bir qitə ərzi halı ubeydanəmiz ilə haqq-payı həzrəti vəliyyü'n-ni'amiyə arzu təqdim olunmaqla cənabı valayı kərimanələrinə də qaiməyi xülus-nüma-i təhrir və fıristadəyi nadi-i mürüvvət-masirləri qılınmışdır. İnşaallahı Təala ləda-şərəfi'l-vusul məlumu mürüvvət-məczumları buyurulduqda xüsusu məzburda nə vəchilə iradəyi Dövləti Aliyyə ta'alluk edər isə tərəfi xülus-verilərinə iş'ar və cənabı mürüvvətlərindən məlufu himəmi səniyyələri olduğuma görə hadisə-yaftəyi mültəmisatı halisanəmizin is'afu rəvasında himməti kərimanələri kəmakan dərgar və bi-diriğ buyurulmaq məmulu halisanəmizdir.

21 Şum [1]212

***

Manzurum olmuşdur.

Şövkətli, kəramətli, məhabətli, qüdrətli vəliyyü'n-ne'mətim əfəndim Padşahım

Hələ də Çıldır Valisi Məmməd Sabit Paşa qullarının bu dəfə varid olan təhriratında Şuşa və Qarabağ Xanı İbrahim Xan kəriməsini hələ Tehranda şahlıq iddiasında olan Aga Məhəmməd Xan qardaş-zadəsi Ata Xan sərdara verib ol dahi qəbul etməklə novruzda vəliməyə mübaşirət edəcəkləri xəbər olunduğu və Tiflis Xanı İrakli Xan müddəti vafirədən bərü Kahəti adlı yerdə xəstə və həyatından mə'yus olduğuna görə Görgi adlı kəbir oğulunu Tiflisə xan nasb etmək hasəbiylə digər oğulları razı olmayaraq miyanələrində qıyl ü qal təhaddüs etdiyindən Dövləti Aliyyəyə ərzi ubudiyət və sədaqət ilə fima-ba'd Rusiyalıdan fərd Tiflis və həvalisinə duhul etdirməmək üzrə müşarünileyhə civariyət təqribiylə təəhhüd etmələriylə bundan sonra xanı mərsumun hələkıyla oğulları xanlıq mu'arazasına düşüb tərəfi Dövləti Aliyyəyə iltica və müşarunileyhdən istimdad ilə içlərindən biri müşarünileyh tərəfinə vürud etdiyi halda iktiza edən cavabı iradəyi səniyyəyə mütəvakkıf mevaddan idüğü muharrər və mastur olmaqla manzuru humayunları buyurulmaq üçün təhriratı mərkumə rikabı mu`alla-elkabı cahan-darılarına arz u təqdim olunduğu və İraklinın oğullarının bər-vech-i muharrər iltica və istimdadları maddəsi mütaliə aparar mevaddan olmaqla xüsusu mərkum mülahizə və müzakirə birlə nə vəchilə iktiza edər isə yenə haqq-payı mülukanələrinə ərz və müşarünileyhə də ba'dehu cavabı təhrir olunacağı muhatı elmi aliləri buyurulduqda fərman şövkətli, kəramətli, məhabətli, qüdrətli vəliyyü'n-ne'mətim əfəndim Padişahım həzrətlərinindir.

22 Şum [11212 [9 fevral 1798]

XƏTT, 35/1743, 1760_A, 1760

67
OSMANLI DÖVLƏTİ İLƏ İRAN ARASINDA BAĞLANMIŞ SÜLHÜN DAVAMLI OLMASININ İSTƏNMƏSİ

Osmanlı dövləti ilə İran arasında bağlanmış olan sülhün davamlı olması istəndiyindən Təbrizdə olan İran şahzadəsi Abbas

Mirzəyə, Şaha çatdırması üçün məktublar verildiyi; Şahın cavab məktublarıyla birlikdə Şuşa və Gəncə xam ilə digər Azərbaycan xanlarının məktublarının Rikab Baş məmurluğuna göndərildiyi; Şahzadə Abbas Mirzənin maiyətindəki əsgərlərlə birlikdə Makü üzərindən hərəkət edərək Cəfər Qulu xanı mühasirə etdikləri; Şahzadə Abbasın Rəvan üzərinə gedərək xalqın Qars tərəfinə mühacirətinə səbəp olduğu; Rəvanı zəbt etdikdən sonra da Gürcüstan üzərinə hərəkət edərək Tiflis xanının qardaşına İslamı qəbul etməsi şərtiylə Gürcüstan idarəsini təhvil verəcəyi barədə Çıldır valisi Sabit Paşanın Sadarətə yazdığı təhrirat.

[23 iyul 1800]

***

Səadətli, dövlətli, mürüvvətli, atufətlü, rəf'ətlü, davəri valaşanım sultanım, ağanı cəlilü'ş-şan həzrətləri;

Tərəfi İranda sərzədəyi sahəyi zühur olan keyfiyyət bundan çənd ruz müqəddəm haqq-payı baş məmuru ali-mövqe-i rikabı humayuna və cənabı mürüvvət-nisablarına tatarımız qullarıyla ərz olunduğu üzrə yenə keyfiyyət tərəfi məzkurə fi-asl u əsasıyla istiknah və təcəssüs daiyəsiylə Birun ağavatımızdan əmini şairimiz bəndələri Qarabağ və Təbriz tərəfinə irsal və Dövləti Aliyyəyi da'imü'l-qərar ilə Dövləti İran beynində mün'akid olan əsası sülhü salahın əsbabı rəsanəti alə'd-davam matlubu kati-i şahanə idüğündən bəhsilə Təbrizə vürud edən şahzadə Abbas Mirzə və Süleyman sərdarına səfa-amədiyi civariyəti havi və əvanı məzkurədə tərəfi ordunu humayundan şərəf-arayı vürud olan bəşarəti fəthi Misiri Qahirəni mutazammın əmri cəlilü'ş-şanın təbşirini muhtəvi məkatibi dostanəyi halisanəmiz təsyir olunmuş idi. Mərkum bəndələri Abbas Mirzə və Süleyman sərdarıyla Təbrizdə müsahibə və məkatibi halisanəmizi isal etdiyində baisi inşirah və huzuzu dərunları olduğundan nəzdində məks və mumaileyhimaya olan məkatibimizi dər-akab şahları rikabına irsal və təqdim və xəbəri zühuruna nəzərən adamımızı nəzdində məks və şahın bir qitə naməsiylə Hüseyn Bəy adında bir səfiri mahallı məzkurə zühur etmək hasəbiylə nameyi şahı və mumaileyhimanın nameləriylə və sair vükəlasının və Şuşa və Gəncə xanlarının və sair havanını Azərbaycanın məkatibiylə

mumaileyhə tərfikan məzkur Hüseyn Bəy vasılı nəzdi xülus-veri olmaqla şahın naməsi və Abbas Mirzə və Süleyman sərdarının məktubları eyniylə baş məmuru ali-mövqe-i rikabı humayuna təqdim olunmaq üçün qapı kətxudamız səadətli ağayı sənakarlarına irsal olunmaqla isticlabı hadisatı cəvanibə müvafiq olduğumuz mücərrəd xidməti Dövləti Aliyyədə sıtqı taviyyətimizdən iktiza etmiş idüğü mu'təkid və məczumu halisanəm olub şahın Qabil və Qandəhara da malik olduğu və Fərzəndini otuz min asakir ilə Gürcüstan və Şirvan və Dağıstan nizamına məmur etdiyi və Dövləteyn beynində çay-giri istehkam olan bünyanı müvalatın təşyidi lazıməi zimmət-i salah-endiş-i canibeyn idüği namələrindən müstəban və sairi əminimiz bəndələrinin təqdir etdiyi xəbər şahzadə Abbas Mirzə və Süleyman sərdar maiyyətlərində olan asakiri salifü'l-beyanıyla Makü üzərinə gəlib Cəfər Qulu Xanı beş on gün mahsur və ba'dehu Cəfər Qulu Xanın qızını şahzadə özünə təzvic edib beynləri musalaha və xanı mumaileyhi kəmakan Xoy xanlığıyla bəkam və Rəvan üzərinə hərəkət etdiklərindən naşi Rəvanın il və əhalisinin əksəri Arpaçay və Qars hüdudu olan Alaca adlı məhəllə köçüb fərarilik və Rəvan xanının şahzadəyə və sərdarı mumaileyhi ba-hədaya gedən səfirinin avdət və xəbərinə nəzərən Rəvan xanı və əhalisi iqamət üzrə olduqları və niyaz etdikləri əmənləri qəbul olmadığınm xəbəri zühur etdiyi surətdə hər biri bir tərəfə fərarilik etmək qeydində olduqlarını və əl-haləti hazihi şahzadə və sərdarı mumaileyhin maiyyətində otuz min əsgər mövcud idüği beynlərində şöhrət-yab isə də həqiqəti əl-yəvm iyirmi min miqdarı asakir ancaq mövcud olub mugayərətində olan havanini ibtida-i əsalib ilə təlif qeydində olduqları və sarahatən üsyanlarını anlamadıqca peşin külliyətlü asakir ilə Azərbaycanı təzyiqdən tahazzur üzrə olduqlarını və ətrafda mürəttəb asakiri sairəsini tərəfi vahiddən kamalı mugayerət hadisəsinə mütərabbısan yer be-yer hifz etdiklərini və Rəvanı bir surətə rabt etdikdən sonra Gürcüstanın tədbirinə şüru' edəcəklərini və Tiflis xanının qardaşı Aleksandra da mumaileyhimayı əsnanı rahda istikbal edib İslamı qəbul etmək şərtiylə Tiflis Xanlığını iltimas və ətraf asakir ilə Gürcüstanı təshir edəcəyini təəhhüd və iltizam və əl-haləti hazihi

mərsum nəzdi mumaileyhimada olduğu və sair hadisatı salifü'l-beyanın vəchi mücərrəd üzrə olduğunu sirranə istiknah və təhqiq etdiyini sahihən təqdir etməklə əl-haləti hazihi tərəfi məzkurənin keyfiyyəti bu surət üzrə olub bundan belə də hər nə heyət kəsb edər isə təshih-kərdəyi halisanəm olduğu vəchilə ərz və ifadə olunacağı və işbu hususat bir qitə ərizəyi bəndəganəm ilə haqq-payı vəliyyü'n-ni'amiyə ərz və təqdim qılındığını inba və tabı tərcüməsiyi nihadların istikza siyakında qaiməyi hulusu-uluma təhririnə ibtidar və tatarı həzrəti kaimmakami ilə firistadəyi nadi-i mürüv-vət-masirləri qılınmışdır. İnşaallahı Təala ləda-əs'adü'l-vusul məlumumu-ruvvət-məczumları buyurulduqda tərəfi mahlası la-rayblərin fuadı məkarim-nihadlarından dür və ib'ad buyurmaları məmulu halisanəmizdir.

Fi Gurrə-i Rə. il [1]215 / [23 iyul 1800]

Məmməd Sabit

[Çıldır Valisi]

XƏTT, 161/6721_F

68

ŞUŞA VƏ QARABAĞ XANI İBRAHİM XƏLİL XANIN OSMANLI DÖVLƏTİNİN XİDMƏTİNDƏ OLMAQ BARƏSİNDƏ BÖLGƏDƏ TƏK QALMASI

Əvvəldən bəri Osmanlı dövlətinin xidmətində olduğu üçün fəxr etdiyini, ancaq Quba xanı Fətəli xan, Şəki xanı Məhəmməd Həsən xan və Rəvan xanı Məhəmməd xanın Rusiyaya itaət ettiklərini və bölgədə tək qaldığını, kömək edilmədyi təqdirdə özünün də Rusiya ilə sülh bağlamaq məcburiyyətində qalacağına dair Şuşa və Qarabağ xanı İbrahimxəlil xanın Ərzurum Valisi Abdullah Paşaya göndərmiş olduğu Farsca məktubun tərcüməsi.

[19 avqust 1806]

***

Şuşa və Qarabağ Xanı Xəlil İbrahim Xanın hələ də Ərzurum Valisi Vəzir-i mükərrəm səadətli Abdullah Paşa həzrətləri tərəfindən göndərilən məktuba cavab olaraq müşarünileyhə varid olan məktubun xülasəsidir. Fi 4.C.[12]21

Maiyyəti sipehsaları nüsrət-şüar ilə küffarı haqq-sar ilkanı darü'l-bəvar olunması əsbab və halətinin istehsal və istihzarına diqqət etməsini havi müşarünileyh tərəfindən göndərilən məktubun vusulündən və xanı mumaileyh tərəfi Dövləti Aliyyəyi əbədiyyü'l-kıyama rabtı riştəyi ixtisası tam etdiyindən bərü alə'd-davam küffarı haqq-sar ilə mücahidəyə kıyam edib hətta ibtidayı sinini salisə yəni bidayəti səfərdə kənar tərəfə tərəfi Səltənəti Səniyyədən asakiri nüsrət-me'asirə təyin olunmuş siz də asakiri Dağıstanı izale-i küffar tahriş edəsiz deyu Çıldır valisi müşarünileyh xanı mumaileyhə təhrir etdiyinə görə xanı mumaileyh də bi'd-dəfaat emvacı dəryanı sipah olan əfvacı Dağıstan vilayətinə gətirib Tiflis Xanı İrakli Xana və küffarı haqq-sara isalı ziyan etmiş ikən cünudu nüsrət-məvudu həzrəti zıllu'llahi zühur etməmək hasəbiylə sipahı Ləzgi mə'yus olaraq hər biri əzmi əvtan və pərakəndə və pərişan olduqlarından və rüknü əzəmi küffar olan Aylat Qazaxı xanı mumaileyhə taxtı qənaəti a`dadan ixrac və ol vəchilə əsasını miknəti küffarı şikəst etmiş ikən əl-halәti hazihi hananı Azərbaycandan Quba Xanı Fətəli Xan və Şəkili Xanı Məhəmməd Həsən Xan və İrəvani Məhəmməd Xan küffarı bəd-təbar ilə ittifaqa riayət və Moskovluya itaət və xanı mumaileyh ilə qarşılığa mübaşirət etmələriylə xanı mumaileyhin vilayəti tənəzzül və xaraba-meyl etmiş olduğundan və əgər bu halət bu surətlə mümtəd olub asakiri nüsrət-measiri tac-darı məmur olmamaq lazım gələr isə xanı mumaileyhin məmləkətində asarı abadlıqdan bir şey qalmayacağına görə hifzi vilayəti üçün küffar ilə sülh edəcəyindən bəhslə faslı şitadan müruru sinin zühurunda talia-i asakiri nüsrət-me'asir Qars hüdudunda və Axısqa sər-zəminində tulü' edər isə xanı mumaileyh də cünudu Dağıstan ilə mücahedəyi küffara mübaşirət və mütləq zühur etmədikləri halda küffar ilə müsalahaya şüru' və mübaşirət edəcəyin xanı mumaileyh müşarünileyhə göndərdiyi məktubunda və tərəfi Dövləti Aliyyəyə olan Farisiyyü'l-ibarə ərizəsində təhrir edər.

4. C. [12]21 [19 avqust 1806]

XƏTT, 1392/55538

69

TEHRANDAN BÖYÜK BİR ƏSGƏRİ GÜCLƏ İRƏLİLƏYƏN İRANLILARIN ŞUŞA VƏ QARABAĞ İSTİQAMƏTİNƏ HƏRƏKƏT EDƏRƏK VURUŞMALARI NƏTİCƏSİNDƏ RUSLARI MƏĞLUB ETMƏLƏRİ

Rusların irəliləyişləri qarşısında İranlıların Tehrandan böyük bir ordu ilə Şuşa və Qarabağa hərəkət edərək vuruşmaları nəticəsində rusları məğlub etdikləri və Tiflis vilayətinin də düşməndən təmizləndiyi barəsində İran Şahzadəsi və Baş naziri Mirzə Məhəmməd Şəfi xan tərəfindən Sadarətə göndərilən yazı.

[27 aralıq/dekabr 1806]

***

Şahzadeyi İran Mutəmədü'd-dövlə Mirzə Məhəmməd Şəfi' Xan tərəflərindən mövqe-i Sadarətə olaraq təvarüd edən Farisiyyü'l-ibarə sənədin tərcüməsidir. Fi 16 L. [12]21

Rusiyalı sərdarı Eşpinihterin ol həvaliyə tasallut və zəbti İraniyanın məsmuları olduqda şahzadəyi İran əlli min miqdar süvar-cərrar-ı müla-zım-rikabi olaraq makarrı səltənətlərindən hərəkət birlə Şuşa və Qarabağ səmtinə rəvana olub Şuşa həvalisində mülakatı fərikayn hadisəsiylə bil-müharibə Rusiyalının qəti küllü asakiri qalatidəyi haqqı həlak və sərdarları məsfur Eşpinihter üftadəyi müfakı haqq olaraq bakıyyətü's-süyuf olanları da İraniyan tərəfindən mühasirə olunmuş olmaqla ba-avn-ı Barı bu gün sabah onlar da qeydi əsrə giriftar və istisal və rehini izmihlal qılınaraq şər ü fəsadları ol həvalidə olan Müslimin üzərlərindən dəf ü rəf olunacağı və vilayəti Tiflis də vücudu xas vü haşakı a`dayı na-pakdan pak olunub vilayatı mahrusaya munzam qılınacağı müqəddimə və bəyan və İraniyan tərəfindən elçilik və vəkalət ünvanıyla payı taxtı Səltənəti Səniyyədə olub umur-u zaruriyyəyi məmləkəteynə təmşiyət vermək üzrə bu dəfə Həsən Ağa adlı mutəməd səfirləri Dərsəadətə isra qılınmış olduğundan tərəfi Dövləti Aliyyədən də İranda olub ol həvali umurunu Dəraliyyəyə ifadə etmək üçün bir nəfər elçi göndərilməsi baisi məzidi birliki dövləteyn olacağı təmhid və dərmiyan olunaraq hər halda tarikayı musafat və müvalat üzrə icrayı ləvazimı müka-

tebə və ifayı mərasimi müraseləyə riayət olunması şahzadəyi mumaileyh bir qitə məktubunda təhrir ü bəyan edər.

İran tərəfindən gələn sənəd olub İtimadü'd-dövlə'yə və Ərzurum valisinə və Qars mühafizinə və Bəyazid mutasarrıfına təhriratı samiyə yazılmışdır. Fi 25 L. [1]221

16 L. [1]221 [27 dekabr 1806]

XƏTT, 161/6704_A

70
RUSLARIN GƏNCƏ VƏ TİFLİS HAQQINDA ƏTRAFA YAYDIQLARI XƏBƏRLƏR ÜZƏRİNƏ TƏYİN OLUNACAQ MÜNASİBƏT HAQQINDA

Rusların Gəncə və Tiflisi satın aldıqları iddiasıyla ətrafa yaydıqları məlumatın fitnə çıkarmaktan başqa məqsəd daşımadığı, Osmanlı dövlətinin Rusiya haqqında nə şəkildə hərəkət edəcəyinin bildirilməsi və İran ilə arasındakı razılığı Azərbaycanda elan etməsinin lazım olduğuna dair Azərbaycan Sərdarı Mirzə Abbas tərəfindən elçi olaraq göndərilən Nasrullah Ağanın gətirdiği məktub üzərinə, Padşahın hər iki tərəf ilə razılıq halında olunduğunun bildirilməsini əmr edən xətti humayun.

[1807]

***

Azərbaycan Sərdarı Mirzə Abbas tərəfindən səfirliklə varid olan Nasrullah Ağanın gətirdiyi Farisiyyü'l-ibarə məktubun tərcüməsidir.

Əgər Rusiyalı ətrafa Gəncə və Tiflisi satın aldım iddiasıyla təhrirat göndərər isə bu babda vaqe' olan iddiası batildir. Çünki Dövləti Aliyyə ilə razılığı diniyyəmiz vardır. Layiq olan Rusiyalının bu iddiasında tə'əmmül-i kamil etməkdir. Əgər edərlər isə davayı mərkumənin savaba makrun olub olmadığını bilərlər və qaza və cihadın mukateləyi əhli bagi və fəsada təqdimi lazım gəldiyini ilam edərlər və bu vəchilə fıkrı amikdən sonra bu rəftarı fasid və Moskovlunun ətrafa olan təhriratı mühəyyici məfasid olduğu məlum olar. Ərkanı Dövləti Aliyyə düvəli Nasara krallarından hər birinin üsuluna vaqif olub əgər bizim tərəfdən təlafiyi ma-fata qayğı olunmaz isə Moskovlunun ətrafa olan təhriratını isbata hüccət olub nəzdi Padişahanda səngi ta'n ilə məlum olarıq. Əgər Rusiyalının dərəcəyi sitiz ü nifaqı Dövləti Aliyyənin məlumu deyil isə Rusiyanın iddia etdiyi dostu və itilafı səbəbi inbiası fitnə və şuriş olduğu bi-iştibahdır. Məlum olsun ki əgər bizim tərəfimizdən Moskovluya muqabilə ilə maddəyi fəsadı dəf-ə sərfi makdur olunar isə ol zaman Moskovlu ilə olan adavət və hüsumətimiz müstağniyi hüccəti bəyandır. Olunmaz isə tərəf-ı Dövləti Aliyyədən Moskovluya razılıq iktiza edər və Rusiyalı haqqında tərəfi Dövləti Aliyyədən nə vəchilə rəftar olunmaqda isə istihzar edib tərəfimizə təhrir etmək lazımdır və bu da məlum olsun ki müxalifi dinə izharı razılıq və dostu riayəti məsalihi dünyəviyyə tahtında və hüsumət və muhafelət fəvaidi dünya və axirət və mənafiyi din ü dövlət zımnında hasildir. Vilayatı Azərbaycan nüvvabının iktizayı tevafuk-ı Dövləteyn ilə hər əhvalı kurb u ətrafına ilam etməsi lazimədəndir deyu mastur u muharrərdir.

Manzurum olmuşdur.

Bizim Rusiya üzərinə ilan etdiyimiz və onlar ilə razılıq üzrə olduğumuz onlar da səy və şücaət etmələri təhrir və icalətən irsal oluna.

[1221] [1806/1807]

XƏTT, 236/13123

71
RUSLARIN QARABAĞDA TÖRƏTDİKLƏRİ QIRĞINDAN DOĞAN ZƏRƏRLƏRİN YERİNİN DOLDURULMASI

İran ordusu Təbrizdə ikən İrəvan sərhədindən gələn xəbərlərdən Rusların Axalkələk qalasını ələ keçərmək istədiklərinin başa düşülməsi səbəbilə Qarabağa yönələrək Şuşa, Şirvan, Gəncə və Şəki vilayətlərinə daxil olduğu; Bahar mövsümündə isə Rusların Qarabağda törətdikləri qırğından doğan zərərlərin ödənilərək Axısqanın düşmən təhlükəsindən qorunacağına dair vəliəhd Abbas Mirzənin Farsca məktubunun tərcüməsi .

[1808]

***

Şan şərəf və igidlik timsali, cəlal sahibi, imdada qaçan, anlayışlı və irəli fikirli, cəsur və ürəkli, ümumi və xüsusi mühüm məslə-

hətlərdə işləri yoluna qoyan Sadarəti Kübra Naibi və Vəzarəti Uzma Baş məmuru Əhməd Paşanın -ki ucalığı artsın- şəfqətlə qışqırdığı xüsus budur ki: Bilindiyi üzrə ali-cənab, fəzilət-meab səfir Abdulvəhhab Əfəndi, bu sərhədlərdəki hadisələrin, cari olduğu üzrə təhrir və tasdıqıyla vəzifələndirilmişdi. Ancaq iki dövlət, bir hökmündə olmaq hasəbiylə, İslamın namusunun qorunmasında birlik təmin edilib iki dövlətin əsgərlərindən hər birisi fütuhatını yekdigərinə müjdələməsi lazım idi. Buna görə mövqeyi uca Heyrət Əfəndi göndərilmiş idi. Məzkurun qısaca bildirdiyinə görə payız mövsümünün sonunda Asakiri Mansurəmiz hərbdən başını qaldırıb bir rahatlıq əldə etdikdən sonra səltənət diyarı Təbrizə döndü. İrəvan sınırından verilən xəbərə görə Rus kəfərəsi Ağılkələk qalasını ələ dolanıb Axısqada təxribatçılıq və qiyam reallaşdırmağa cürət etməkdədir. Bizim bu barədə əksinə istiqamətdə bir səy və hamiyətimiz olduğundan, Osmanlı dövlətinə bağlı vilayətlərdən ulduzu uğursuz kəfərənin fitnə atəşiylə bəzən açdığı dəliklərin bağlanılması yolunda iki dövlətin birlik olmasına ictihadımız husulə gəlib İrəvan yolu üzərindən Ordunun hərəkətinin səbəbi, Axısqanın mühafizəsi və Rusiya gediyinin bağlanılması üçün idi. Burada şiddətli soyuq səbəbiylə keçid vermirdi. Bunun üzərinə havanın nisbətən daha az soyuq olduğu və Rusiyanın çıkardığı qarışıqlıqlar səbəbiylə oraya görə əhəmiyyət kəsb edən Qarabağ istiqamətinə yönəlmə fikri ağırlıq qazandı. O zaman səfərin uzanması üzündən Ordu, tutqun və yorğun; havanın qarlı və şiddətli soyuq olmasıyla yemək məsələsi və Moskva yolu mənzillərindən bir neçə mənzildə zaman zaman yaşanan narahatlıq və xəstəlik səbəbiylə Ordu qarışıb çaxnaşma üzündən hərəkət, məqsədinə ərişə bilmədi. Az çox demədən İslam adına və mövqeləri əbədi olan iki dövlətə təslimiyyət nöqtəsində sərf edilən gerçək səy və onunla birlikdə mövcud olan əsgər Məhərrəmin on ikinci günü Təbrizdən hərəkət edərək Qarabağ cəhətinə yönəldik. O tərəfdə: hərb atəşini, zərli aldatmacaları və Rusiyaya hər tərəfdən ilticaya meylli olunduğunu görüb; Axısqa valisi və xalqını, öz halında buraxaraq əylənmədən Ağılkələk qalasını çöldən mühasirə etmək surətiylə azuqələri tükənərək qal'ada qapalı kalanlara yemək çatdırmaq

üçün qalaya bir vasitə olmadan girməyə müvəffəq olub hər cür mülahizəni göz önünə alaraq qar və soyuğun şiddətində yeyəcəksiz və yemsiz qalmışlar üçün, o qədər stepləri aşaraq və Arasdan keçərək ili mübarikəyə Məhərrəmin iyirmi altıncı günü Rus vəziri Qarabağa enib sabahısı günü süvari birliyini əyalətlərə sövq edərək hər biri digərinə yeddi səkkiz fersah məsafədə və Rusiyanın içlərində olduğu Şəki, Şirvan, Gəncə və Şuşa kimi vilayətlər üzərinə çatmaqla cəsarətsiz vəziri çətin vəziyyətdə buraxaraq İslam mücahidləri və dəlalət əhli kafirlər arasında böyük cəng və mübarizə meydana gəlib çox sayda insan ölmüş, ancaq Ruslar, sipərə yataraq onları buraxmaq barəsində təbiətlərinin əleyhinə çalışqan idilər. Cəhənnəm topları və Elburz-döyən toplarıyla dörd bir tərəfdən Rus ordusunu sarmalayıp daha sonra yenidən uğursuz kəfərənin sıxlıq bir qrupunu daha top zərbələriylə cəhənnəmə göndərib humbara güllələrini atəşə verib sursatlıqlarının bir çoxunu boşaldıb əsgərlərini göydən bəla yağırmışçasına və ya yüksəklərdən axan sel kimi daxildəki əsgər və kəfərənin irəli gələnləri gülləyə düzülüb onların hamısı sipərin bir tərəfinə qaçdılar isə də bunlar: əcəli təcili, işi fasit, başına gələn bəlalar sel kimi, səbat etməyə macalı əsla özündə tapa bilməz, gəzib gəzdiyi diyarlar hər kəs tərəfindən məlum olmasına misal, onların etimad edib müzaherət göstərdikləri yavərləri digər bəzi sərkərdələriylə birlikdə öldürüldülər. Aman diləmə qapısından girib əl-aman diləyənləri ki, ədədləri beş yüz altı yüz nəfəri keçirdi və yarısı da yaralı idi; bunları bağışlayıb toplarının, güllələrinin, təchizat və sursatlıqlarının, mancınıklarının, silah və müştəmilatlarının hamısını ələ dolanıb və əsir edib Rus komandirini də bu gün üçün ehtiyat olaraq əldə tutaraq Gürcüstandan Qarabağ istiqamətinə yönəlmək surətiylə yeddi səkkiz fersah getmişdik ki, Şəki və Bakıda zəlzələ olduğu və bunun yaratdığı həyəcan xəbəri eşidilib onların əsgərinin hamısı Quba tərəfinə yönəlib və biz gündən günə dövlətə qarşı dostluğu çoxlaşan mövqeyi uca Quba Xanı Şeyx Əli -ki, mübarizə nurunun məşəlini alovlandırmışdı – sırf zəfərdən zəfərə qaçan mücahidlərin zəfər xəbərini özlərinə ərişdirmək üzrə müraciət və onların hamısı qılınclarını ifadə etmək üzrə Şuşadan Qarabağın Tarnaut

qalasına gəlmişlər idi. Həqiqətən bizim fərarilik edilən tərəfə getməmizlə vilayət sakinlərindən beş-altı mindən çox Müsəlman və Erməni ailəni hicrət etdirib Aras çayı tərəfinə və Qaracadağ Vilayətinə gətirdik. Heç bir Rus komandiri, heç bir qarışıqlıq halı, və heç bir yerindən edilmiş vali, bu izah edilənlərdən çox, heç bir tərəfdə bir qarışıqlıq və döyüşdən danışılmayıb yalnız bu xəbər danışılıb dilə gətirildi. Hz. Batının Ustakı Qaraqulhan qullarından sərhəd boyu sakinləri tastamam saray xalqıdır. Rusiyada (Eygündə) hər doqquz yüz nəfər süvari Kısk sipərində idilər. Generalın güllə və qılınc yelləmədə məşhur olmuş bir nəfəriylə birlikdə üsyan edib müxalifətə başladıqları sırada General Part Nigin Neyer Rusiyanın imdadına Kıska gedib qarşı hücumda olaraq, onları qırımdan keçirmək surətiylə yaralı və məğlub bir şəkildə Tiflisə fərarilik edib o generalı təqib edərək Rus komandiri də əsla özü o günlərdə Asakiri Mənsuranın qorxusundan dayanıb istirahət etmədən və Qarabağ hüduduna uğramadan Gürcüstana qaçmışdı. Bunların fitnəsini önləmək üçün əvvəl etibarlı keşişlərdən birinin könülünü qazanıb daha sonra ayanlarını bir araya gətirmək surətiylə məzkur keşişi hədəf göstərib onu öldürdülər. Rus komandiri, onların könülünü qazanma mövzusunda ümidsizliyə qapılaraq sırf öz əsgərləriylə etiraz etməyə əzm etdi. Keşiş məsələsindən sonra mübarizə atəşini yandırıb sol tərəfə hücum edərək o da məğlub olub yeddi ədəd top mancınığı əhalinin əlinə keçməklə ora düşdü. Özü, yazıq bir şəkildə və qorxmuş vəziyyətdə Tiflis istiqamətinə qaçdı. Və indi sözünü etdiyimiz safahatta həyəcan zirvədədir. Bahar mövsümü gəldiyində və zəfər bayraqlarınm yellənmə zamanı çatdığında Allahın icazəsiylə dərhal o saatda səfər hazırlıqlarını ikmal edib fürsəti əldən qaçırmadan küfrü yaxan əsgər, müzəffər ordu və atəş püskürən toplarla hərəkətə keçəcəyik. Harəkətimizdən sonra hər cür möhkəmlətmənin ediləcəyi ortadadır. Mövqeyi uca Axısqa Valisi Şərif Paşa cənablarınca Rusiya gedivindən (gələcək təhlükəyə qarşı) burasının mühafizəsi təmin ediləcək, Allahın inayətiylə ən böyük ihtilallərin meydana gəldiyi və ulduzu uğursuz Rus kəfərəsinin Qarabağda törətdiyi qırğın vasitəsiylə açılan bütün gediklər, iki dövlətin əsgərləri tərəfindən bu şəkildə bir hərb

vasitəsiylə bağlanılacaq, vaxtı zamanı gəlib işə başlandığında Rusiyanın fəsadı məsələsi tamamilə qozbel olmaqdan qurtarılıb kökündən qazınacaq və bu gündən sonra iki tərəfin sərhəd mühafizəçiləri bozgunculuktan fərahlamış bir halda sınırların və mütəallikatının qorunması xidmətiylə məşğuliyyət edib; Rusiyaya Ağılkələk qalasının necə qorunulub güdüləcəyini və öz sınırlarını tanıtdıraraq Axısqa da, bu tərəfin smırları daxilində qalaraq Memaliki Osmanıyədən olacaq. Afiyətdə qalınız.

[1807/1808]

XƏTT, 784\36643

72
QARABAĞ XANI İBRAHİM XƏLİL XANIN QIZI TUTU XANIMIN DÜŞMƏNƏ QARŞI OSMANLI DÖVLƏTİNDƏN KÖMƏK TƏLƏBİ

Rusların Tiflisi işğal etməsi üzərinə yurdlarını qorumaq üzrə döyüşdükdən sonra Şəkini təkrar geri alıb, düşmənin bölgədə zəifliyindən faydalanaraq Dağıstandakı idarəçilərlə razılaşdıqları, lazım olan kömək edildiyi təqdirdə ruslara üstünlük təmin edə biləcəkləri barədə Qarabağ xanı İbrahimxəlil xanın qızı Tutu xanımın ərəbcə məktubunun tərcüməsi.

[1813]

***

Qarabağ Valisi Şəhid İbrahim Xanın qızı Tutu Xanımdan uca eşiyə göndərilən ərizə

Tərtəmiz bir dövlət rəisinin sultanlığıyla İslam Dinini şərəfləndirən; sultanların dayağı olan bir dövlət başçısının xilafətiylə göyləri və yerləri nurlarla dolduran; İslamın Sancağını və tövhid əhlinin nişanını zıllu'llah və aləmlərin Rəbbinin xəlifəsi olan mövlamızla yüksəldən Allaha həmd olsun. Allah Təala onun zəfərlərini və fəthlərini davam etdirsən. Bütün küfr millətlərinə qarşı onu müvəffəqiyyət və qəhrəmanlıqlarla dəstəkləsin. Onu doğru yola sövq etsin. Beləcə o bütün Müsəlmanların işlərini yoluna qoysun. Müşriklərin xoşuna gəlməsə də Allah bu gözəllikləri nəsib etsin.

Allah Təala Hz. Məhəmmədə salat və salam etsin. Cənabı Haqq onu, bütün dinlərə üstün gəlməsi üçün hidayət və haqq din ilə göndərmişdir. Ayrıca onun ailəsinə, səhabələrinə, xanımlarına və hidayətə ərişmiş olub hidayət yoluna aparan və doğru yolu tutmuş olub insanları doğru yola sövq edən xəlifələrinə də salat və salam olsun. Amin. Aləmlərin Rəbbi olan Allaha həmd olsun.

Bu sənəd, çox zəngin və çox mərhəmətli olan Allahdan heç ümidini kəsməyən; mərhum, şəhid, Allah yolunda döyüşmüş, Osmanlı dövlətinin qapısında qədim və səmimi bir xidmətçi olan İbrahim Xan Qarabağının qızı Dudu Xanımın;

Ən qiymətli, ən böyük, ən şərəfli, ən üstün, ən ağıllı olan; əzəli hidayətlə doğru yolu tapmış, sonsuz lütflərlə dəstəklənilmiş bizim ən böyük imamımız, Ərəb və Acəm sultanlarının əfəndisi, bütün millətlərin əfəndisi, himmətləriylə İslamı və Müsəlmanları dəstək olan, böyük kralların və sultanların övüncü; qəti dəlil, qılınc və qələmlə haqqın dəstəkçisi; küfrün və dinsizliyin əlamətlərini ortadan qaldıran; dümdüz və doğrunu tapmağa yarayan qanunlar qoyan; qısaca gözəl xüsusiyyətlərini yazmağa qələmlərin aciz qaldığı və başqalarının xəyallarının belə ərişə bilməyəcəyi xüsusiyyətlərə sahib; dinin təməllərini meydana gətirən əmr və qadağanların tastamam tətbiq olunmasını sağlayan; sonu gəlməz şəkildə bütün canlıları əhatə edəcək şəkildə süfrəsindən faydalandıran; qüdrət, burhan, hüccət, bəyan, şövkət, əzəmət, cəlal, iti anlayış və bu ayəyi kəriməni nümunə götürərək şövkət Sancağını ucaldan; **"Allah Təala ədaləti, yaxşılıq etməyi və yaxınlara baxmağı əmr edər. Həyasızlığı, kötülüğü və üsyanı qadağan edər."*** Bu anda sultan olan müzəffər və Allah yolunda döyüşərək qazi olmuş, iki qitənin və iki dənizin sultanı, Harəməyni Şərifeynin imamı – Allah onun səltənət otağını, əzəmət və ucalığını Müslümanların üzərindən əskik etməsin. Haşmət, şövkət və ucalıq çadırının direklərini əbədiyyət və sonsuzluq ilə Müsəlmanların üzərində daim etsin. Xilafət və səltənətini dünya durduqca, zaman dövran etdikcə daim etsin.

Allahım! O sultana və onun əsgərlərinə zəfər lütfkarlıq et! Düşmənlərini də məğlubiyyətə uğrat. Kafirləri qəhr et. Kafirlər birliyinə qarşı bizlərə zəfər bəxş et.

Bəli, mömin kişilərlə qadınlara, Müsəlman kişilərlə qadınlara yönəlik olan Allahın bu ayəyi kəriməsinə itaət etmək bir borcdur: **"Ey iman edənlər! Allaha, Rəsuluna və sizdən olan ulü'ləmrə (idarəçilərə) itaət edin!"**.**

İndi bu itaətin şanlı, şövkətli və böyük Dövləti Aliyyəyə olması lazımdır.

Allaha həmd və sənalar olsun ki, bu anda atalarımıza ayrılan topraklarda, onlara verilən fərmanlar və əmrlər istiqamətində haşmətlü, əzəmətli və ehtişamlı Osmanlı dövlətinə itaətkar vəziyyətdəyik. O uca dövlətin icazəyi və əmrləriylə burada hökm sürməkdəyik. *Ancaq Nəbi sallallahu əleyhi və səlləmim hicrətinin 1225.* ilində küffar Tiflisi zəbt etdi. Biz də onlara qarşı dörd il cihad etdik. Bundan sonra minlərlə Müsəlmanla birlikdə kişi və bacılarımız şəhid oldu. Bu il yurdumuzu tərk edərək hicrət etdik. Yenə bu il əsgərlərimiz kafirlərlə hərb etdi və biz də 2400 adamla onlarla döyüşdük. Onları Şəki diyarından çıxardıq və bizim ordumuz Şəki diyarına girdi. Ancaq düşmənin geri almasından qorxuruq. Çünki bizim nə mühimmatımız nə də topumuz var.

İşdə bu səbəbdən ötəri vəziyyətimizi Osmanlı dövlətinin uca eşiyinə ifadə etməmiz zəruri hala gəlmişdir. Ayrıca Dağıstandakı idarəçiləri və Müsəlman xalqı ilə də ittifaq qurduq. Allah yolunda qaza edərək qazi olmuş fəzilətli alim Hüseyn Əfəndini də, vəziyyətimizi dövlətin irəli gələnlərinə bildirməsi üçün Osmanlı dövlətinə göndərdik. Dövlət başçımızdan, bizim adımıza bir fərman çıxarmasını və onun hökmünə ram olunmasını ümid etməkdəyik. Biz burada bütün silahlarımızla birlikdə qırx min qədər Müslümanız. Əmr vermək öndərimizdən, əmrə uyğun gəlmək də bizdəndir. Çünki bu anda ətrafımızda olan Rus kəfərəsi zəifliyə uğramış vəziyyətdə. Geriyə qalan əsgərləri də bizə qarşı zəfər əldə edə biləcək halda deyil. Allah Təala kafirlərin kökünü qazıntısın. Allahın köməyi olmadan nə müvəffəqiyyət əldə edilə bilər, nə də məğlubiyyətdən qurtuluş mümkün olar!

[1812/1813]

XƏTT, 1108/44645_F

73
RUSLARIN ŞUŞA ÜZƏRİNƏ GETMƏSİ, İRANLILARIN ŞUŞANI TƏRK ETMƏYƏ MƏCBUR QALMALARI VƏ GƏNCƏDƏ ƏSGƏR SAXLAMALARI

Tiflisdə olan rus generalı Yermolova, Tatar Ağası ilə məktub göndərilərək bölgə haqqında məlumat əldə edildiyi və cavabı yazıya alındığı; Buna görə, iranlıların etiraz etmələrinə baxmayaraq, rusların Şuşanı ələ keçərərək Penik tərəfinə irəlilədikləri, hətta dəniz yolu ilə gətirdikləri qüvvələrlə Tehran tərəflərində döyüşə hazırlandıqları; Digər tərəfdən Şuşa, Gəncə və Tiflis ətrafında bulunan əlli min iranlı əsgərin ruslar tərəfindən on min Osmanlı əsgərinə bərabər görüldüyü, Yeniçəri Ocağının qaldırılaraq yerinə qurulan ordu yapılanmasının izlənildiyi ayrıca Osmanlı dövlətindən bölgədəki bütün dövlətlərin çəkindiyi barədə Çıldır valisi Haqqı Paşanın Ərzurum valisinə göndərdiyi qaimə.

[20 may 1827]

Çıldır Valisi Haqqı Paşa qullarının Ərzurum valisinə məbus qaiməsidir

Dövlətli, inayətli, atufəli, übbəhətlü vəli-ne'məti bi-minnətim əfəndim sultanım həzrətləri

Akdəmca hak-pay-ı növbət-asa-yı vəliyyü'n-ni'manələrinə ifadə olunduğu üzrə tatarlarımız ağası Osman Ağa qulları ba-təhrirat Tiflisə Cenaral Yermelof tərəfinə irsal və ol həvalidən təhqiq etdiyi həvadisləri avdətlərində haqq-payı mərahim-ihtiva-yı samilərinə ifadə qılınacağı çənd-ruz akdəm ba-ərizə ifadə olunmuş idi. Gurrəyi Rəbiüləvvəldə ağanı mərkum Yermelofun bir qitə kağızıyla avdət və takririnə nəzərən; Səfərü'l-hayr'ın iyirminci günü Şuşaya iki saat məsafə çay üzərində Rusiyalının ordusu olub alə'l-gaflə Şuşada olan İranlı məmurları Rusiya ordusunu basıb bir miqdar müharibələrində Rusiyalının ordularında takviyət olduğundan zə-fər-yab ola bilməyib məyusən Şuşaya avdətlərində ardınca Rusiyalı Şuşa üzərinə çatıb İran əsgəri müqavimət edə bilmədiklərindən kəmafi's-sabık Şuşa yedlərinə keçirib İran əsgərini bu surətlə dəf etdikləri və şahzadənin dayıları da işbu müharibədə tələf olub yüz qədər sər-əsaslarını

əsir olaraq hayyən Tiflisə gəlmiş olduğunu ifadə edirlər. Və mahı məzkurun iyirmi üçüncü günü Yermelof səkkiz-on min qədər əsgər və qırx qədər top ilə Penik tərəfində Hüseyn Xan və Həsən Xan üzərinə getmiş və müqəddəm bəyan etdiyimiz vəch üzrə Lori başında beş min qədər əsgərlə Kinaz qapalı və Həsən Xan ilə Hüseyn Xan qüvvət üzrə olduqları əcildən Tiflis Tərəkəmələrindən min iki yüz Tərəkəmə Xanəsi İraniyana tabe' olmuş və hafiyyətən xəbərləşib Həsən Xan Lori üzərindən çatıb ol xanaları əmval və əşyasıyla Rəvan tərəfinə sövq etdiyi və Çeçen tərəfindən Rusiyalının imdadı gələcək yollarını yıxmışlar deyu tərəfi çakəranəmdən təhrir olunmuş idi. Tiflisdə də bu sözü tatar ağası isdima' etmiş, Yermelof da söyləmiş, yollar yıxıldı. Amma mücəddədən düzəltdirdik. Və bahrən külliyətli əsgərimiz çıxıb Tehran tərəflərində bu günlərdə müharibə olmaq ehtimaldır deyu takrir etmiş. Və İranlının hududlarına bu günə tahatti və önlərinə gələn yerləri qarət və gərək əsir etdikləri zahirdə Rusiyalının zəifliyinə azv olunar isə də zəifliyindən olmayıb Rusiyalının elçisi əvvəl-bahar Şah tərəfində olmuş və elçi gedib avdət etməyib müharibə olub olmayacağı aydınlaşma etmədiyindən birdən birə ləğvi əhd maddəsi dayanı mülahizəmiz olduğuna məbni müharibə üçün əsgər təcəmmu' etmədən və kimsənin xəbəri olmadan İranlı oğru gibi bu günə bil-rəftar hüdudumuzu qarət etdilər isə də bundan belə qarşılıqı bi'l-misl etmək üzərimizə lazım gəlmiş və bu səydəyik deyu takrir etmiş. Və Şuşa və Gəncə tərəflərində Tiflis civarlarında İranlının əlli min miqdarı əsgərləri olduğunu yenə Yermelof bil-münasəbə ifadə və Dövləti Aliyyənin on min əsgəri qədər indimizdə ol miqdar cəmiyyətləri görünməz deyərək bir takrirində surəti dostluq göstərmiş və İranlı ilə müharibələri zühurundan bərü neçə dəfə kağızları gəlmiş isə Acəm oğrularına Axısqa tərəflərindən də bəzi sirakın mülhak olduğunu təhrir edərlər. Tərəkəmə, Tahmas[b] Qulu və Qurban adlı kimsələri bu dəfə kağızlarında musarrah yazarlar. Mərkuman əl-an mahbus olduqları akdəmca haqq-payı alilərinə ifadə və Həsən Xan həbsdən istihlasını iş'ar etmiş idi. Əl-yəvm mahbus olduqları və hər halda qayğı olunaraq hududlarına bir kimsənin tahatti etməməsi ekid(ən) tənbeh qılındığı və Yermelofun bundan sonra bu

maddəyə dair kağızı zühur edincə mərkumanın li-əcli't-tərbiyə həbsə ilqa olunduqları bəyan olunmaq lazım olar mı olmaz mı? Əmri Səniyyələrinə həbs olunmuş idüğü və şəxsi merahim-simat-ı Səniyyələrinə bir çox səna etmiş və orduda məmurluqları əsnalarında görüşdüklərini bəyan edərək "Bəndənizin də hüduda dair sayəyi həm-vaya-ı asiyyədə olan himməti dövlətiniz ilə diqqət və qayğımızdan mahzuziyyət göstərmiş və Asakiri Mənsurayı Məhəmmədiyənin Dəraliyyədə yüz min qədər təhrir və mövcudiyyətini eşitdik və şəxsən şövkətli, vəlayətli, qüdrətli, əzəmətli vəli-ni'mət-i bi-minnət Padşahımız əfəndimiz həzrətlərinin zatı humayunları təlim günü təşrifi humayunları deyilir vaqe' mi ?" deyu sualında bir az da münasib əlavə ilə təsdiq və ifadələrində yarım saatdan çox məsfur sükut edib sonradan özü də təyid və təsdiq edərək davam və qıyamı ömürü humayuna dua etmiş və İranlı Ərzuruma səfir göndərib Dövləti Aliyyədən bu babda yardım istəmiş bundan habir deyərək sualında o günə maddələrdən bizim kimi xidmətkar makuləsi xəbərdar olmaq Dövləti Aliyyənin üsuluna münafidir. Belə yenilik məsmum olmuş deyil və Açıkbaş xanının Ərzuruma gəlməsini sual etdiyinizdə bilməm deyu cavab etmiş. Bu sualı edərlər isə bu vəchilə cavab etməsi tərəfi bəndəganəmdən mərkuma tənbeh olunmuş idi. Tiflis dərununda olan əhalidən bir miqdar Qızılbaş olduğundan Həsən Xan tərəfindən üç yüz tüfəng və beş yüz qıyyə barıt və bir miqdar qüllə xaficə göndərmiş və Tiflis içindəki məscidlərinə pinhan etmişlər. Yermelof bir tərəfdən xəbər alıb məsciddən çıxarıb lakin məscidlərin qapısını bağlayıb qeyri bir təhqir etməmiş və çənd ruz sonra qapını da qüşad etmiş. Tiflis əhalisinin də keyfiyyətləri bu günə olduğunu söyləyər. Və Tiflisə çatana qədər əsnayı rahda gördüyü Gürcülər gecə və gündüz xahiş və niyaz edərlər. "Dövləti Aliyyə tərəfindən nə vaxt bir zuhurat olar ki tabe' olub Rusiyalıdan xilas tapaq" deyərlər. Və Tiflisə çatana qədər və gərək avdətində gördüyü əhaliyi Gürcüstan hər halda bu ili mübarekədə Rusiyalının kralları mürd olduğundan birbirləriylə çox münafəsə və münaqişələri olmuşdur. Əlbəttə zəifllikləri dərgardır deyu söylədiklərini ifadə edər. Və Açıkbaşda olan Göriyə xanı bir qitə kağız ilə adamı zühur edib səkkiz on ay

əvvəl razılıqlarıyla Göriyədən iyirmi nəfər kölə çıxıb Hanoya gəlmişlər. Və Hanodan hər birərləri bir tərəfə getmişlər. Bizim ol tərəfdən bu qədər adamımız fərarilik etdi. Hano bəyindədir deyu tərəfimizə yazmış. Gevabelban Sancağından bir nəfər Müsəlman həbsdə olub istihlası tərəfi çakəridən yazılmış idi. Həbsi buraxmayıb məzkur adamları qadr etmiş. Üzrü beyhudədən olduğu bəyanıyla həbs təkrar matlub olunmuşdur. Bunu ifadəyə münasib bu ki Açıkbaş xanının bu tərəfdə olub olmaması və nə günə surətdə olduqlarımızı anlamaqdır. Hər bir tərəfdən təcəssüsdən halı deyil. Bi-hikməti'llah həzrəti Allah evrəngi tacdarilərində dünya dayandıqca mukim etsin. Səltənəti Səniyyənin dəhşəti cümlə düvəli əhatə etmiş və hər kəs xovfu haşyətə düşmüşdür. İnşaallah maşallah şimşiri hulusu həzrəti cahandari cümləsini kəsər biçər. İndiki hal bu günə olduğu muhatı elmi cahan-fehmi aliləri buyurulduqda ol babda və hər halda əmri fərman vəliyyü'n-ne'mət-i bi-minnətim əfəndim sultanım həzrətlərinindir.

Fi 23. L. [12]42 [20 may 1827]

Əs-seyid

Haqqı

XƏTT, 427/21863_D

74

RUSİYANIN QARS ÜZƏRİNƏ ƏSGƏR GÖNDƏRƏCƏYİ XƏBƏR ALINDIĞINDAN ƏSGƏR VƏ SURSATIN ARTIRILMASINA EHTİYAC DUYULMASI

Qars mühafizəçiliyi tərəfindən İrəvana təbrik bəhanəsilə göndərilən saqqallı ağası ilə general Paskeviç arasında olan görüşmədə, İrəvan və Naxçıvanı ruslar, Təbriz və Xoyu iranlılar almak üzrə razılığa gəldikləri, Osmanlı dövlətinin Yeniçəri Ocağını qaldırdığından ötəri yenidən əsgər yazımı üçün bölgədə əsgər saxladığının ifadə edildiyi; Rusiyanın Qars üzərinə əsgər göndərəcəyi xəbər alındığından əsgər və xüsusilə topçu və qumbaraçıya ehtiyac duyulduğu barəsində Qars mühafizi və Ərzurum valisi Qalib Paşanın təhriratları.

[15 may 1828]

***

İşbu takriratın bir nüxəsi də inayətli Əhməd Paşa qarındaşım bəndələrinə irsal olunmuşdur.

Iydi şərif əsnasında Qars mühafizindən gəlmişdir.

Rəvana yenarələ təbrik bəhanəsiylə irsal olunmuş olan saqqallı ağası gəlib mərkum Rəvana çatdığında Paskiyeviç Rəvana gəlmiş olub savbı ubeydanəmdən irsal olunaraq mərkumun çatdığı məlumu olub "gətirmüş? əsgər gətirirmişsüz nə əsgərdir ?" deyu sual etmiş, mərkum da "paşamız vaxtsız gəldiyindən karyələrdə təyinat verib idarə olunur Dövləti Aliyyə yeniçəri əsgərini qaldırdığı məlumunuz olmuşdur, indi mücəddədən nizam əsgəri tərtib və hər bir yerdə təhrir olunar" deyu cavab verdiyi "Osman Paşa onun bunun sözünə baxıb sözündə durmaz idi, bu paşa nə vəchilədir ?" deyu sual etmiş, mərkum da "kimsənin sözüylə iş tutmaz Dövləti Aliyyə və səraskər paşa əfəndimizin əmrinə baxıb nə günə əmr olunar isə ol günə hərəkət edər" deyu cavab verdikdə yenerali çağırıb "kumuşluk və dostluq eylə" deyu tənbeh etmiş olduğu və mərkum da Paskiyeviçdən sual etmiş ki, "barışı nə vəchilə etdiniz ?", Aras çayından bərisinə Rəvan və Naxçıvan bizim, kənar tərəfi Təbriz və Xoy və sairi İranın olmaq üzrə musalaha etdiklərini və on kürüd pula kəsib yeddi kürüdünü alıb üç kürüdünü də verənə qədər Xoya əsgər qoyub məblağ-ı məzbur təslim olunduqda əsgərini qaldırıb Xoyu təslim edəcəyini "barışga nə qədər müddət verildi?" deyu sual ətdikdə "Acəm vaxt bilməz lakin bu qədər var ki, əgər bir tərəfdən pislik zühur edər isə musalaha pozula, zühur etmədikcə musaləhadır ki, vaxtı və müddəti bu qədər" deyu ifadə etmiş olduğu və Abbas Mirzənin oğlu hədiyyə ilə gəlib Təbrizdə Paskiyeviçi gördükdə Paskiyeviç əsgərini çəkib Qarabağ tərəfinə göndərib özü Rəvana gəlib Mirzə Abbas Təbrizə gəlib yeddi mah vədə kəsmişlər ki, sizdən və bizdən rəaya xahişi ilə kangı tərəfə gedər isə mümanaat olunmaya. Vədə xitamında xahiş edən olar isə sahib olmayıb qaytarıla və məsfur Paskiyeviç Ramazanı şərifin on beşinci günü Rəvandan qalxıb Tiflisə getdiyi və mərkum sırrən xəbər almış ki, guya Tiflisə çatıb ihtiyatən Osmanlıya mülahık hududlarına əsgər qoya.

Rəvanda sözünə etibar olunar Sərtib tərəfinə mərkumun etimadı olar bir adam göndərilib xəbər sual olunduqda göndərmiş olduğu takriridir ki zikr olunur.

Fi'l-asl Qars rəayasından olub indi Rusiyalı tərəfində olan Keçəl Evadisin oğlu və sərdarın taciri Məşhəd Əli dedikləri mürtədi Rəvanda Paskiyeviç gətirib Axısqanın və Qarsın yollarını və başlarını xəbər almış, məzkurlar da "Axısqanın yolu və əhalisi mətndir, Qars asandır" dediklərində mərsum gücənib "siz mənim sualıma cavab verin qeyri söz istəməm Qars üç günlük sözdür, diyarlıq üçün sizi istədiyimdə gələsiz" deyu tənbeh etmiş olduğu və "iki maha qədər əsgəri və hayvanatı pərişan olduğundan gələ bilməz iki mah mürurunda gələcəyinə şübhə etməsinlər və gafil olmasınlar" deyu sifariş verdiyi və Təbriz və sair yerlərdə İraniyanın hər nə qədər top və cəbhəxana və sursatı var isə cümləsini əsgəriylə göndərmiş olduğu və mərkum adamımız Fərrux Bəy dedikləri bəyə sərdarın topcubaşısı imiş onu və İsmayıl Xanı da göndərib sual etmiş mərkuman da Sərtibin takrirlərini verib və Qarasusakı dedikləri bəyə və Rəvandan bundan akdəm kral yanına getmək üzrə getmiş idi. Paskiyeviç ilə zidd olduqlarından səraskərliği özünə həvalə etdirmə[k] üçün getmiş olduğunu mərkuman ifadə etmişlər və Paskiyeviç Rəvanda Norsis Mahrəsəni gətirib "sən oxumuş adamsan qırmızı yumu[r]tanı edib Tiflisə gəlib onda sakit ol köhnə xəlifə var imiş gəlsin Üçkilisədə otursun" dəyib Sərtib ilə Rəvan yerlisindən Mülksəhana divan etməyi həvalə etmiş və Fərrux Bəy Rusiyalıya xidmət etməyib bu tərəflərə gələcəyini söyləmiş olduğu.

Və Təbrizə göndərilmiş olan adamlara da "Paskiyeviç və ya əsgər gələr isə gəlib xəbər gətirəsiz" deyu tənbeh olunmuş olduğundan Səril adlı yerdə Paskiyeviç rast gəlib əsgərinin Qarabağ tərəfinə getdiyini xəbər alıb avdət etmişlər və nasih etdikləri takrirləridir.

Barışığı altı kürüd pula kəsib beş kürüdü İngilis elçisinə təslim olub və bir kürüdü qalmış olduğundan iki min soldat Xoya və beş yüz soldat Mərəndə qoymuş olduğu və üç min zimmi xanəsi Rəvana gəlməyə söz vermiş olduğu və Təbrizdə olan müctəhid təbir etdiklərinin oğlu Əbulfəttah iyirmi xana ilə Rusiyalıya bi-at edib Rəvana gəlmiş olduğunu digər adamlarımız da xəbər verdilər və bu tərəflərdə zahirəsi az olduğundan və Qarabağ səhil olduğundan əsgərini ol tərəfə göndərmiş olduğu.

Qalib Paşa qullarmın takriridir.

Dövlətli, inayətli, atufətlü, rəf'ətlü, mürüvvətli vəliyyü'n-ni'am kəsəril-kərəm əfəndim sultanım həzrətləri;

İşbu ərizəyi bəndəgi ixrac olunmaq üzrə ikən Qars mühafizi bəndələrindən bir-birini ardınca təhrirat zühur edib Rusiyalının May evailində Qars üzərinə hərəkətini xəbər almış olduğundan topçu və əsgər istidasında olmaqdan naşi manzuru aliləri buyurulmaq üçün eynilə təqdim olundu. Ərzurum və Qars və Axısqada mürəttəb topçu mövcud isə də mütə-fənnin olmadıqlarından və Bəyaziddə isə mürəttəb topçu olmayıb Ərzurum'dan bir miqdar nəfərat göndərilmiş isə də mümarəsətləri olmadığından hər tərəfə işə yarayar topçunun lazımlılığı aşkar olduğuna görə bundan akdəm Dərsəadətdən niyaz olunan topçu və humbaracıların lütfən və kərəmən bir an akdəm isalının iktiza edənlərə tənbehinə inayəti aliyyələri mütəmənnanı bəndəganəmdir və əsgər xüsusu ərizəyi ubeydanəmdə muharrər olduğu üzrə cümlə məmurlara şəhəri Ramazanı şərifdən bərü xəbər göndərilməkdə ikən hələ Rizəli Tuzcuzadə və yeddi yüz miqdarı piyadasından maada gələn olmayıb Qars və Bəyaziddə çakərlərinin dəlil və tüfəngçilərindən başqa əsgər olmadığı və həzrəti hayrü'l-Hafızin'ə əmanət ikisindən fikiri acizanəm çox idüğü cəhətdən mumaileyh Tuzcuzadə dərhal Qarsa təyin və irsal və yenə lazım gələnlərə isti'cal qılındığı və Livanədən bu tərəfə matlub min nəfərin çıxdığı xəbəri gəldiyindən vürudunda onlar da Rəvan [və] Bəyazidə göndəriləcəyi və bundan belə də təvarüd edənlər gəldikcə həmən kalateyni mərkuməteynə ərişdiriləcəği hasəbiylə çakərləri makdurumdan çox leyi ü nəhar əsbabı lazıməyə sayı bi-şumar etməkdə isəm də mütləq avn və imdadı həzrəti xeyirin-Nasirin ilə himəmi aliyyəyi Səltənəti Səniyyəyi əbədiyyü'd-dəvama möhtac olduğu muhatı elmi aliləri buyurulduqda hər halda əmr u fərman həzrəti məhrum ləhü'l-əmrindir.

Fi gurrəyi Za. il [12]43 [15 may 1828]

Möhür

Qalib

XƏTT, 1088/44264-O

75

ŞAHSEVƏN TAYFASININ QARABAĞA OLAN HÜCUMLARINDAN İSTİFADƏ EDƏRƏK İRANI GİZLİ BİR MÜQAVİLƏ BAĞLAMAĞA MƏCBUR ETMƏSİ

Şahsevən tayfasının Qarabağda çıxardığı qarışıqlıqları nizama salmaq üçün Rusiyanın İranı gizli bir müqavilə bağlamağa məcbur etdiyi; Həyata keçirilən təhqiqat nəticəsində bölgədə görülən əskikliklərin ən əhəmiyyətlisinin, aktual və yerli mövzulara vaqif, qonşuluq əlaqələrini idarəyə müqtədir bir komandir ilə oyanıq və hərəkətli bir valinin təyinləri olduğu; Qarabağ tərəfdən qaldırılıb Urmiya yaylaqlarına yerləşdirilən Şahsevən tayfasının Tiflis əsgəri heyəti tərəfindən süvari üsulunda öyrədiləcəyi mövzularında Ərzurumda vəzifəli Nüsrət Paşanın Ulduz Sarayına çəkdiyi teleqraflar.

[28 iyul 1886]

***

Ulduz Sarayı humayunu

Ərzurum 'da Nüsrət Paşadan gələn teleqraf

Cavab]. Bir böyük əməliyyat icra olundu. Əsiri firaşım ancaq bədəndən bir ramak can olsa belə ondan uğuru həzrəti vəliyyü'n-ne'mətdə fəda eyləməyi dəyanətən vacib bildiyimdən ordunun təhqiqatı dər-dəstdir. Ancaq buralarda görülən nöqsanların ən birincisi əhvalı halıya və məhəlliyə və münasəbatı həm-ətrafını idarəyə müqtədir bir müşir ilə oyanıq və mütəharrik və ruhlu bir vilayət valisinun tədarükü fərzi ayn məsabəsində olduğu təhqiqatdan aydın olur.

Fi 15 iyul il [1]302

Qulları **Nüsrət**

İran Dövləti, Caf və Kurdistan ta'addiyatı və Bağdad valisinun Şiələr haqqında Samarra müftisi məsələlərini meydana çıxararaq asakirini Rusiya komandirlərinin taxtı idarəsində olduqları halda Rusiya Dövləti Şahsevən aşayirinin Qarabağ cəhətində vaqe' olan ta'addiyatlarını nizamlamaq işa'asıyla Tiflisdə şahzadənin müavini Ferik Ceneral Şiyelof mürəxxəs təyin edilərək bər-vech-i zir muahədəyi hafiyyənin tənzim və mübadiləsinə İran Dövlətini məcbur etmişdir. Bu muahidənin xülasəsi hər nə vaxt Dövləti Aliyyə İngiltərənin əfkarına ittibaən Rusiya əleyhində olacaq və

Rusiyalıyla İngiltərə arasında bir müharibə zühur eylədikdə Dövləti Aliyyə, Rusiya və İran ilə müttəhid olmayacaq olarsa

Nüsrət Paşadan gələn teleqraf

Rusiya Dövləti Şahsevən aşayirinin Qarabağ cəhətində vaqe' olan ta'addiyatlarını beynə'd-Dövləteyn nizamlamaq işa'asıyla Tiflisdə prensin müavini Ferik Ceneral Şiyelof mürəxxəs təyin edilərək bər-vech-i zir muahedəyi hafiyyənin tənzim və mübadiləsinə İran Dövlətini məcbur etmişdir. Bu muahidənin xülasəsi hər nə vaxt Dövləti Aliyyə İngiltərə'nin əfkarına ittibaən Rusiya əleyhində olacaq və Rusiya ilə İngiltərə arasında bir müharibə zühur eylədikdə Dövləti Aliyyə, Rusiya və İran ilə müttəhid olmayacaq olar isə

Fi 16 iyul il [1]302 [28 iyul 1886]
Qulları **Nüsrət**

Bu da

İran Dövləti Caf və Kurdistan ta'addiyatı və Bagdad valisinun Şiələr haqqında Samara müftisi məsələlərini meydana çıxararaq asakirini Rusiya komandirləri taxtı idarəsində olduqları halda

Qulları **Nüsrət**

Tehran Səfirliyini bir heyəti əsgəriyəyə ürək edəcəkdir və kaffəyi qüvvəyi əsgəriyəyi İraniyənin tənzim və tərtibini bu heyəti əsgəriyə dəruhdə edəcəyi və hətta elanı hərb edərək Van və Bağdad tərəflərindən kamalı şiddətlə təcavüzü hərəkət etmək və Rusiyalı da Ərzurum cəhətindən ihafə etmək və nəticəsində muahharan təqdim qılınacaq xəritə mucibincə qərar verdiriləcəyi nəticəyi muahədələri olduğundan bunun suveri icraiyəsini tanzim etmək üzrə Rusiya Dövləti tərəfindən indidən Təbrizə bir ərkanı hərb miralayının irsal qılındığı kimi əsbabı münazaa deyilən cəsur və silahşor Şahsevən tayfası Qarabağ cəhətindən qaldırılıb Rumuya yaylaqlarına yerləşdirilmişdir və bunları və İran daxilində olan aşayiri Kürdüyə və sairəyə Çərkeş və Qazax süvariləri üsulunda təlim öyrətmək üzrə Tiflis Heyəti Əsgəriyəsi tərəfindən təlimçilər tərtib qılınmışdır və bir miralay da əl-an Tehranda nümunə olmaq üzrə təlim etdirilməkdədir.

Fi 16 iyul il [1]302 [28 iyul 1886]
Nüsrət

Y. PRK. ASK, 35/24

76
RUSİYADAN GÖNDƏRİLƏN SANDIQDAKI "QARABAĞ" BAŞLIQLI KİTABLARA ƏL QOYULMASI

Anadoludakı Ermənilər qışqırtmaq məqsədiylə yurda soxulan zərərli sənəd miqdarının gün keçdikcə arttığı, Ohannes adlı Ermənin Rusiyadan göndərdiyi sandıqdakı "Qarabağ" başlıqlı kitabların məzmunu tamamilə zərərli görüldüyündən əl qoyulduğuna dair Daxiliyə Nəzarəti təzkirəsi.

[18 yanvar 1887]

Hüzur-u aliyi həzrəti Sadarət-pənahiyə

Anadolu tərəflərindəki Ermənilərin təhəyyücü əfkarı zımnında aralıq aralıq tərtib və irsal olunmaqda olan sənədi muzırranın bu günlərdə kəsrətlə vürud etməkdə olduğu kimi keçən gün Erməni millətindən Ohannes adına Rusiyadan göndərilən bir sandıq dərunda olan "Qarabağ" adında yüz otuz ədəd kitabın mündəricatı kamilən zərərli görünməkdən naşi həbs olunduğuna və indiyə qədər vürud edib bər-mu'tad Maarif Nəzarəti Cəliləsinə irsal olunan bu kimi resail və sənədi muzırranın əsəmi və sairəsini mübeyyin dəftərin göndərildiyinə və bəzi ifadəyə dair Rüsumat Əmanəti Aliyyəsindən vəkili təzkirə məzkur dəftər ilə birgə təqdimi hüzur-u samiyi Sədarət-pənahiləri qılınmış olmağın ol babda.

Fi 6 Qanunu sani [1]302 [18 yanvar 1887]
DH. MKT, 1393/66

77
QARABAĞ ERMƏNİLƏRİNİN VAN, BƏYAZİD VƏ MUŞ TƏRƏFLƏRİNƏ HÜCUM ETMƏYƏ HAZIRLANMALARI

Naxçıvan və Qarabağ ermənilərinin Qars ətrafında toplanıb, İran ermənilərıylə birləşərək Van, Bəyazid və Muş tərəflərinə hücum etməyə hazırlandıqları xəbərlərinin alındığı və Qazax yüzbaşı kapitanlarından Aşimov adlı Rusun Tiflisə gəlib bu qüvvətin əmrini boynuna götürəcəyinin bildirildiyinə dair Tiflis baş konsulunun təhriratı.

[9 fevral 1891]

***

Dövləti Aliyyəyi Osmaniyə Tiflis Başşehbəndərliyi

Tiflis Başşehbəndərliyinə fi 28 Qanuni sani il [1J306 tarix və 7481/22 nömrəli Peterburq Səarətiyi Səniyyəsi tərəfi alisindən mevrud təhrirat surətidir

Nəzarəti Cəliləyi Xaricdən fi 14 Qanunu sani il [1]306 tarixiylə varid olan təhrirata leffən Qars Şehbəndərliyindən mərsul təhrirat surətinin mündəricatına nəzərən Naxçıvan və Qarabağ Ermənilərinin o cəhətdə xeylicə təcəmmu' edib icrayi tərtibat etməkdə olduqları və bunların hüdudu İraniyədən keçmələrinə İran Dövlətinin icazə verəcəyi və İran Ermənilərivlə də birləşib Van və Bəyazid və Muş cəhətlərinə hücum etməyə hazırlanmaqda olduqları rəvayət edildiyi və bundan iki il müqəddəm Habəşistan'a gedib tahtə'l-hıfz Fransızlar tərəfindən Odessaya qaytarılan Qazax təqaüd kapitanlarından Aşimof adlı Rus Tiflisə gəlib salifü'l-bəyan hücum qolunun əmri əmrini deruhdə edəcəyi aydın olmuş olmaqla təhqiqatı lazimə və silsiləyə icrasıyla alınacaq məlumatı sahihanın dərhal iş'arına və bir də bu yaxınlarda 7372/134 nömrəli təhriratla Naxçıvan Komitəsinə 15.000 rublə göndərildiyinin isti`lamına hələ bir cavab alına bilmədiyindən onun da Bila-təxir izbarına himmət buyurulması babında.

Hüseyn Hüsnü

[9 fevral 1891]

HR. SYS, 2769/11

78

NAXÇIVAN VƏ QARABAĞ ERMƏNİLƏRİNƏ QARŞI RUSİYA VƏ İRAN HÜDUDU BOYUNCA TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİNİN ARTIRILMASI

Naxçıvan və Qarabağ ermənilərinin İran sərhədindən Muş, Van və Bəyazidə hücum etmək üçün hazırlıq etməkdə olduqları bildirildiyindən Rusiya və İran hüdudu boyunca təhlükəsizlik tədbirlərinin arttırılması, sərhəddə səyyar dəstələr təşkil edilərək pasport məmurlarının vəzifələrini sui-istifadə etmələrinin qarşısının alınmasına dair Daxiliyə Nəzarəti tərəfindən Ərzurum, Trabzon və Van vilayətlərinə çəkilən teleqraf.

[2 aprel 1891]

***

Ərzurum, Trabzon, Van vilayətlərinə şifrə

Təqdim

Ermənilərin yardım cəm' etməkdə və Naxçıvan və Qarabağ Ermənilərinin də İran hüdudu cəhətindən Muş və Van və Bəyazidə hücum üçün icrayı tərtibat etməkdə olduqlarına dair olunan rəvayət üzərinə sebk edən isti`lama cavab olaraq Tiflis Başşehbəndərliyindən Xariciyə Nəzarətinə göndərilən varakayı təhqiğiyə surətində pasport nizamatını icrada məmurin-i Osmaniyə tərəfindən hüdudda təhlükəsizliyi pozacaq dərəcədə suistimalat vaqe' olmaqda olduğundan məmurunu hökumət tərəfindən bu hala ətfi nəzəri diqqət olunaraq əvvəl-baharın hululündən əvvəl Rusiya və İran cəhətindəki hüdud boyunca asakiri mustahfazanın təzyidi və səyyar müfrəzələr təşkili və hüdud kurbündə şübhəli olan karyələrə məmurlar təyini və mazannəyi su' olan və yaxud sənədi rəsmiyəyi hamil olmayan əcnəbilərin muvasalat və mürurunu dərhal məmurunu aidəyə xəbər verməyəcək olan qura muxtar və kətxudalarının məsul tutulması əşhası muzırranın məhrumu vürudu tədabiri mütəhattimədən olduğu bəyan olunmuş və pasport məmurlarının suistimalatının məhrumu vilayətə aid vezaifi mühimmədən bulunmuş olmaqla məmurunu mumaileyhim hüsnü ifayı vəzifə etmələrinə aid tedabirin müsara'atan ittihaz və icrasıyla içlərində bir günə yolsuz əhvalı görülənlər var isə onların təbdili ilə mugayiri marzi bu kimi əhvala meydan verilməməsi və sair ihtaratı məzkurə haqqında burada zərurətinə baxılmaq üzrə vaqe' olacaq rəy ü mütaliənin və məlumatı müstahsənənin dərhal bildirilməsi mütəmənnadır.

21 mart il 1307 [2 aprel 1891]

DH. MKT, 1713/94

79

RUSİYA ORDUSUNUN QARABAĞ ƏTRAFINDA TOPLANDIĞINA DAİR MƏLUMATLAR

Nəsirəddin şahın Təbrizdə olan vəliəhdi ilə Tehrandakı səltənət naibi olan oğlanlarının edamı ilə bağlı sui-qəsdin qarşısının alındığı halda qiyamın şiddətlə davam etdiyi; Rusiya ordusunun

Qarabağ ətrafında toplandığı; Bağdadda ortaya çıxan bir sıra hadisələr haqqında Altıncı Ordu Müfəttişliyindən Ulduz Sarayına çəkilən teleqraf.

[24 iyun 1891]

***

Ulduz Sarayı humayunu

Altıncı Ordunu Sultan Müfəttişliyindən şifrə teleqrafnamə

Tehrandan alınan xəbərə görə Nasıruddin Şah həzrətləriylə Təbriz'dəki vəliəhdi və Tehrandakı üçüncü oğlu naibi səltənəti bir gündə təyin olunan yerlərdə edam etmək üzrə hazırlanmış olunduğu halda vaxtı müəyyəni takarrübü zamanında Şah həzrətlərinin məhrəmi alə'l-acelə Şahın med'uv olduğu sadrıazamı Əmin Sultanın Xanəsinə gəlib maddədən agah etmiş və naibi səltənətin olduğu məhəllə də bildirilmiş olduğundan hazırlanmış olan müsəllah adamlar dağılmış və Əmin Sultan da Abdülazim mərkadinə firarən dəhalət etmişdir. Hələlik bu halı qiyam ilə fəsadın önü alınmış isə də keçənki qiyam şiddətlə davam etməkdədir və bir də Rusiya ordusunun Qarabağ cəhətində tahaşşüd etdirildiyi şübhəsizdir. Bu fəsadların arxasmda İngilis ayaqları görünməkdədir. Bir tərəfdən İrandan üləmayı Şiə və züvvar adıyla külliyətlü karvanların Bağdada gələcəyi və keçən gün altı nəfər Acəm taciri Bağdada dörd saat məsafədə garət olunub üç nəfəri qətl olunmuşdur. Bagdad vilayətinin aşayir qiyamı təzayüd etmiş və hər gecə şəhər dərununda sirri qadiriyə xanə soyub adam qətl etməktədirlər.

Fi 12 iyun il [1]307 [24 iyun 1891]

Qulları

Yaveri Əkrəmi Həzrəti Şəhriyari və
Altıncı Orduyu Sultan Müfəttişi
Nüsrət

Y. PRK. ASK, 73/36

80

NAXÇIVAN VƏ QARABAĞ ERMƏNİLƏRİNİN OSMANLI SƏRHƏDDİNƏ HÜCUM ÜÇÜN BİR ARAYA GƏLMƏLƏRİ

Bir araya gəldikləri Tiflis konsulluğu tərəfindən də təsdiqlənən Naxçıvan və Qarabağ ermənilərinin ola biləcək hücumlarına

mane olmanın Rusiya və İran hökumətlərinin işlərinə bağlı olduğu, hücumlara qarşı hazırlıq olaraq Hakkari bölgəsindəki hərbii qüvvələrin artırılması, xəyanəti ilə məşhur Bəyazid mürəxxəsəsinin vəzifədən alınması və pasport idarəsi üçün Rusiya sərhədində yeni qapılar açılaraq Rüsumat idarələri yaradılması lazım olduğu xüsuslarında Daxiliyə Nəzarəti, Sadarət, Ədliyyə və Dini işlər nəzarəti ilə edilən yazışmalar.

[3 avqust 1891]

***

Babı Ali
Sədisən, bir sıra fəsədəyi Eraminənin memaliki əcnəbiyədən esliha cəlbiylə Azərbaycan hüdudundan Memaliki Osmaniyəyə aşarmaqda olmaları məlhuz olub bu isə çox mühüm və mütəna bir sırada olduğundan Memaliki İraniyəyə varid olan Ermənilərin dəqiq və sairə çuvallarıyla buna mümasil əşyanın içində hafiyyən tüfəng və hartuş idxal edəcək olar isə esliha və sursatı məzkurənin zəbtı və hamillərinin təbəayı İraniyədən olduğu təqdirdə şədidən mücazatı və təbəayı əcnəbiyədən olub yedlərində müntəzəm pasportları olmadığı təqdirdə Memaliki İraniyədən

təb'idləri və müntəzəm pasportları var isə ad və şöhrət və əhval və ətvarlarının bər-tafsil Tehrana iş'arıyla veriləcək təlimata intizar edilməsi lazımlıdır.

Saminən, bəzi Ermənilərin fədai adını alaraq memaliki əcnəbiyədə olan Ermənilər ilə Eraminəyi İraniyə beynində hafiyyən vasitəyi xəbərləşmə olduğu müstahbərdir. Eşhası mərkumədən Azərbaycan Vilayəti daxilində olduqları təqdirdə dər-dəstləriylə təbəayı İraniyədən isə zəcr və mücazatları və təbaayi əcnəbiyədən isə tabe' olduqları məmurunu xariciyəyə ba-təslim hüdudu İraniyədən tardları və yedlərində müntəzəm pasport olduğu təqdirdə keyfiyyətin Tehrana iş'arı.

Tasi'an, Memaliki Osmaniyədən fərarilik edərək Azərbaycan Vilayəti daxilinə gələcək olan müfsidin və eşrarı Eraminənin iqamət və süknalarına meydan verilməyib dər-dəstləriylə məmurunu Osmaniyəyə təslimləri lazımdır.

[1328] [1910/1911]
Y. PRK. A, 15/36

94
BOLŞEVİK İNQİLABINDAN SONRA GÜRCÜSTAN, QAFQAZ MÜSƏLMANLARI, KRIM VƏ KAZAN TATARLARI ARASINDA MİLLİ HƏRƏKƏTLƏRİN MEYDANA GƏLMƏYƏ BAŞLAMASI

Bolşevik qiyamının ardından orduların intizamsızlık ucbatından dağıldığı, qida nəql yollarındaki nizamsızlıq səbəbilə ciddi çətinliklər yaşandığı; Ermənistan xəyalını nizami rus ordusuna və Avropa dövlətlərə ümid edərək gerçəkləştirəcəyinə inandığı ermənilərin öz könüllü ordularını qurma cəhdində olduğu; Gürcüstan, Qafqaz müsəlmanları, Krım və Kazan tatarları arasında da milli hərəkətlərin meydana gəlməyə başlamasına baxmayaraq, bolşeviklərin ordu qurmalarına müsaidə etmədikləri; Türkistanda olan Avstriyalı əsirlərə rusların ödəniş verərək müsəlmanlara qarşı əsgər olaraq istihdam etdiyi barədə Peterburqda olan Rəmzi Paşanın Rusiyanın içində olduğu vəziyyətlə əlaqədar hesabatı.

[28 yanvar 1918]

***

Peterburq Heyəti Müəxxəsəsi üzvü Rəmzi Paşa tərəfindən Hərbiyə Nəzarəti Cəliləsinə göndərilən 28. 1. [1J918 tarixli hesabatın surətidir.

Rusiyanın əhvalı daxiliyəsini əsgəri nöqteyi nəzərdən bir dərəcə xülasə ifadə etmək istəyirəm. İnqilabın ardınca hərb cəbhələrindəki ordular intizamsızlıq səbəbilə dağılmağa başladı. Çünki qiyam hər şeydən əvvəl sülhü vəd etmiş idi. Qiyam ictimai demokratiya prinsipləri daxilində meydana gəldiyi üçün imtiyazlı təsnif edər yəni zabitan sinifi məmləkətdəki burjuaziya və kapitalist sinifləri mislli dağıdıldı. Zabitlik vəzifəsi əksəriyyətlə kiçik zabitana təqdim' olundu. Dördüncü hərb ilini cəbhələrdəki sipərlərdə və zəminliklərdə keçirmək istəməyən efrad vəzifəsini və mövqeyini tərk edərək məmləkətinə, evinə avdətə başladı. Bu gün cəbhələrdə çox az kəslərə tesadüf olunur. Qitə halında bir cüz-i tam qalmış isə mövcudu çox azalmışdır. Donaburg ətrafında hüduddan keçərkən sözdə cəbhədə olmaqda olan və lakin mövcudu çox azalmış olan bir alay özünü təbdil edəcək olan digər alay hələ gəlmədiyi cəhətlə mövqeyini tamamilə tərk edib geri getmək təhdidini etmiş idi. Buna müqabil işbu cəbhədəki alayı təbdil edəcək olan Diyonikdəki alay da Almanlar ilə müharibəyə sövq olunurlar deyə cəbhəyə getmək istəmirdi. Diyonik stansiyasında cəbhələrdən çəkilmiş başıboş gəzən və gecəni stansiya binası daxilində kefli bir tərzdə keçirməkdə olan yüzlərlə adama təsadüf olunurdu.

Qafqaz qəzetlərindən xəbər alındığına görə Anadolu cəbhəsindəki Rus kıta'atı da çəkilməkdədirlər. Hətta bu geri gediş bir intizam daxilində cərəyan etmədiyi üçün keçdikləri yerləri fəlakətə məruz buraxırlar. Groznidə Vladikafkazda intizamsız bir alay zabitlərini öldürdü. Qafqaz daxilində iaşə onsuz da müşkilatla ancaq bir dərəcəyə qədər təmin edilə bildiyi halda geriyə gedən Rus kıta'atının intizamsızlıqları, yağmaları iaşəni büsbütün səktədar etdi. Tiflis şəhəri və ətrafı Novorosisk və sair limanlardan Batuma gələn və buradan içərilərə nəql olunan ərzaqla xüsusilə dəqiqlə dolanır. Cəbhəni tərk edən Ruslar qismən bu dəniz yolunu təqib etdiklərindən ərzaq nəqliyyatı mümkün olmur.

Saniyən üç il davam edən hərb səbəbindən gəmi mürəttəbatı istirahət ehtiyacından bəhslə muntazaman nəqliyyat etmir. Buna zamimətən Cənub Qazaxları'nın hökuməti muvakkatası Novorosisk və Tuapse tarikiylə buğda ixracına mane' olmuşdur. Geri çəkilməkdə olan Rus kıta'atı səbəbindən Tiflisin bütün ibtidai və idadi məktəblərini bağlayıb tələbəni dağıtmağa və bu surətlə ev ihzarına məcburiyyət hasil olmuşdur.

Tiflisdən keçən Rus əsgəriylə yerli Qafqazlı əsgərlər arasında münaferət mövcuddur. İki tərəf əsgəri bir-biri əleyhinə sövq və təhrik edənlər də əskik deyil. İtilafçılar Qafqazda da rahat dayanmırlar. Ermənilər Rus kıta'atının cəbhədən geri getmələrini xoş görmürlər. Ermənistan amalini husulə gətirmək üçün Rusları sonuna qədər alət edəcəklərini ümid edirdilər. Hərb cəbhələri yüngülləşincə boşalan yerləri xüsusilə Ermənilərdən təşəkkül edəcək yeni kıta'atın doldurması iktiza edir. Qiyamçılıqla və bir neçə min fədai ilə və arxasında böyüklər Avropa hökumətlərini görməyə alışmış olan Ermənilər bu gün Ermənistanın təşkilinin ancaq bir Erməni ordusunun yaradılması və bunların hərb cəbhəsində qarlar və sipərlər içərisində iqamə və idarəsi ilə mümkün ola biləcəyini dərk edincə geri gedən Rus əsgərlərini xoş görməməyə başladılar və bit-təbii' bu günki Bolşevik hökumətinin əleyhində oldular. Qafqazda təşkilinə təşəbbüs göstərilən könüllü ordusu həmişə eyni ehtiyacın səmərəsidir. Belə bir ordu təşəkkül edəcəksə ancaq Erməni və Gürcülərdən mürəkkəb olacaq və qüvvətidə əhəmiyyətsiz olacaqdır. Belə bir könüllü ordu təşkil imkanı olsa idi hərbin daha müsaid dövrələrində bu Erməni və Gürcü könüllüləri Ruslar ilə birlikdə çalışmış olacaqdılar. Onsuz da bu kimi könüllü kıta'atı imkanın son dərəcəsində əvvəlcə təşkil edilərək hərbə iştirak etmişdir. Yenidən əhəmiyyətli bir könüllü ordusunun Qafqazda təşkilini çox da mümkün görmürəm. Qafqazdakı Erməni qəzetləri sülhün xitamının ardından bağlana biləcək sülhü münfəridin şiddətlə əleyhində oldular. Sülhü münfəridin bütün Erməni amalınən mövqeyi filə qonmasına mane' olacağını iddia edirlər. Rus mileli müxtəlifəsində əl-yəvm böyük bir meyli məxsus görünür: Bolşevik hökumətinin prinsipləri daxilində bir Rus cəmahiri müttəfikası təşəkkül edəcəyi

cəhətlə hər millət öz respublika ərazisini hələlik bir dərəcəyə qədər təyin və tahdid edərək öz millətdaşları olan əsgərləri və zabitanı öz mıntıkasına cəlbə və milli kıta'at təşkilinə çalışmaqdadır. Ukraynalıların öz kıta'atını bir dərəcəyə yığdıqları malumdur. Qazaxlar da Don havalisində qismən içtima etmişlər. Kafkasya'da Gürcülər, Gürcü kıta'atı təşkil edə bilmək üçün cəbhələrdəki efradmı cəlbə çalışır. Bu miyanda Qafqazda və Vladikafkazda Müsəlman kıta'atının təşkilinə təşəbbüs göstərildiyi görülür. Bir dərəcəyə qədər xəbər alındığına görə Dağıstan və Terek müttəhid bir idarə təşkil etmişdir. Bunların əksərisi Dağıstan Müsəlmanlarıyla Çeçen və Çərkəslər və sair kiçik qövmlər təşkil etməkdədir. Bunlardan ayrıca kıta'at təşkil edildiyi eşidilir. Tək qüvvələri məlum deyil. İdarələrində bir intizam və inzibat mövcud olmadığı zən edilir. Başlarında əvvəlcə İstanbulda olmuş olan Kaplanof adında bir üləmanın olduğu deyilir.

Krım Tatarları da ayrıca bir idarə və milli kıtaatı əsgəriyə cəm' etmişlər. Lakin Qaradəniz donanması sevahildə bunlarla müharibə edib bit-təbii dağıtmaqdadır. Tatarlar hələlik Krım daxilində hakimdirlər. Bugünlərdə Sivastopol və Feodosia önlərində Krım Müsəlman əsgərləriylə Bolşevik Rus kıta'atı arasında kiçik müsadəmələr vage' olduğu qəzetlərdən aydın olur. Rus Azərbaycan qisimində Bakı və Şuşa tərəflərində bir Müsəlman cumhuriyəti təşkil edildiyi də deyilir. Qafqaz qəzetlərinin gətirdiği xəbərlərə görə Qafqaz miləli müxtəlifəsi yekdigərinin hüququna riayət şərtiylə müttəhid bir idarə təşkil etməkdə imiş. Mən Rus, Erməni və Gürcülərin Müsəlmanları aldatmağa çalışacaklarını zənn edirəm. Çünki Rusun Erməni və Gürcünun əsaslı köhnə təşkilatına qarşı Qafqaz Müsəlmanları hələ təşkilat etməklə məşguldurlar. Ama aralarında yaxşı təhsil almış hamiyətli gənclərin olması ümid edilməkdədir. Tatarların ən çox müctəmi' olduqları mıntıka Qazan, Ufa və ətrafıdır. Ufada içdima edən bir Tatar bura (Məclisi Məbusanı) Ufa və Qazan vilayətləriylə Orenburg, Perm, Simbirsk və Samara eyalətlərinin bəzi axsamını came olmaq üzrə Volga-Ural müstəqil hökumətini təşkilə qərar vermişdir. Qazanda içtima etməkdə olan Tatar əsgəri şurası da bu hökumətin umuru əsgəriyəsini tədvir etməkdədir. Piyada,

topçu və süvari kıta'atı qismən təşkil etmişdir. Hərb cəbhələrindən silahlarıyla məmləkətərinə dönən əfrad bu kıta'atın əsasını təşkil edir. Hələlik təşəkkül edən kıta'at haqqında kafi bir məlumat verilə bilmir. Ama şübhəsizdir ki Krımda olduğu kimi Ufa və Qazanda da bir neçə alay təşkil olunmuşdur. Krım və Ufa Tatarlarının ən böyük ümidi və Avstriya və Almaniya cəbhələrində sırf Müsəlmanlardan təşkil edilmiş olduğunu xəbər verdikləri firqələrdir. Fil-həqiqə silah altındakı Müsəlman əfradın yekunu çoxdur. Bunlar silahlarıyla məmləkətlərinə avdət edincə müstəqil Müsəlman hükümətlərinin təşkilatının təsriyi və təmini çox asanlaşacaqdır. Müsəlman şuraları (məclisi milliləri) cəbhəyi hərblərdəki Müsəlman kıta'atının yenə Rus cəmahir-i müttəfikasının əmrinə hazır olmaq üzrə məmləkətlərinə nəqlinə müsaadə edilməsini tələb etdilər. Lakin Bolşevik hökuməti Bila-nizam nəqliyyat üçün qatar vermir. Bolşeviklər Müsəlmanların hökuməti müstəqilə təşkili haqqını qəbul etməklə birlikdə bu Müsəlman hökumətlərinin ayrıca bir ordu yaratmalarına müxalif çıxırlar. Ordunun öz əllərində olmasını istəyirlər. Keçən gün Orenburg ətrafında Qazaxlarla Bolşevik kıta'atı arasında icazəmə vage' olmuş, Bolşeviklər Tatar kıta'atının mua'venətini tələb etmiş. Kəşfiyyata görə Tatar dəstələri bil-fiil müsademəyə iştirak etməyərək tamaşaçı qalmışdır. Bütün bu əhval Rusiyada vəziyyəti daxiliyənin nə mərkəzdə olduğunu bir dərəcəyə qədər göstərər. Bu gün Don mıntıkasında içtima etmiş olan Kaledin Qazax kıta'atı xatiri sayılar bir qüvvət təşkil edir. Zabitlik peşəsinin Bolşevik prinsipi mucibincə ortadan qaldırılması üzərinə aç qalan zabitanın çoxunun Kaledin ordusuna iltihak etdiyi deyilir. Buna görə də bu ordu zabit etibarıyla zəngindir ki Bolşevik kıta'atının ən böyük sinifi bu nöqtədədir. Ufa və Qurudakı Müsəlman kıta'atı da zabitan cəhətindən qüvvətlidir. Müsəlman zabitlər bu Müsəlman kıta'atına iltihak etməkdədirlər. Kaledin kıta'atı zabitanca zəngin olmaqla birlikdə Kornilov, Aleksiyef kimi böyük komandirlər də orada olmaqda və itilafçıların verməkdə olduğu pul ilə qabiliyyətini artdırmaqdadır. Zabitanın Kaledin ordusuna iltihak etməsinin bir səbəbi də işbu pul məsələsidir. Ma'mafih Kaledin ordusunun hələlik böyük miq-

yasda bir hərəkəti görülmür. Bu ordunun yazda bir təşəbbüsdə olub olmayacağı haqqında hələ bir şey deyilə bilməz.

Bu gün çox qarışıq olan Rusiya əhvalı daxiliyəsinə Rus-Rum münasibətinin inkıtasını da əlavə etməlidir. Kalas, İbrail tərəflərində olan iki Rus təriqəti geriyə getmək təşəbbüsündə olunca Rumlar mane' olmaq istəyirlər. Bit-təbii' aralarında müharibə başlar. Lakin bu müsademəyi Rus hökuməti mərkəziyəsinə və Başkomandanlığına ancaq Avstriya Ərkan-ı Hərbiyəyi Umumiyəsi xəbər verər. Bu hadisə üzərinə onsuz da çox gərgin olan Rus-Rum münasibəti tamamilə münkati' olar. Bu miyanda Bolşevik kıta'atının Ukrayna kıta'atıyla Ukrayna mıntıkasında bəzi nöqtələrdə vuruşmaqda olduğunu da dər-xatir etməliyik. Rum səfirinin pasportları verilərək Peterburqdan İsveç tarikiylə xaricə sövq edildi. Besarabyada müharibə davam edir.

Finlandiyanın istiqlalını tanımış olan Bolşevik Hökuməti Finlandiya qitəsini Rus əsgərindən tathir edəcəyini vəd etmişkən vədini icra etmədi.

Finlandiya daxilindəki siyasi cərəyanlara qarışaraq bugünkü Finlandiya hökuməti əleyhinə hərəkət edir.

Bir çox yerlərdə şiməndüfər intikalatı münkatidir. Helsingbor[g] və Viborg şəhərlərində müsademələr davam etməkdədir. Bolşevik Hökumətinin hükümatı müstəqilə təşkili xüsusundakı əsasatı bu gün bu şəkildədir. Təşəkkül edəcək olan hökumətlər Bolşevik prinsipləri dairəsində demokratiya esasatım müdafiə və himayə edəcək heyətlər tərəfindən idarə edilməlidir. Bu əsasın xilafında təşəkkül edəcək hökumətlərə qarşı silahla hərəkətdən çəkinmir. Bu gün Rumlara qarşı olan hərəkəti də bu surətlə şərh edir. Bu günki Rum Hökuməti düşər də yerinə kəndli, işçi və əsgər hökuməti keçsə dərhal münasibəti qaytarmağa və hətta Rumların haqqı olan Besarabyanın Rumıniyaya iltihakına mane' olmayacağını iddia edir. Finlandiyadakı muharibat da eyni məqsədlə edilir. Sabah Müsəlman hökumətlərinin tərzi təşəkkülünü öz prinsiplərinə müxalif görülsə eyni şiddətlə hərəkət etmək istəyəcəkləri şübhəsizdir. Lakin bu gün Ukrayna'da, Finlandiyada, Besarabyada Volga tərəflərində müharibələrlə məşğul olan Bolşeviklərin hərbi bitirmək istəyərkən yeni yeni hərblərə meydan vermələri gələcəklərinin çox əmin olub olmadığına dair şübhələr uyandırır.

Bu gün müttəhid bir əldən idarə edilər bir Rus ordusu yoxdur. Ordunun müxtəlif axsamının bir-biriylə münasibət və təması da yoxdur. Bir mıntıkadaki qüvvət digər mıntıkaya ərzaq göndərməz, şiməndüfərlər bir intizama tabe deyildirlər. Bu gün Rusiyada məbzul ərzağa malik mıntıkalar olduğu kimi Petrograd kimi qismən samandan hazırlanmış çörək yeyən aclığa məhkum mıntıkalar da vardır. Türkistanda Avstriya əsirlərinə Bolşevik Hükümətinin silah verərək Müsəlmanlara qarşı ödənişlə istihdam etdiyini eşitmişdim. Aclıqdan ölən üsəra böyük bir muzd müqabilində Bolşevik Hökumətinə əsgərlik etməyi əhvən görür. Bolşevik Hökumətinə "garde rouge" olaraq yazılan Avstriya üsərası da vardır. Bunlar muzd on-on beş ruble alırlar. Rus əhvalı daxiliyəsinin bu dərəcə pərişan və tahavvülə müsta'id olduğunu ifadə edirəm.

[28 yanvar 1918]
HR. HMŞ.İŞO, 235/13

95
MALİYYƏ KÖMƏYİ MƏQSƏDİLƏ AZƏRBAYCANDAN TORPAQ VƏ MƏDƏN MƏHSULLARININ SATIN ALINMASI

Azərbaycan hökumətinə ediləcək maliyyə köməyin təmini məqsədilə Dəmir yollar idarəsi tərəfindən Hərbi dəmiryolları və Limanlar idarəsinə satın alınacak olan torpaq və mədən məhsullarına ödənəcək məbləğ və avansın miqdarı üçün təşkil edilən mukavilənamələrin uyğun hesab edildiyinə dair Məclisi Vükəla qərarı.

[7 sentyabr 1918]

***

Məclis-i Vükəla Müzakəratına Məxsus Zabıtnamə
Xülasəyi Meali

Azərbaycan Hökumətinin təmini masarifi üçün möhtac olduğu məbləğin tədarükü zımnında Dərsəadətə muvasalat edən hökuməti müşarunileyha mürəxxəsləriylə cərəyan edən müzakirat

nəticəsində işbu müzahirəti maliyyənin təmini üçün Əsgəri Dəmiryolları və Limanlar Müdüriyəti Umumiyəsinə məhəlli məzkur məhsulatı ərziyə və madəniyəsindən iki milyon lirəlik əşyanın furuhtu və buna müqabil müdüriyəti umumiyəcə o nisbətdə sənədi nakdiyə itası cəhəti takrrur edərək buna dair bir müqavilənamə və masarifi müsta'cələləri üçün beş yüz min lirənin dərhal avans olaraq verilməsi zımnında da digər bir müqavilənamə ihzar və hər ikisi də Maliyyə Nəzarəti tərəfindən tasvib edilmiş olduğundan bəhslə məzkur müqavilənamələrin mübadiləsi istizanını mutazammın Hərbiyə Nəzarətinin 28 Avqust il 1334 tarixli təzkirəsi məlfuflarıyla oxundu.

Qərarı

Şiməndüfərlər idarəsi büdcə qanunuyla əsasən axdı müqaviləyə salahiyətdar olması hasəbiylə bunun üçün bir qərar ittihazına yer olmayıb ancaq idarəyi məzkurənin badəma bu salahiyəti isti'mal etməməsi keçəndə Məclisi Vükəla tərəfindən taxt-ı qərara alınmış olmasından ötəri qərarı vaqedən istisna bu müqavilənamənin mübadiləsi tənsib olunmuşdur. Bu vəch ilə dəvairi mütəallikaya izbarı keyfiyyət olunması təzəkkür qılındı.

Məclisi Vükəla azalarınm imzaları

7 sentyabr[l]334/ [7 sentyabr 1918] MV, 212/168

MV,212\168

96

BATUM MÜQAVİLƏSİNDƏN SONRA ERMƏNİLƏRİN GÜRCÜ VƏ ALMANLARLA BİRLİKDƏ QARABAĞ VƏ NAXÇIVANDA TÖRƏTDİKLƏRİ QƏTLİAM

Qarabağa Osmanlı birlikləri göndərilməməsi əmrinə qarşılıq, IX Ordu Komandanlığından Qarabağ məntəqəsində Osmanlı əsgəri olmadığı, Batum müqaviləsindən sonra ermənilərin gürcü və almanlarla birlikdə Qarabağ, Naxçıvan və Borçalı, xüsusilə ermənilərin isə Rəvan və Qarabağ ətrafında yağma və yandırma, qətl və köçməyə məcbur etmə əməllərində olduqları, bu cür qırğına Qarabağ Azərbaycan ordusunun mane olduğu cavabının alındığını Xariciyə Nəzarətinə bildirən təzkirə.

[21 oktyabr 1918]

***

Osmanlı Orduyu Humayunu
Başkomandanlığı Vəkaləti
Şöbə: 2
Nömrə: 9351

Xariciyə Nəzarəti Cəliləsinə

Dövlətli əfəndim həzrətləri

Qarabağa kıtaatı Osmaniyə sövq edilməməsi haqqında Doqquzuncu Ordu komandirinə yazılan teleqrafa məzkur komandirlikdən bər-vech-i gələcək cavab varid olmuşdur:

1 – Qarabağ mıntıkası daxilində Doqquzuncu Ordunun əsgəri yoxdur. Batum Muahidəsindən bu günə qədər Ermənilər, İrəvan, Qarabağ və Naxçıvan mıntıkaları daxilində və Gürcülər ilə onlara iştirak edən Almanlar Borçalı, Qazax mıntıkaları daxilindəki ümumi əhaliyi İslamiyəyə hər cürə əza və cəfanı etdilər. Ələl-xüsus Ermənilər İrəvan, Qarabağ həvalisindəki təkmil İslamları qətl və ihrak və yağma və hicrətə icbar edərək sanki kamilən məhv etdilər. Bu günə qədər Qars mıntıkasına minlərlə xanə İslam möhtac, səfil bir halda hicrət, fərarilik və ilticaya məcbur oldu. Hicrət və fərarilik edə bilməyənlər də oralarda məhv oldu. Ermənilərin hər cür pislik və məhv siyasətində pişdarları olan Andranik adındakı sərkərdə indiyə qədər yüz minlərlə qan axıtdı. Xanıman məhv etdi və hələ də Qarabağ həvalisində bu siyasətə davam etməkdədir. Qarabağ Azərbaycan İslam ordusundan göndərilmiş olan qüvvət bu məhv siyasətinə mümana'at etməkdədir. Bu qüvvətin qarşısından Ermənilər və Andranik fərarilik etmiş olduqlarından o həvalidə müvəqqəti nisbi bir sükunət hasil olmuşdur. Bunun əksini iş'ar və iddia edən Ermənilər mahza məqsədi siyasətlərini təqib və icra üçün xilafi həqiqət söyləyərək çarə axtarmaqda olduqları bəyanıyla şukkayı sənaveri tərkim qılındı əfəndim.

Fi 21 Təşrini Əvvəl il [13]34 [21 oktyabr 1918]
Sədrəzəm
və Başkomandanlıq Ərkanı Hərbiyə Rəisi
Əhməd İzzət

HR. SYS, 2460/57

97

BOLŞEVİK İNQİLABINDAN SONRA AZƏRBAYCANIN ÜMUMİ VƏZİYYƏTİNİ ƏKS ETDİRƏN HESABAT

Rusiya inqilabı üzərinə rus əsgəri qüvvələrinin İranı, xüsusilə İran Azərbaycanını azad etmələrini fürsət bilən ermənilərin, Nəsturilərlə birlikdə Azərbaycan əyalətinin qərb və cənubunda dəhşət saçdıqları; Vəhşilik bölgəsi olaraq seçilən Xoy, Urmiya, Savuçbulaq və Meyanduabın mahal və kəndləriylə birlikdə yandırılıb, yaxıldığı, xalqının yüzdə altmışının qətl edildiyi; Osmanlı qüvvələrinin müdaxiləsi ilə bu fəlakətdən xilas olanların Qarabağ istiqamətinə və ingilislərin işğalı altındakı yerlərə qaçaraq sığındıqları; Ancaq Osmanlı əsgərlərinin çəkiləcəyini eşidən bölgə müsəlman xalqının qorxu içində olduqları; Təbrizli İsmayıl Nobərinin Demokrat Firqədəki yandaşları ilə gizlicə ermənilərlə müqavilə bağlayaraq İran Azərbaycanmın müstəqil Cumhuriyət idarəsi olacağını irəli sürdüyü barədə Təbriz baş konsulunun Azərbaycanın ümumi vəziyyəti haqqında Xariciyə Nəzarətinə göndərdiyi hesabat.

[26 oktyabr 1918]

***

Dövləti Aliyyəyi Osmaniyə
Təbriz Başşehbəndərliyi
Ədəd: 7/20
Xariciyə Nəzarəti Cəliləsinə

Xülasə

Azərbaycan İranı əhvalı umumiyəsi haqqında

Məruzu çakərilərdir

Rusiya qiyam və inqilabı üzərinə Rus qüvvələrinin qismən tənzim və bir qisimi küllüsünün silah, cəbhəxana və sair ləvazimatı hərbiyələrini sataraq və ya buraxaraq qeyri mürəttəb bir surətdə İranı və xüsusilə əvvəldən bəri qüvvələri külliyyə saxladıqları Azərbaycanı İranı tahliyə etmələrini fürsət hesab edən Ermənilərlə burada Asuri adıyla yad olunan Nasturilər, Rus məkatibi hərbiyəsində və ordusunda təlim və tərbiyə görmüş Erməni zabitan və əfrad komandasında əllərinə keçirdikləri silah-

larla Azərbaycan Əyalətinin qərbində və cənubunda icrayı dəhşət və məl'anətə başlamışlar və təəssüf ki, bir sıra mənfəətpərəst Müsəlman İranlıların da müzaherətinə nail olmuşlar. Sahəyi vəhşilik olan Rumuya, Xoy, Savuçbulaq, Meyanduab şəhər və qəsəbələriylə ətrafındakı kəndlər yandırılmış, yıxılmış; müdhiş qarətlər olmuş, məzru'at məhv edilmiş, Müsəlmanlar kişi, qadın, uşaq yüzdə altmış-yetmiş dərəcəsində kəsilmiş; namuslara təcavüz vaqe' olmuşdur. Bu haşərat matmahı nəzərləri olan Təbriz şəhəriylə ətrafına tasallut etmək üzrəykən İranın vaxtilə ən xoş və müreffəh əyaləti olub axirən sahəyi fəlakət olan Azərbaycanı hüdudumuzun qərb və şimalından işğal edən qüvvəyi əsgəriyəmiz tərəfindən pərişan edilərək sağ qalanlar "Qarabağ" cəhətlərinə və İngilislərin taxtı zəbtindəki yerlərə fərariliyə məcbur olmuşdur. Təqribən üç yüz min əhalisi havi və vəliəhd mövqe olan "Təbriz" bunların təcavüzü təhlükəsinə məruz qaldığı bir sırada soyğunçuluqdan başqa bir üstünlükləri olmayan və "Demokrat" Firqəsi'nin şərir qisimindən olan Təbrizli "İsmayıl Nobəri" ilə avənəsi Azərbaycan İranının bir cumhuriyəti müstəqillə olacağını irəli sürərək və şəhərdəki müsəllah Ermənilər və miləli qeyri müslimə ilə gizlicə tövhidi iş edərək Vəliəhd Məhəmməd Həsən Mirzə həzrətlərini və İranın istiqlalına və ictimaiyyəti İslamiyyətə həddim olanlarını təhdid və təzyiqə başlamışlar isə də əsgərimizin vürudu bu əməllərinə hail olmuş və İran hökuməti mahalliyəsinin izharı acizliyi natık bir müraciəti rəsmiyəsi üzərinə mərkum Nobəri ilə iki yoldaşı cəhəti əsgəriyəcə həbs və Qarsa sövq və təb'id olunmuşdur.

Burada bi-hakkm münci sifətiylə yad və təmcid olunan əsgərimiz Azərbaycanı dərhal kamilən işğal və İngilislərin əlindəki Bagdad, Kirmanşah, Həmədan, Qəzvin, Rəşt, Ənzəli və Girmanşah, Səniyə, Həmədan yollarını Qəzvin ilə Səniyə üzərindən təhdid və Tehrana belə icrayı təsir etməkdə olduğu sıralarda xalq kamali rahat və təhlükəsizlikdə ikən vürudu acizanəmdən dörd beş gün sonra kolordularımızın bittabi' aldığı əmrə tevfikan yavaş yavaş Qafqaz və Van hüdudlarımıza doğru çəkilərək Qəzvinə qarşı irəli mevazinin çıxarıldığını və Təbrizdəki qüvvətin də getdikcə azaldığını görən və eşidənlər şəhərin kamilən boşaldılacağından və Nobəri dəstəsinin şəhər Ermənilərilə və xaricdən

gələcək Asuri və Ermənilərlə bil-iştirak qatl ü qarətə şübhəsiz surətdə başlayacağından qorxurlar, xüsusilə əsgərimizi hüsnü qəbul etməkdə irəli gedənlər təhlükəyə məruz qalırlar. Başşehbəndərhanənin bu sırada təkrar təsis və İngilislərin Təbrizə qüvvət sövq etmələri ehtimalına qarşı daim mütəyakkız olmaqla birlikdə şəhərin əsgərimiz tərəfindən müsaləhadan əvvəl tərk edilməyəcəyi haqqında verməkdə olduğumuz təminat və şehbəndərhanənin iarə olunan əşya ilə təfriş və tezyini kimi məşğələlərlə bir yerə gedilməyəcəyinin isbatına çalışılması bir dərəcəyə qədər xalqa təsəlliyət bəxş olur isə də ortada dövran edən sülh şayiələrinin hələ fi'liyata müncər olmadan əsgərimizin göz qarşısında çəkilib getməsi təvlid-i narahatlıq yaradır. Maazallah şəhərdə belə bir qiyam zühurunda çox gənc olan vəliəhdin də dərhal Tehrana getməyə məcbur olacağı şübhəsizdir. Şəhərdə sərbaz adıyla mövcud qüvvət və silah heçdir.

Nobəri dəstəsinin əlində Rusların Rumuya gölü körpüsü olan Şərəfxanədəki böyük anbarlarında və mahallı sairədə buraxdıqları və yox bahasına satdıqları iki top ilə bir neçə mitralyöz və bir çox silah və sursat olduğu mütəvatirən sabitdir. Əsgərimizin gəlmədən silahlarını saklamağı lazım bilməyən haşəratı məzkurə indi bunları izi müəyyən olmayacaq yerlərdə hifz edirlər. Şəhərdəki Ermənilərdə də külliyətlü silah və cəbhəxana olduğu deyilir. Bunların hərəkatı muhtəmələlərinə qarşı Təbrizdə və Rumuya cəhətlərində milli təşkilat qurmaq üzrə Kolordu Kumandanlığın tərəfindən vəliəhd həzrətlərinə və an-əsl Rumiyəli olub Hökuməti Osmaniyəyə mərbutiyəti mahsusası olan Hakim Akay Məcdü's-Saltanaya bir miqdar esliha verilmiş və əfradı təlim üçün Osmanlı zabitləri də təyin olunmuş isə də hər işi leytə vü lə'allə ilə geçişdirməyə alışmış olan İran məmurlarından fəaliyyəti əzimkarlıq gözləmək əbəsdir. Vəliəhd bəzi mülahazatı indiyə ilə muallım zabitanımıza təqdimi ümid edər etməkdən təvəqqi etmiş, onlar da kıt'alarına avdət etmişdir.

Vəl-hasil şəhərin sakitlik və əsayişi Osmanlı əsgərinin qurduğu medyundur. Təbriz kolordu qərargahı ikən heç kimdən bir zərrə şikayət eşidilmirdi. Qüvvət azaldıqca əsgərin ərzaq toplaması, ebniyəyi işğal eyləmələri, əfradı əsgəriyəmizin bəzi hərəkatı kimi kiçik şeylər bəhanə edilərək şikayət və etirazlar rəsmi

və qeyri rəsmi surətdə tevali etməyə başladı. Bunun nə kimi tə'sirat və təlkinat əsəri olduğu maruzatı anifə və gələcəyə ilə məlum olar. Qisimi üzvmü pulsuz markasız dəstəsindən və eşirradan olub terror təşkilatına da malik olan Təbriz demokratları Azərbaycanı İranın istiqlalı tərəfdarıdırlar. Rəsi qarında Seyid Xəlil Ərdəbili, Sərtibzadə kimi ağlı başında bəzi kəslər var isə də onlar da hərisi cah və sərvətdirlər.

Seyid Xəlil, Berlində toplanmış olan Alman tərəfdarı İran demokratlarının təlimatıyla keçəndə İstanbuldan bura gəlmişdir. Bunlar Alman konsulu vəkili sifətiylə hərəkət edən, vaxtilə Şiraz, axirən Musul Alman konsolatolarını vəkalətən idarə etmiş olan Mösyö "Vustrov"dan maddi və mənəvi müzahirətə nail olmaqdadırlar. Mumaileyh nəzdi acizimə gələrək Nobəri və rüfəkasının azad edilməsi üçün təşəbbüsdə olmağımı xahiş etdi. Halbuki vəliəhd həzrətləri bunların Qarsdan qaytarmaları mukarrər isə İran hududuna muvasalatlarmda i'zam edəcəyi məmuruna təslim edilmələrini tələb və tahtə'l-hıfz Tehrana şövqlərini münasib gördüyünü acizlərinə bəyan eylədi. Müşarünileyhin arzusuna görə bu xüsusda Doqquzuncu Ordu Komandanlığıyla xəbərləşmə etməkdəyəm. Təbriz Almaniya Konsulluğuna təyin edilmiş olan Mösyö "Leytin" hələ gəlməmişdir. Rəştdə İngilislərə qarşı hərəkət etməkdə ikən son zamanlarda tərki muhasama edən "Mirzə Kiçik Xan"a göndərilmək üzrə axirən buradakı Almanlara gələn və konsolosxanəyə nəqlolunan silahların da əl altından bu eşirraya tevzi' olunacağını zənn edirəm.

Adı çəkilən firqədən İranın bila-təcəzzi istiqlalı və məmləkətin naili sükun və rifah olması tərəfdarı olanlar ayrılaraq "ictimai demokrat" və axirən "birlik" adlarıyla qruplar təşkil etmişlər. Stabillik edə bilsələr bəlkə edamayı əsayişə müvəffəq olarlar. "İttihad" Partiyasının mü'əssisi Hökuməti Osmaniyəyə mərbutiyəti mahsusasını mücahedatıyla isbat edən "Hacı Mirzə Ağa Bülluri"dir. Özü Xoy və Səlmas Hakimliyinə təyin olunmuşdur. Mumaileyhin bənzəri çox az olması layiqi təəssüfdür. "İttihadi İslam" adıyla "Mirzə Əli Ağa Heyət" adında münəvvərü'l-fıkr bir şəxs tərəfindən təşkil olunan digər bir cəmiyyət də məmləkətin rifah və səadəti və maarifi və Hökuməti Osmaniyə ilə İranın və hər iki millətin münasibəti vədadiyələrinin təhkimi kimi

gözəl əməllər pərvərdə etməkdə isə də fəal üzvləri yox kimidir. İş görməkdən çox danışmaq və çay içmək üçün toplanarlar.

Bilumum Azərbaycanda, xüsusiylə Təbrizdə aclıq, xəstəlik çox müdhişdir. Hər gün küçələrdə, daxmalarda aclıqdan, tifüs və qızdırmanı tifoidi və emrazı sairədən yüzlərlə adam tələf olur. Qalayı əsar kaht dərəcəsindədir. Hububat az deyil; lakin kənd sahibi mütənəffiz zənginlərin eyadiyi inhisar və ihtikarındadır. Qüvvətli və təşkilatlı bir hökumət yox ki bu səfalətlərin məhmaemkən aradan qaldırılmasına çarə-saz olsun. Bir kasıb ailənin dərəyə atılmış bir at laşəsiylə təgaddiyə çalışdıqlarını şəxsən gördüm. Hulul etməkdə olan qış da təzyidi fəlakətə ba'is olacaqdır. Azərbaycanın şiddəti bürudətinə qarşı mahrukat az və bit-təbii' çox bahalıdır. A-yan adıyla yad olunan zənginlər öz rahatlarından başqa bir şey düşünmürlər. Ürəklərində zərrəyi mərhəmət yoxdur. Xalqın səfalətini tamaşadan zövq alırlar deyilə bilər.

Şəxslərin edamayı əsayişi və xalqın təhvini ihtiyacatı əmrində gərək vəliəhd həzrətləri və gərək məmurunu əyaləti hər müsahibəmdə xəbərdarlıqdan və tələb etdikləri müzahirəti ifadan halı qalmadığımı və əhvalı məhəlliyə haqqında peydərpey ərzi məlumat etməkliyim təbii olmaqla birlikdə Tehran Məsləhətgüzarlığı ilə surəti xüsusiyədə təmini xəbərləşməyə çalışdığımdan oradan aparacağım ınəlumatı da iş'ara müsaraat edəcəyimi ərz edirəm. Əmr u fərman həzrəti məhrum ləhü'l-əmrindir.

Fi 26 Təşrini Əvvəl il 1334 [26 oktyabr 1918]
Təbriz Başşehbəndərliyinə məmur Şehbəndər
İmza

HR. SYS, 2341/55

98
AZƏRBAYCAN BÖLGƏSİNDƏKİ OSMANLI QÜVVƏLƏRİNİN GERİ ÇƏKİLMƏSİNDƏKİ GECİKMƏNİN SƏBƏBLƏRİ

Azərbaycan bölgəsindəki Osmanlı qüvvələrinin Dünya Müharibəsindən əvvəlki sərhədlərinin gerisinə çəkilməsi haqqında yerli komandirliyə verilən talimatın tətbiq olunmamış olması İtilaf Dövlətləri ilə mühüm bir anlaşılmazlığa səbəb olacağından, Bern Səfirliyindən gələn şikayətlərə cavab olaraq, əsgərlərin geri alına

bilməməsindəki gecikmənin mövsüm, iqlim, nəqliyyat və s. səbəblərdən olduğunun bildirilməsini qərarlaşdıran Məclisi Vükəla qərarı.

[30 noyabr 1918]

Məclisi Vükəla Müzakiratına Məxsus Zabıtnamə

Xülasəyi Tərcümə

Mavəra-yı Qafqazda cərəyan etdiyi iddia olunan bəzi hadisəyə dair Bern səfirimizdən vaqe' olan şikayəti mutazammın teleqrafnamənin göndərildiyini və ifadatı sairəyi mühimməyi havi Vis Admiral Ammə tərəfindən alman məktubun tərcüməsi ləffiylə Xariciyə Nəzarətindən mürsəl təzkirə oxundu.

Qərarı

Salifü'z-zikr təzkirədə Azərbaycan həvalisindəki Osmanlı qüvvələrinin hərbdən əvvəlki hüdudun dərhal gerisinə alınması haqqında məhəllə komandirliyinə müqəddəmə verilən təlimata tətbiqinə rayət edilməmiş olması Düvəli Mu'təlifə ilə aramızda mühüm bir ixtilafın zühuruna səbəb verəcəyi və düvəli müşarünileyhimin şikayəti vaqe'əsi üzərinə Dövlət-i Osmaniyəyə məsuliyyət təvəccöh edəcəyi cəhətlə seri'an bu babda mukarrəratı kat'iyyə ittihaz olunaraq düvəli mu'təlifə admirallarına təbliği müvafiqi məsləhət olacağı dərmiyan qılınmış və izahatı vaqe'aya görə Mavera-yı Qafqazdakı asakiri Osmaniyənin geri alınması haqqında verilən əmr və təlimatın hələ yerinə yetirilməməsi mövsüm və iqlim və nəqliyyat və sairə kimi əsbab və avarızdan nəş'ət etmiş olduğu mislli Osmanlı qüvvələri hüdudu qədimənin bəri tərəfinə alındığı halda yerlərində qalacaq jandarma və polis ilə əhaliyi mahalliyənin mühafizəyi can və malı qeyri qabil olacağından burasının da nəzəri diqqət və taxtı təhlükəsizliyə alınması vəcaibi umurdan görünməsinə və mövzuyu bəhs haqqında dərmiyan etmiş olduğu iş'ara cavab olaraq əvvəlcə İngilis admiralına təbliğ və izbarı keyfiyyət qılınmasına mebni iş`arı vaqeyi məzburdan bəhslə müşarünileyh Vis Admiral Ammeyə də təbliğatı cavabiyədə olmasının nəzarəti müşarunileyhəyə həvaləsi təzəkkür qılındı.

30 Təşrini sani [1]334/ [30 noyabr 1918]

Məclisi Vükəla azalarınm imzaları

MV, 213/37

99
AZƏRBAYCANLILARIN ŞUŞADA ERMƏNİLƏRİ MƏĞLUB EDƏRƏK XƏZƏR DƏNİZİ SAHİLİNDƏKİ LƏNKƏRAN BÖLGƏSİNİ ƏLƏ KEÇİRMƏLƏRİ

Qars və Sarıqamışda ermənilərin bir qisim xalqı həbs və sürgün etdikləri, gəncləri casusluq ittihamı ilə öldürdükləri; Hərbi vergi adı altında xalqın əlindən at, araba və iri buynuzlu heyvanları müsadirə etdikləri, vergi ödəməyənləri Akçaqala kəndlərində topa tutduqları; Azərbaycanlıların Şuşada ermənіləri məğlub edərək Xəzər dənizi sahilindəki Lənkəran bölgəsini ələ keçirdiklərinə dair xəbərlər haqqında 15-ci Kolordu Ərkanı Hərbiyə Dairəsi tərəfindən Hərbiyə Nəzarəti ilə bəzi valiliklərə və firqə komandirliklərinə yazılan tamım.

[7 iyul 1919]

***

15. Kolordu Ərkanı Hərbiyə
Birinci Şöbəsinin Müsvəddə Vərəqəsidir.

Hərbiyə Nəzarətinə, Müfəttişliyə, Van, Ərzurum, Trabzon, Bitlis Vilayətlərinə, Erzincan Mutasarrıflığına, Üçüncü, On birinci, On ikinci Firqə, Doqquzuncu Firqə Komandirliyinə, süvari, nişançı, topçu alayı komandirliklərinə;

1 – Qarsda Ermənilər Müsəlman əhalidən irəli gələnləri həbs və təbidə germiyyət verməkdədir. Üzü təcavüzkar İslamı Osmanlı təbaası deyərək dər-dəst və geriyə təb'id etmişlər və əksər Müsəlmanı casus deyə tələf etməkdə olduqları aydın olmuşdur.

2 – Sarıqamış və Qars ətrafında Ermənilərin İslam gənclərini toplayarak gaib etdikləri xəbər alınır. Qars və Gölə mutəbəranından səkkiz şəxs məhv və Şükrü Çavuş adında bir İslam edam edilmişdir.

3 – Ermənilər təkalifi hərbiyə adı altında İslamların at, öküz, araba və mevaşilərini məcburi olaraq yığmaqdalardır. Təkalifi qəbul etməyən Akçaqala çuxurundakı səkkiz Müsəlman karyəsi üzərinə 300/üç yüz süvari ilə 300/üç yüz piyada və top, pulemyot sövq edərək əhaliyi İslamiyəyi topa tutmuşlardır. Əhalinin cümləsi Allahu əkbər dağına çıxmışlar.

5 – Azərbaycanlıların təqribən on gün qədər əvvəl Şuşada Ermənіləri məğlub və pərişan və buranı işğal və Gerus istiqamətində hərəkətə davam etdikləri və bəhri Xəzər sahilindəki Lənkəran mövqesini də əldə etdikləri və Bakı-Culfa dəmiryolunun da inşasına başladıqları xəbər alınmışdır[1].

4 – Ermənilərin xüsusilə Zəngəzur, Naxçıvan və Dərı Alagez mıntıkalarında İslamların silahlarını yığmaq üçün çox çox cəbr və şiddət və bu bəhanə ilə hər cür zülm və təhqirdə olduqları mevsukan xəbər alınmışdır.

6 – Hüdud xaricində təhlükəsizlik olmadığını Ərzurum İngilis müməssili də etiraf etmiş və Təbrizdə vaqe' olan bir qitəli basdırmaq üçün Ceneral Biçek qərargahıyla Gümrüdən Təbrizə getməkdə olduğunu da söyləmişdir.

7 – Nəzarətə, vilayətlərə şifrə ilə firqələrə süvari, topçu və nişançı alaylarına yazılmışdır.

Eynilə müfəttişliyə mücavir kolordulara və vilayətlərə (Van, Bitlis, Trabzon, Ərzurum, Erzincan) və Hərbiyə Nəzarətinə də yazılacaqdır.

[7 iyul 1919]

HR. SYS, 2877/23

100
ERMƏNİLƏRİN İRƏVAN MƏNTƏQƏSİNDƏ YENİDƏN QIRĞINA BAŞLAMALARI

Ermənilər tərəfindən İrəvan məntəqəsində müslümanlara qarşı yenidən qırğın tətbiq olunmağa başlanmış, Zəngibasar məntəqəsindəki Şulludəmirci, Aşağıbahtılı, Hacılyas, Tomuzyiyən, Şullumihmandar, Yukarıbahtılı kəndlərində əhalidən bir çox adamın öldürüldüyü, dərhal bütün evlərin və məscidlərin dağıdıldığı, xalqın nəğd pullarının zorla alınıb, əşyalarının yağmalandığı, qadınlara təcavüz edildiyi və zülmə uğrayanların Osmanlı hökumətindən kömək istədiyi.

[10 fevral 1920]

***

Şərq Cəbhəsi Komandirliyi Ərkanı Hərbiyyə
Səkkizinci Şöbəsinə Məxsus Müsvəddə Vərəqəsidir
Şöbə Nömrəsi: 113

[1] Orijinal mətndə 5. maddə 4. maddənin qarşısında yerləşir.

Dosya Nömrəsi: 1
Tarixi Təsvidi: 13/1/[13]37

Xülasə:

Yerevan mıntıkasmdaki əhaliyi İslamiyəyə edilən Erməni mezaliminin etiraz edilməsi üçün Xariciyəyə yazılan təhrirat.

Xariciyə Vəkalətinə

1 – Ermənilər Yerevan mıntıkasındaki əhaliyi İslamiyəyə axirən yenidən bir çox təcavüzatda olmuşlar və məzalim icra etmişlər.

a – Bir ildən bəri Yerevanda ticarətlə məşğuliyyət edən dörd İslamdan üçü qətl və biri ağır surətdə cərh edilmişdir.

b – Zəngibasar mıntıkasındaki Şulludəmirci karyəsindən Rəhim Məşhəd Kərimin xanəsinə 1/2/[13]37 gecəsi biri əsgər digərləri vətəndaş olmak üzrə altı Erməni girmiş, ailəsini və özünü pis vəziyyətdə döydükdən sonra bütün əşyalarını talan etmişlər 120.000 Qafqaz və 3.000 Nikola manatını qəsb etmişlərdir.

c – Eyni karyədən Gül Məmməd oğlu Kərbəlayı Heydər və Abdullah oğlu Həbibin xanələri və karyənin məscidi təxrib edilmişdir. Təxribata uğramayan sair xanə sahibləri də yerlərindən çıxarılaraq Qarabağ Ermənileri məskunlaşdırılmışdır. Ot biçməyə gedən İslam kəndlilərə də Ermənilər tərəfindən güllə atılmışdır.

d – Aşağıbahtılı karyəsindən Həsən oğlu Nəbinin xanəsini kamilən yıxaraq ağaclarını aparmışlar. Amcazadəsi Barıt Əli oğlu Məmmədin evinə girən müsəllah Erməni əsgərləri mərkumu təhdidlə pulunu almışlar və kənddəki bütün binaları və məscidi yıxmışlar.

e – Şullumihmandar karyəsindən Kərbəlayı Əli Həsən oğlu Məmmədin xanələri yıxılmış Kərbəlayı Məmməd oğlu Məmmədin on beş heyvam gəsb edilmiş, qardaşı Təyyar və əmisi oğlu Abdülbaki də on beş gündənbəri qeyb edilmişdir. Bunun öldürüldüyü zənn edilir.

f – Yuqaribahtılı karyəsində İbrahim oğlu Kərbəlayı Əsgərin üç evi təxrib edilmiş qaryəyə gedib gələnlər yollarda tutularaq darb edilmiş və soyulmuşdur. Qadınlara da hücum edilmiş və bütün kənd xalqı qorxularından bir neçə xanəyə toplanaraq çölə çıxa bilməmişlər.

g – Hacılyas kəndindən Məmməd Hacı Orucun evi basılaraq 16.000 Nikola manatı 31/l/[13]37də Hacı İbrahim oğlu Həsənin də 12.000 Nikola manatı və təkmil əşyaları qəsb olunmuşdur.

h – Bəxtili yanındakı Domuzyeyən kəndində də bəzi xanələr təxrib olunmuş və şayəd bu hallar İslamlar tərəfindən şikayət edilsə müştəkilərin kamilən qətl ediləcəyi də mövqeyi təhdiddə bildirilmişdir.

2 – Himayəsiz əhaliyi İslamiyəyə qarşı əl-an ikayı zülmdən geri qalmayan Ermənilərin qışqırığma və Bəyzadəyanın notasına qarşı müskit bir cavab təşkil edəcək olan bu məzalimin Erməni hökuməti nəzdində protesto edilməsini müvafiq görməkdə olduğum məruzdur.

***

İğdır Komandirliyi Həzrətlərinə!

Zəngibasar əhalisi tərəfindən arzuhal

Biz Zəngibasar əhalisi Taşnak quldur dəstələrinin zülmündən qovularaq minlərlə qadınlarımız uşaqlarımız Aras çayında və çöllərdə ısıtı və sayuqdan aç yalavac məhv olduq. Sonra Türk yoldaşlarımızın gəlməsini istədik. Vətən deyib gəldik, lakin bizim bədbəxtliyimizdən Aras boyu hüdud oldu. İndi dərhal Taşnaklar yenə iş başında olduqları səbəbdən biz məhv oluruq, necə ki Sarbanlar kəndində:

1 – Qanunu saninin beşində üç nəfər Əkbər Kərbəlayı İbrahim oğlu və Əli Qəhrəman oğlu və Hüseyn Məmməd oğlunu burada əvvəldən Ermənilər Zəngi kənarına aparıb korkuşuma [gülləyə] yandırmışlar ikisi ölmüş, Hüseyn Məmməd oğlu yaralanmış halda qaçmış.

2 – 12-də Şullumehmandar kəndində Məhərrəm Məmməd Bakır oğlunu üç nəfər yoldaşıyla beş mal ilə gedərkən tutmuşlar. Onlardan indiyə kimi bir xəbər də yoxdur ... öldürmüşlər.

3 – Qanunu saninin 17-də Rahimabad kəndində gecə Məşhədi Əli Əkbər Hacı Abdul-oğlunun evinə gedib talan etmişlər əşyalarını və üç dənə də inəyini aparmışlar.

4 – Yenə Qanunu saninin 20-də Şulludəmirci kəndində Rəhim Məşhəd Kərim-oğlunun evini talan etmişlər 20 min manat Nikolay pulunu, 30 min manat Qafkaz pulunu və ev əşyalarını aparmışlar.

5 – Qanunu saninin 25-də Qaraqışlak kəndində Məmməd Hacı Salman-oğlunun evini talan etmişlər üç yüz min manat Erməni pulunu, elli min manat Azərbaycan pulunu aparmışlar.

6 – Fevral ayının 4-də Sarbanlar kəndindən Şurkənd kəndinə gedərkən Şurkəndliləri bir araba ilə iki arvad yanlarında Nefi Kərbəlayı Əli Əkbəroğlu, Oruc Kərbəlayı Əli oğlu, Vəli Kali (?) oğlu, Hano Məmməd oğlu, İbrahim Heydər oğlu, Məcid Səməd oğlu, Kazım Haşim oğlu, Məmuş Xıdır oğlu bir nəfər də Qargabazarlı Əhməd Allahverdi oğlu işbu adamları tutmuşlar aparıb Qarasuyun kənarında gülləyə yandırmışlar. Bunlardan bircə nəfər Qargabazarlı Əhməd Allahverdi-oğlu özünü suya atmış xilas olmuş onun da ayaqlarını soyuq aparmış, dirilmək mümkün deyil. Minlərlə hadisələr olar qələm yazmaqdan acizdir. Bizim Zəngibasar kəndində bir ev qalmamış. Hamısını söküb ağaclarını Yerevana daşıyırlar. Və məscid və camelərimizi xarab edib hətki hörmət etmişlər. Bunların hamısını biz savtı hökuməti adlananlara müraciət və məlum etdik, cavab da vermədilər. İndi minlərlə hörmətli qadınlarımız, uşaqlarımız Yerevanda yolçuluq edirlər. Heç bir tərəfdən muavinət yoxdur. Nə hökumət və nə qeyrisi biz həmdəmiz. Qadınlı, uşaqlı, kişili əlimizi uzadırıq, öz Türk qardaşlarımıza haradan olar isə bizə bir çarə axtarın. Bizə bu yaxın zamanda bir çarə olmazsa hamımız mahvolacayıq. Yeməkdən geyməkdən insanı dolandıran əşyalardan heç bir şeyimiz yoxdur. Nə edəcəyimizi bilmirik. Yuxarıda Allahu Təala həzrətlərindən, aşağıda Türk qardaşlarımızdan başqa bir ümidgahımız yoxdur.

10 fevral 1920

Ümumi Zəngibasar əhalisi tərəfindən yazıldı.

HR. SYS, 2878/77

101
BOLŞEVİKLƏRİN GƏNCƏDƏKİ QIRĞINI VƏ NURU PAŞANIN BÖLGƏDƏKİ FƏALİYYƏTLƏRİ

Nuru Paşanın aralarında çıxan siyasi problemlərdən təsirlənərək bəzi bolşevik liderlərini edam etdirməsi üzərinə bolşeviklərin Gəncədə səkkiz min adamı qətl etdikləri; Bolşeviklərin Nuru Paşanı İrana fərarilik etməyə məcbur edərək edama məhkum etmələri üzərinə Xəlil Paşanın Moskvada Lenin nəzdinə hərəkət etdiyi; Azərbaycan hökumətinin süqutunun qaçınılmaz olduğu və bolşeviklərin Şərq İslam xalqları arasında tələfisi mümkün olmayan zərərlər etdikləri mövzularında Bakıdan qaçaraq İstanbula gələn bəzi zabitlərin ifadələrinə əsaslanaraq İstanbul Təhlükəsizlik Müfəttişliyinə təqdim edilən hesabat.

[27 iyun 1920]

***

İstanbul Təhlükəsizlik Müfəttişliyi Hüzuru Alisinə

Bu dəfə Bakıdan fırarən Dərsəadətə vürud edən zabitanın ifadə etdiyinə atfən Nuru Paşa ilə Bolşeviklərin arasında mütəhaddis məsaili siyasiyədən mütəəssirən Nuru Paşanın Bolşevik rü'əsasmdan bəzilərini edam etdirməsi üzərinə Bolşeviklərin "Gəncə"də səkkiz min şəxslik qırğın icra etmiş olduqları və Nuru Paşanın mağlubən İrana fərariliyə məcbur edildiyi və mumaileyhin Bolşeviklər tərəfindən edama məhkum olduğu və Xəlil Paşanın işbu məsələyi siyasiyəyi həll etmək üzrə Moskvada Lenin nəzdinə azimət etmiş olduğu və Azərbaycan hökumətinin inhitatı şübhəsiz olduğu vəl-hasil Bolşeviklərin Şərq akvamı İslamiyəsi arasında tələfisi na-qabil ziyan və zərərlər ika' etməkdə olduqları aydın olmaqla ərzi məlumat olunar əfəndim.

Fi 27 iyun il [1]336/ [27 iyun 1920]

İstanbul Istıtlaat Məmuru

İmza

DH. EUM. SSM, 43/18

102
OSMANLI TORPAQLARINDA AXTARILAN AZƏRBAYCAN VƏ GƏNCƏLİ ƏSİRLƏR HAQQINDAKI MƏLUMAT

Gəncə vilayətinin Yelenendorf sakinlərindən olub Muş şəhəri yaxınındakı Şəkərdağı döyüşündə Osmanlı ordusuna əsir düşən Əmil Xristian oğlu Hümel ilə digər Azərbaycanlı əsirlərin Osmanlı sərhədləri içində olub olmadığına dair Azərbaycan Cumhuriyəti İstanbul Siyasi Müməssilliyinin sualına Daxiliyə Nəzarəti tərəfindən İstanbulda və Osmanlı sərhədləri içində bu qəbil əsir qalmadığı cavabı verildiyinə dair yazı.

[19 iyul 1920]

***

Azərbaycan Cumhuriyəti
Dərsəadət Mümessili Siyasiliyi
Ədəd: 347

Xariciyə Nəzarəti Cəliləsi tərəfi alisinə

Azərbaycanın Gəncə Vilayətində kain Elenendorf müsta'mirəsi sakinlərindən Xristian Hümelin məratibinə atfən Hökuməti Cumhuriyə Xariciyə Nəzarətindən alınan bir təhriratda mərkumun 586-cı Kuban Qazax Bölüyündə xidmət etməkdə olan oğlu Emil Xristian oğlu Hümelin 5 İyul il [1]916 tarixində Muş Şəhəri kurbundaki Şəkərdağı Müharibəsində Osmanlı Ordusunun əlinə əsir düşmüş olduğu və əl-yəvm İstanbulda əsir sifətiylə olduğu bildirilməkdə və məmləkətlərinə avdət etmiş üsəranın ifadəsi dəlalətiylə Memaliki Osmaniyədə daha bir xeyli Azərbaycanlı üsəranın və bunlar miyanında Azərbaycanda təməkkün etmiş Alman mühacirlərindən bir neçəsinin tapıldığının aydın olduğu əlavə edilməkdədir. Bu babda təhqiqatı muktəziyə ifası və əslən Azərbaycanlı olan üsəranın və xüsusilə mövzuyu bəhs Emil Hümelin məmləkətinə qaytarması əsbabının təmini xüsusuna dəlalət buyurulması xahişi teyid və dü-məvəddətə zəria ittihaz qılındı.

Fi 2 may il [l]920
Müməssili Siyasi **İmza**

***

Hərbiyə Nəzarəti Üsəra Müfəttişliyi
Birinci Muamelat Şöbəsi
874/2424

Dərsəadət 19 iyul 1336 [19 iyul 1920]

Xariciyə Nəzarəti Cəliləsinə

Məruzu çakəri kəminələridir

Fi 10 May il [13]36 tarix və 22111/246 nömrəli təzkirəyi samiləri ərizəyi cavabiyəsidir.

Dərsəadətdə olduğu iddia edilən Emil Xristian oğlu Hümelin Dərsəadətdə olduğuna dair bir sər-riştə əldə edilə bilmədiyi kimi ən-əsl Azərbaycanlı olub da Memaliki Osmaniyədə qalmış bu qabil üsəra olmadığı vaqe' iş'ara cavab olaraq Daxiliyə Nəzarəti Cəliləsindən bildirilmiş olmaqla ona görə iktizayı rəftarın ifasına icazə buyurulması məruzdur. Ol babda əmr u fərman həzrəti vəliyyü'l-əmrindir.

Hərbiyə Nazir Vəkili adına Müstəşar Müavini
İmza

HR. SYS, 2233/18

MÜHACİRƏT

103
VANDA OLAN GƏNCƏ MÜHACİRLƏRİNİN DİYARBƏKİR VİLAYƏTİNƏ GÖNDƏRİLMƏSİ

Keçən illərdə Rusiyadan dörd karvan halında gələn min nəfərlik Gəncə mühacirlərinin Diyarbəkir vilayətinə göndərildiyi, yeni gələn mühacirlərin də eyni yerə məskunlaşdırılmaq istəmələri üzərinə, əşya və heyvanlarıyla gəldiklərindən az bir məsrəflə Diyarbəkrə yerləşdirildiklərini bildirən Van valiliyinin teleqrafı.

[29 sentyabr 1901]

***

Van Vilayətindən şifrə

C[evab]. 13 Sentyabr il [l]317

Keçən və bu il dörd karvanda min nəfərə qədər Rusiyanın Gəncə mühacirləri gələrək Mühacirin Komissiyası Rəyasətiylə ba'də'l-müxabirə Diyarbəkir Vilayətinə göndərilmişlər. Bu dəfə də iyirmi altı xanədə yüz altmış nəfər gəlmiş və bunların da Diyarbəkirə izamlarını tələb etmişlər. Bunların cümləsi Sünniyyü'l-məzhəb olub İrandan keçdikcə quldur tərəfindən soyulduqlarını ifadə etməkdədirlər. Bu vilayətdə İran əhalisindən Sünnilər peydərpey gəlib tələbləri üzərinə məskunlaşdırılmaqdadır. Bunlar əşyasıyla hayvanatıyla gəlməkdə olduqlarından əmri məskənləri üçün sərf olunmaqda olan axça cüziyyatdandır. Fərman.

Fi 15 Cəmaziyəlaxir il [1]319 və
fi 16 sentyabr il [1]317 [29 sentyabr 1901]
Vali **Tahir**

Y. PRK. ÜMİD ET, 56/38

104
GƏNCƏ VİLAYƏTİNİN CƏBRAYIL QƏZASINDAN KÖÇ EDƏRƏK DİYARBƏKRƏ GƏLƏNLƏRİN XƏRCLƏRİNİN TƏMİN OLUNMASI

Rusiyanın Gəncə vilayətinin Cəbrayıl qəzası əhalisindən köç edərək Vandan Diyarbəkrə gəldikləri məlum olduğu üçün mühacirlərin bahar mövsümünə qədər yemək, geyəcək, yanacaq və

kirayə məsrəflərini ödəmək məqsədilə lazım olan pulun xərclənə bilməsi üçün Mühacirini İslamiyə Komissiyasının Sadarətdən icazə tələbinə dair təzkirə.

[28 oktyabr 1901]

***

Mövqeyi samiyi həzrəti Sadarət-pənahiyə

Məruzu çakəri kəminələridir ki,

Rusiyanın Gəncə Vilayətinə tabe' Cəbrayıl qəzası əhalisindən olub dörd yüz altmış səkkizi kəbir və üç yüz biri sagir ki cəm'an yeddi yüz altmış doqquz nəfər mühacirin bərayı məskən Vandan Diyarbəkirə gəldikləri bəyanıyla bunların mövsümü bahara qədər iaşə və ləvazimatı ihrakiyələriylə möhtac olanlarının iksasına və müvəqqətən iqamələri üçün lazım olan xanələrin ucuratına hazır edilmək üzrə hələlik yüz min quruşun sərfinə teleqrafla təcili məzuniyyət itası Diyarbəkir Vilayətindən ba-telgraf iş'ar olunmuş olmaqla iktizasının sürəti ifasının Maliyyə Nəzarəti Cəliləsinə əmr və iş'arı mənutu rəyi aliyi Sadarət-pənahiləridir. Ol babda əmri fərman həzrəti mən ləhü'l-əmrindir.

Fi 28 Cəmaziyəlaxir il [1]319 və fi 29 sentyabr il [1]317
Muhacirini İslamiyə Komissiyası Alisi
Birinci Azası **Rıza**

***

Mövqeyi Samiyi Cənabı Sadarət-pənahiyə Məruzu çakəri kəminələridir ki

Fi 1 Təşrini Əvvəl il [1J317 tarixli və altmış nömrəli təzkirəyi samiyəyi cənabı Sadarət-pənahiləri ərizəyi cavabiyəsidir.

Diyarbəkirə gəldikləri əvvəlcə ərz olunan mühacirinin kablə'l-vürud daxili vilayətdə məskunlaşdırılmaq üzrə Bitlis tarikiyle gəlməkdə olduqları Van Vilayətindən ba-telgraf iş'ar qılındığından bəhslə vürudlarında məskənləri icra qılınıncaya qədər infak və iaşələri və məqqari ödənişləri üçün muktəzi məbləğin sərfinə məzuniyyət itası müqəddəmə Diyarbəkir Vilayətindən iş'ar qılınması üzərinə mühacirini mərkumə haqqında komissiya tərəfindən məlumat olmadığından Vandan keyfiyyəti huruçları istilam olunduğu və oraya vürudlarıyla ədədi əhaliləri və kasıb və bi-vayələri irəlidə təsdiqləndirilib bildirildiyi halda nizamlamayi

məsarifi üçün lazım olan rəftarın təyin və iş'ar qılınacağı cavab olaraq bəyan edilmiş olub buna cavab olaraq varid olan teleqrafnamədə mühacirini mərkumə yeddi yüz altmış doqquz nəfər olaraq Vandan vürud etdikləri və özləri Rusiyanın Gəncə Vilayətinə tabe' Cəbrayıl qəzası əhalisindən olmaqla birlikdə umumən kasıb olduqları üçün mövsümü bahara qədər iaşə və ləvazimatı ihrakiyələriylə möhtac olanlarının iksasına və müvəqqətən iqamələri üçün lazım olan xanələrin ucuratına sərf edilmək üzrə hələlik yüz min quruşun sərfinə teleqrafla təcili olaraq məzuniyət itası iş'ar olunduğu və bunların mühacirətlərinin nəyə müstənid olduğu keyfiyyəti haqqında Van Vilayətindən ba-telgraf olunan isti'lama alınacaq cavabın vürudunda ayrıca ərz və iş'ar qılınacağı dərgar olmağın ol babda əmr u fərman həzrəti mən ləhü'l-əmrindir.

Fi 10 Rəcəb il [1]319 və fi 10 Təşrini Əvvəl il [1]317
Muhacirini İslamiyə Komissiyası Alisi
Birinci Azası **Rıza**

Mövqeyi Samiyi Cənabı Sadarət-Pənahiyə

Məruzu çakəri kəminələridir ki,

Fi 10 Təşrini Əvvəl il [1]317 tarixli və doqquz yüz iyirmi nömrəli ərizəyi aciziyə zeyldir.

Rusiyanın Gəncə Vilayətinə tabe' Cəbrayıl qəzası əhalisindən olub Vandan Diyarbəkirə gedən yeddi yüz altmış doqquz nəfər mühacirinin bundan əlli gün əvvəl İran tarikiylə Vana gəldikləri və cümləsinin Sünniyyü'l-məzhəb olduqları və axirən sərfinə məzuniyyət istənilən on min quruş da bunların məsarifi iaşələri də daxil olduğu bu dəfə Van Vilayəti'ndən cavab olaraq varid olan teleqrafnamədə iş'ar qılınmış və zikr olunan on min quruşun sərfinə məzuniyyət ita buyurulması xüsusu da 14 Sentyabr il [1]317 tarixində hüzuru samiyi cənabı Sadarət-pənahilərinə ərz və izbar edilmiş olmağın ol babda əmr u fərman həzrəti mən ləhü'l-əmrindir.

Fi 15 Rəcəb il [1J319 və fi 15 Təşrini Əvvəl il [1]317 [28 oktyabr 1901]
Muhacirini İslamiyə Komissiyası Alisi
Birinci Azası **Rıza**

A. MKT. MHM, 515/23

105
MALATYAYA GƏLƏN QARABAĞ VƏ DAĞISTAN MÜHACİRLƏRİNİN EHTİYACLARININ BAHAR MÖVSÜMÜNƏ QƏDƏR TƏMİN OLUNMASI

